BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASI

# 2022 – 2024 YARIŞ QAYDALARI

## Batut Gimnastikası

BGF İcraiyyə Komitəsi tərəfindən təsdiqlənmişdir,
May 2021-cı il

# MÜNDƏRİCAT

Səhifə

**I HİSSƏ - YARIŞ QAYDALARI ....................................................................................5**
Müqəddimə ....................................................................................5
Təşəkkürlər ....................................................................................5
Qısaltmalar və tariflər ....................................................................................6
**BATUT üzrə Yarış Qaydaları ....................................................................................7**
A. ÜMUMİ ....................................................................................7
1. Fərdi yarışlar ....................................................................................7
2. Komanda yarışları ....................................................................................8
3. Sinxron yarışlar ....................................................................................8
4. Qaliblər ....................................................................................8
5. Hərəkətlər ....................................................................................8
6. Gimnast və onları sığortalayan şəxslərin geyimləri * ....................................................................................9
7. Yarış kartları ....................................................................................10
8. Batutlar ....................................................................................10
9. Təhlükəsizlik tələbləri ....................................................................................10
10. Protokollaşdırma və katiblik ....................................................................................10
11. Ali hakimlər və apellyasiya hakimləri ....................................................................................11
B. YARIŞ PROSEDURU ....................................................................................11
12. İsinmə hərəkətləri ....................................................................................11
13. Hərəkətə başlama ....................................................................................11
14. Elementləri yerinə yetirərkən tələb olunan vəziyyətlər * ....................................................................................11
15. Elementlərin təkrarlanması * ....................................................................................12
16. Hərəkətin dayandırılması ....................................................................................12
17. Hərəkətin başa çatdırılması * ....................................................................................13
18. Qiymətləndirmə ....................................................................................13
C. HAKİMLƏR BRİQADASI ....................................................................................15
19. Hakimlər briqadası ....................................................................................15
20. Hakimlər briqadasının sədrinin vəzifələri ....................................................................................16
21. İcra üzrə hakimlərin vəzifələri (1-6 saylı hakimlər) ....................................................................................16
22. Çətinlik üzrə hakimlərin vəzifələri (7 və 8-ci hakimlər) ....................................................................................17
23. Üfüqi yerdəyişmə üzrə hakimlərin vəzifələri ....................................................................................18
**TAMBLİNQ üzrə Yarış Qaydaları ....................................................................................19**
A. ÜMUMİ ....................................................................................19
1. Fərdi yarışlar ....................................................................................19
2. Komanda yarışları ....................................................................................19
(3) - ....................................................................................19
4. Qaliblər ....................................................................................20
5. Hərəkətlər ....................................................................................20
6. Gimnastların geyimləri * ....................................................................................20
7. Yarış kartları ....................................................................................21
8. Tamblinq avadanlığı ....................................................................................21
9. Təhlükəsizlik tələbləri ....................................................................................21
10. Protokollaşdırma və katiblik ....................................................................................21
11. Ali hakimlər və apellyasiya hakimləri ....................................................................................21
B. YARIŞ PROSEDURU ....................................................................................21
12. İsinmə hərəkətləri ....................................................................................21
13. Hərəkətə başlama ....................................................................................21
14. Elementləri yerinə yetirərkən tələb olunan vəziyyətlər * ....................................................................................22
15. Elementlərin təkrarlanması * ....................................................................................22

16. Hərəkətin dayandırılması ... 23
17. Hərəkətin başa çatdırılması * ... 23
18. Qiymətləndirmə ... 23
C. HAKİMLƏR BRİQADASI ... 25
19. Hakimlər briqadası ... 25
20. Hakimlər briqadasının sədrinin vəzifələri ... 25
21. İcra üzrə hakimlərin vəzifələri (1-6 saylı hakimlər) ... 26
22. Çətinlik üzrə hakimlərin vəzifələri (7 və 8-ci hakimlər) ... 26
**İKİLİ MİNİ BATUT üzrə Yarış Qaydaları ... 28**
A. ÜMUMİ ... 28
1. Fərdi yarışlar ... 28
2. Komanda yarışları ... 28
(3) - ... 28
4. Qaliblər ... 28
5. Hərəkətlər ... 29
6. Gimnast və onları sığortalayan şəxslərin geyimləri * ... 29
7. Yarış kartları ... 29
8. İkili mini batut aləti ... 30
9. Təhlükəsizlik tələbləri ... 30
10. Protokollaşdırma və katiblik ... 30
11. Ali hakimlər və apellyasiya hakimləri ... 30
B. YARIŞ PROSEDURU ... 30
12. İsinmə hərəkətləri ... 30
13. Hərəkətə başlama ... 30
14. Elementləri yerinə yetirərkən tələb olunan vəziyyətlər * ... 31
15. Elementlərin təkrarlanması * ... 31
16. Hərəkətin dayandırılması ... 31
17. Hərəkətin başa çatdırılması * ... 31
18. Qiymətləndirmə ... 32
C. HAKİMLƏR BRİQADASI ... 33
19. Hakimlər briqadası ... 33
20. Hakimlər briqadasının sədrinin vəzifələri ... 34
21. İcra üzrə hakimlərin vəzifələri (1-5 saylı hakimlər) ... 34
22. Çətinlik üzrə hakimlərin vəzifələri (6 və 7-ci hakimlər) ... 35
**II Hissə - Hakimlik üzrə göstərişlər ... 36**
A. BATUT, TAMBLİNQ VƏ İKİLİ MİNİ BATUT YARIŞ QAYDALARININ TƏFSİRİ ... 36
B. BATUT YARIŞ QAYDALARININ TƏFSİRİ ... 39
C. TAMBLİNQ YARIŞ QAYDALARININ TƏFSİRİ ... 40
D. İMB YARIŞ QAYDALARININ TƏFSİRİ ... 40
**III Hissə - ƏLAVƏLƏR ... 51**
A. BATUT ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI PRİNSİPLƏRİ ... 51
B. BATUT ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI – NÜMUNƏLƏR ... 51
C. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI (TAM YQ §18.1-ə istinad) ... 52
D. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI – VƏZİYYƏT BONUSLARI ... 52
E. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI – VİNTLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ ... 52
F. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK – NÜMUNƏLƏR ... 53
G. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI (TAM YQ §15-ə istinad) ... 53
H. İKİLİ MİNİ BATUT ÜZRƏ ÇƏTİNLİK – NÜMUNƏLƏR ... 54
I. BGF HESABLAMA SİSTEMİ – BATUT VƏ İMB ... 55
J. BGF İŞARƏLƏRİ – BATUT ... 55
K. BGF TERMİNOLOGİYASI ... 56
L. BİRİNCİ HƏRƏKƏT ÜZRƏ TƏLƏBLƏR – BATUT ... 57
M. HESABLAMA VƏ YUVARLAQLAŞDIRMA NÜMUNƏLƏRİ ... 58

N. ELEKTRON SİSTEM NASAZLIĞI ..... 59

O. TAMBLİNQ ÜZRƏ AÇIQLAMA ..... 61
P. ALİ HAKİMLƏR, REFERENT HAKİMLƏR, TNS SİSTEMİNDƏN İSTİFADƏ ..... 64

# I HİSSƏ - YARIŞ QAYDALARI

## Müqəddimə

Bu yarış qaydaları 1 yanvar 2021-ci il tarixindən etibarən istifadə üçün BGF İcraiyyə Komitəsi tərəfindən təsdiqlənmişdir. Qaydalar bütün batut gimnastikası üzrə yarışlar, eləcə də Beynəlxalq Gimnastika Federasiyası (BGF) və onun üzvləri tərəfindən təşkil olunan çempionatlar üçün məcburidir.

Sənəd bütün səviyyələrdə keçirilən yarışların əsası qismində istifadə üçün nəzərdə tutulmuşdur. Müəyyən yarışlarda (BGF yarışları, Dünya Çempionatları və s.) əlavə və ya fərqli qaydalar tətbiq edildikdə, müvafiq istisnalar / dəyişikliklər kursiv ilə göstərilir.

Bu Qaydalar ilə yanaşı aşağıdakı sənədlər oxunmalıdır:

- Hakimlik üzrə təlimat və cari Yarış Qaydalarının təfsiri
- BGF-nin Texniki Reqlamentləri, Bölmə 1
- BGF-nin Texniki Reqlamentləri, Bölmə 4 - Batut Gimnastikası üzrə Xüsusi Qaydalar
- BGF-nin Hakimlər üçün Ümumi Qaydaları və BGF-nin Batut Gimnastikası üzrə Hakimlər üçün Xüsusi Qaydaları
- Yaş Qrupları üzrə BGF Dünya Yarışlarının Qaydaları
- BGF Dünya Çempionatları və Seriyaları üzrə Qaydalar - Batut və Tamblinq
- BGF avadanlıq və alət standartları, Bölmə 2.5 Batut Gimnastikası

Bu Qaydalar ilə Texniki Reqlamentlər arasında hər hansı ziddiyyət olarsa, Texniki Reqlamantlər üstün hesab ediləcəkdir.

Bu Qaydalar ilə Dünya Kuboku Qaydaları, Yaş Qrupu üzrə Dünya Yarışlarının Qaydaları kimi istənilən BGF qaydaları arasında hər hansı ziddiyyət olarsa, bu Qaydalar üstün hesab ediləcəkdir.

Zəruri hesab edildikdə, öz ölkələrində batut gimnastikasını daha da inkişaf etdirmək məqsədilə federasiyalar keçirdikləri daxili yarışlarda bu Qaydalara düzəliş etmə hüququna malikdirlər.

## Təşəkkürlər

**BGF-in batut gimnastikası üzrə Texniki Komitəsinin** bütün üzvləri 2022 - 2024 Batut Gimnastikası üzrə Yarış Qaydalarının hazırlanmasına öz töhfəsini vermişdir.

| | | |
|---|---|---|
| **Prezident** | Horst Küntse | ALM |
| **1-ci Vitse-Prezident** | Kristof Lambert | FRA |
| **2-ci Vitse-Prezident** | Stefan Düşe | KAN |
| **Üzv** | Liu Ksinq | ÇİN |
| **Üzv** | Tatyana Şuyskaya | UKR |
| **Üzv** | Nikolay Makarov | RUS |
| **Üzv** | Dmitri Polyaruş | BLR |
| **İdmançı təmsilçisi** | Nuno Merino | POR |

# Qısaltmalar və tariflər

Bu QAYDALARDA aşağıdakı qısaltma və tariflər istifadə edilmişdir:

| | |
|---|---|
| **BGF** | Beynəlxalq Gimnastika Federasiyası |
| **BAT-TK** | Batut gimnastikası üzrə BGF-in Texniki Komitəsi |
| **BGF yarışları** | Olimpiya Oyunları, Dünya Çempionatları, Ümumdünya Oyunları, Dünya Çempionatı yarışları və BGF tərəfindən keçirilən xüsusi yarışlar. |
| **Batut Gimnastikası** | Yarışlar: Batut, Sinxron Batut, İkili Mini Batut və Tamblinq |
| **BAT** | Batut |
| **SİN** | Sinxron batut |
| **TAM** | Tamblinq |
| **İMB** | İkili Mini Batut |
| **TR** | Texniki Reqlamentlər |
| **YQ** | Yarış Qaydaları |
| **OO** | Olimpiya Oyunları |
| **DÇ** | Dünya Çempionatları |
| **HHS** | Hakimlər Heyətinin Sədri |
| **VÖC** | Vaxtı Ölçmə Cihazı |
| **UM** | Uçuş Müddəti |
| **ÜYC** | Üfüqi Yerdəyişməni Ölçmə Cihazı |
| **ÜY** | Üfüqi Yerdəyişmə |

- Tək halda istifadə edilən sözlər cəm halı, cəm halda istifadə edilənlər tək halı da nəzərdə tutur.
- Kişi cinsini bildirən sözlər qadın cinsini də nəzərdə tutur.

## Əlaqə üçün BGF-nin rəsmi ünvanı

Fédération Internationale de Gymnastique
Avenue de la Gare
CH-1003 Lausanne
SWITZERLAND

| | |
|---|---|
| Telefon: | +41.21.321.55.10 |
| Faks: | +41.21.321.55.19 |
| E-e-poçt: | info@fig-gymnastics.org |
| İnternet: | http://www.fig-gymnastics.com |

## Yarış Qaydaları

# BATUT

01.01.2021 tarixindən etibarlıdır

# A. ÜMUMİ QAYDALAR

**A. ÜMUMİ**

Batut üzərində çıxışlar on (10) elementdən ibarət olub, müxtəlif növ önə, arxaya və dönmələr ilə salto elementləri nümayiş edilməlidir. Hərəkət zamanı bədənə mükəmməl nəzarət bacarığını nümayiş etdirmək üçün hərəkətin bütün elementləri yaxşı koordinasiya, icra texnikası, hündürlük, hündürlüyün qorunması və bədənin açılması ilə yerinə yetirilməlidir. Hərəkətlər hündür, fasiləsiz, aralıq tullanmalara yol verilmədən, ayaqlar üzərindən ayaqlara, kürək, qarın və oturma vəziyyətinə icra edilən salto elementləri ilə xarakterizə olunur.

**1. FƏRDİ YARIŞ**

1.1 Böyüklərin batut üzrə yarışları, fərdi və sinxron çıxışları aşağıda verilmiş struktura uyğun olaraq təsnifat və final mərhələlərindən ibarət olur:

| Yarış mərhələsi | Kim yarışır? | Hansı hərəkəti icra edir? | Çıxış etmə ardıcıllığı |
|---|---|---|---|
| 1-ci təsnifat mərhələsi | Bütün gimnastlar | 2 hərəkəti icra edir, ən yaxşı nəticə nəzərə alınır | Püşkatma |
| 2-ci təsnifat mərhələsi | Əgər iştirakçı sayı 48 və ya çox olarsa, ən yaxşı nəticələr əldə etmiş 24 gimnast.<br>32-47 iştirakçı sayı olarsa, ən yaxşı nəticələr əldə etmiş 16 gimnast.<br>İştirakçı sayı 31 və daha az olarsa, heç bir gymnast.<br>Hər ölkədən maksimum 3 gimnast. | 1 hərəkət icra edilir | Püşkatma |
| 1-ci Final mərhələsi | Ən yaxşı nəticələr əldə etmiş 8 gimnast Final mərhələsinə yüksəlir.<br>Hər ölkədən maksimum 2 gimnast. | 1 hərəkət icra edilir | Püşkatma |

Gənclər və böyük arasında yaş qruplarının yarışlarında təsnifat mərhələsində iki hərəkət icra edilir və hər iki hərəkətin xallarının cəmi gimnastın yekun xalını müəyyən edir. Gənclər arasında yarışlar və dünya yaş qrupları yarışlarının qaydalarına uyğun olaraq birinci hərəkət xüsusi tələbləri ehtiva edilərək icra olunur, ikinci hərəkət isə ixtiyaridir.

Milli Federasiyalar öz səlahiyyətləri çərçivəsində keçirdiyi yarışlarda xüsusi tələblərə ehtiva edimiş

hərəkətlərin əvəziə mütləq hərəkətlərdən istifadə edə bilərlər.

**1.2. Təsnifat mərhələləri**

1.2.1. Təsnifat mərhələləri iki hissədən ibarət olur: 1-ci Təsnifat mərhələsində qeydiyyatdan keçmiş bütün gimnastlar iştirak edir və 2-ci Təsnifat mərhələsində gimnastların sayı qeydiyyatdan keçmiş nominativ iştirakçı sayından asılı olur:

- 1-31 iştirakçı olduqda 2-ci Təsnifat mərhələsi olmur
- 32-47 iştirakçı sayı olduqda 2-ci Təsnifat mərhələsi 16 gimnastla başlayır
- 48 və daha çox iştirakçı sayı olduqda 2-ci Təsnifat mərhələsi 24 gimnastla başlayır

1.2.2. 1-ci Təsnifat mərhələsi iki ixtiyari hərəkətdən ibarət olur. İca edilmiş iki hərəkətdən ən yüksək xalla qiymətləndiriliş hərəkətin xalına əsasən gimnastın Təsnifat mərhələsi və ya Final mərhələsinə keçidi müəyyən edilir. (bax: TR Maddə.1).

1.2.3. Təsnifat mərhələləri üçün çıxış etmə ardıcıllığı (1 və 2-ci Təsnifat mərhələləri) püşkatma yolu ilə müəyyən edilir. Gimnastlar on iki (12) nəfərlik qruplara bölünərək növbəti qrupun başlamasına qədər iki hərəkət icra edir. Gimnastların ümumis ayı on ikiyə (12) bölünmürsə ilk qruplarda gimnastların sayı digər qruplara nəzərən bir gimnast arıq olur.

1.2.3.1. Hər yarış qrupunun qalibi 2-ci Təsnifat mərhələsi və ya Finala vəsiqə əldə edir. (bax: 1.2.1)

1.2.3.2. 2-ci Təsnifat mərhələsi üçün 16-dan 25-ə qədər qalan yerlər və ya Final mərhələsi üçün 8 yer ilk təsnifat mərhələsinin yekun sıralamasına uyğun olaraq verilir.

1.2.4. 2-ci Təsnifat mərhələsində maksimum 3 gimnast və ya bir ölkədən 2 cütlüklə məhdudlaşır. Əgər bir ölkədən 4 gimnast öz müvafiq yarış qruplarında qalib olarsa, o zaman 3 ən yüksək xal toplamış gimnastların xalları nəzərə alınır. Gimnastların xalları eyni olduqda, yerlərin müəyyən edilməsi üçün olan qaydalar tədbiq edilir.

1.2.5. 2-ci Təsnifat mərhələsində püşkatmaya əsasən hər yarış qrupu ya 8 və ya 12 gimnastdan ibarət olur. Gimnastlar 2-ci Təsnifat mərhələsini sıfır xalla başlayır. Bu mərhələ ixtiyari hərəkələr icra olur.

1.2.5.1. Hər yarışan qrupun qalibi Final mərhələsinə vəsiqə əldə edir.

1.2.5.2. Final mərhələsi üçün qalan altı (6) yer gimnastların 2-ci Təsnifat mərhələsindəki yekun sıralamasına uyğun olaraq verilir.

1.2.6. Final mərhələsində bir ölkədən maksimum 2 gimnast və 1 cütlüklə iştirak edə bilər. Əgər 1 ölkədən 2 cütlük öz müvafiq yarış qruplarında qalib olarsa, o zaman ən yüksək xal toplamış cütlüyün xalı nəzərə alınır.

**1.3. Final mərhələsi**

1.3.1. Final mərhələsi üçün çıxış etmə ardıcıllığı püşkatma yolu ilə müəyyən edilir.

1.3.2. Final mərhələsində səkkiz (8) gimnast bir (1) ixtiyari hərəkət icra edir. Gimnastlar sıfır xalı ilə başlayır. Qalib gimnast Final mərhələsində ən yüksək xal qazanmış gimnastdır.

1.3.3. Gimnastların xalları eyni olduqda, yerlərin müəyyən edilməsi üçün olan qaydalar tədbiq edilir. (bax: Maddə 4.4 TR).

**2. KOMANDA YARIŞI**

2.1. Komanda ən azı üç (3) və ən çoxu dörd (4) gimnastdan ibarət olur (kişi və ya qadın yarışları).

**2.2. Təsnifat mərhələləri**

2.2.1. 1-ci Təsnifat mərhələsi Komanda Finalına vəsiqə rolunu oynayır.

2.2.2. Komanda üzvlərinin 1-ci Təsnifat mərhələsində topladığı üç (3) ən yüksək xalın cəmi bu mərhələdən sonra komandanın ümumi xalını (6) cəmi) müəyyən edir.

**2.3. Final mərhələsi**

2.3.1. 1-ci Təsnifat mərhələsində beş (5) ən yüksək yerə layiq görülmüş komandalar Komanda yarışları üzrə Final mərhələsinə vəsiqə əldə edir.
2.3.2. Final mərhələlərindəki Komandalar üç (3) gimnastdan ibarət olur. Hər gimnast bir hərəkəti icra edir.
2.3.3. Komanda yarışları üzrə Final mərhələləri üç (3) mərhələdən ibarət olur. Komandaların hər üç (3) dövrədə çıxışetmə ardıcıllığı sıralama ballarına uyğun olub, komandanın 5-ci yerə layiq görülmüş gimnastı birinci, 4-ci yerə layiq görülmüş gimnastı ikinci çıxış edir…
2.3.4. MF Final mərhələsində komandaları adından çıxış edəcək üç (3) gimnastı onların çıxışetmə ardıcıllığına uyğun olaraq Komanda yarışları üzrə Final mərhələsindən ən azı bir saat əvvəl təyin edir.
2.3.5. Komandanın tutduğu yer hər mərhələdə qazanılan xalların (5,4,3,2 və 1) cəminə əsasən müəyyən edilir. Qalib komanda, Komanda yarışları üzrə Final mərhələsində əldə edilən xalların cəmi ən yüksək olan komanda sayılır.
2.3.6. Gimnastların xalları eyni olduqda, yerlərin müəyyən edilməsi üçün olan qaydalar tədbiq edilir.
(bax: Maddə 4.4 TR).

**2.4. Ümumi Komanda yarışları üzrə Final Mərhələsi.**

Komanda aşağıda verilmiş kateqoriyaların hər birindən təşkil olunan bir (1) kişi və bir (1) qadın gimnast / cütlükdən ibarət olur:

- Fərdi çıxış
- Sinxron çıxış
- Tamblinq
- İMB

2.4.1. Təsnifat mərhələləri
2.4.1.1. 1-ci Təsnifat mərhələsi Ümumi Komanda yarışları üzrə Final mərhələsi üçün təsnifat rolunu oynayır.
2.4.1.2. Komandanın əldə etdiyi xal hər kateqoriya və cinsdən olan bir gimnastın əldə etdiyi ən yüksək xalın cəmindən ibarət olur.

2.4.2. Final mərhələləri
2.4.2.1. 1-ci Təsnifat mərhələsində ən yüksək yerə layiq görülmüş beş (5) komanda, Komanda yarışları üzrə Final mərhələsinə vəsiqə əldə edir.
2.4.2.2. Final mərhələlərinə yüksəlmiş Komandalar hər kateqoriya və cins üzrə hər ölkədən bir gimnastdan ibarət olur. Hər gimnast bir hərəkəti icra edir.
2.4.2.3. Bax: TR 4-cü Bəndində verilmiş yarış prosesi
2.4.2.4. Qiymətləndirmə komandanın hər dövrədə əldə etdiyi xalların cəminə (5, 4, 3, 2 və 1) əsasən müəyyən edilir. Qalib komanda Komanda yarışları üzrə Final mərhələsində sıralama ballarının cəmi ən yüksək olan komandadır.
2.4.3. Gimnastların xalları eyni olduqda, yerlərin müəyyən edilməsi üçün olan qaydalar tədbiq edilir.(bax: Maddə. 4.4 TR).

**3. SİNXRON YARIŞLAR**

3.1. Sinxron cütlük iki (2) qadın və ya iki (2) kişidən ibarət olur.
3.2. Bir gimnast yalnız bir (1) sinxron cütlükdə yarışa bilər.
3.3. Cütlüklə eyni elementi eyni vaxtda icra etməli (bax: həmçinin §16.1.9.1) və hərəkətə eyni istiqamətə baxaraq başlamalıdırlar. Fırlanma hərəkətlərinin eyni istiqamətdə olması mütləq deyil.
3.4. Sinxron yarış fərdi yarışlarla eyni formatda olur: §1-ci bəndə əsasən, 1-ci, 2-ci Təsnifat Mərhələləri və Final Mərhələsi. Qaliblər Final mərhələsində əldə edilmiş xallara əsasən müəyyən edilir.
3.4.1. Gimnastların xalları eyni olduqda, yerlərin müəyyən edilməsi üçün olan qaydalar tədbiq edilir.
3.5. (bax: Maddə. 4.4 TR).

**4. (4) –**

**5. HƏRƏKƏTLƏR**

**5.1. Hər hərəkət on (10) elementdən ibarət olur.**

5.1.1. 17-21 yaş qrupu istisna olmaqla, Gənclər və Böyüklər yaş kateqoriyasında Təsnifat Dövrəsinin birinci hərəkəti həm ixtiyari elementləri və həm də xüsusi tələbləri ehtiva edir. Elementlərin icra ardıcıllığı gimnastın seçiminə əsasən yerinə yetirilir. Bu zaman yalnız icra xalı, üstəgəl üfüqi yerdəyişmə və bu hərəkət zamanı uçuş vaxtı nəzərə alınır.

5.1.2. Xüsusi tələblər üzrə dəyişikliklər batut gimnastikası üzrə Texniki Komitə (BAT – TK) tərəfindən BGF ofisi vasitəsilə növbəti Dünya Çempionatından ən azı bir (1) il əvvəl dərc edilir və həmin Çempionatın keçirildiyi ilin 1 yanvar tarixindən qüvvəyə minir.

5.1.3. Təsnifat Dövrəsində ikinci hərəkət və Yarımfinal və Final mərhələlərində icra edilən hərəkətlər ixtiyari hərəkətlərdir. Bu zaman cəmi xalı əldə etmək üçün icra üzrə xal üstəgəl üfüqi yerdəyişmə və uçuş müddəti çətinlik xalına əlavə edilir.

5.2. İcra, üfüqi yerdəyişmə, uçuş vaxtı və çətinlik üzrə bütün fərdi hərəkət xalları cəmi xalı əldə etmək üçün toplanır. İcra, üfüqi yerdəyişmə, sinxronlaşdırma və çətinlik üzrə bütün sinxronlaşdırılmış hərəkət xalları cəmi xalı əldə etmək üçün toplanır.

5.3. Hərəkətlər zamanı təkrar cəhdlərə icazə verilmir.

5.3.1. Əgər hərəkət zamanı gimnasta aşkar maneələr olarsa (nasaz avadanlıq və ya ciddi kənar təsir), Hakimlər Briqadasının Sədri əlavə cəhdə icazə verə bilər. Gimnastın geyimi "avadanlıq" hesab edilmir.

5.3.2. Müdaxilə sinxron cütlük arasında ünsiyyətə mənfi təsir etməzsə, tamaşaçının səs – küyü, alqışlaması və buna bənzər digər hallar bir qayda olaraq maneə hesab edilmir.

## 6. GİMNAST VƏ ONLARI SIĞORTALAYAN ŞƏXSLƏRİN GEYİMLƏRİ*

**6.1. Kişi gimnastlar**

- Qolsuz və ya qısa qollu triko
- Gimnast şortu
- Gimnast şalvarı
- Ağ batut ayaqqabıları və / ya gimnast şalvarı ilə ilə eyni rəngdə olan ayaq örtüyü.

6.2. * Qadın gimnastlar

- qollu və ya qolsuz triko və ya kombinezon (dəriyə kip oturmalıdır)
- Uzun corabların geyilməsinə icazə verilir ( dəriyə kip oturmalıdır)
- Gimnast şortusu geyilə bilər (dəriyə kip oturmalıdır)
- Dəriyə kip oturmayan istənilən digər "geyim" növünə icazə verilmir
- Təhlükəsizlik məqsədləri üçün üz və ya başın örtülməsinə icazə verilmir
- Batut ayaqqabıları və / ya ağ ayaq örtüyü

6.3. Yarış zamanı bəzək əşyaları və ya qol saatının taxılmasına icazə verilmir. Lentlə bağlanmış olarsa, qaşı olmayan üzük taxıla bilər. Sarğı dərinin rəngi ilə böyük təzad təşkil etməməlidir. Alt geyimi gözlə görünməməlidir.

6.4. §6.1, §6.2 və §6.3 bəndlərinin tələblərinin pozulması Hakimlər Briqadasının Sədrinin tətbiq etdiyi 0.2 xallıq cərimə ilə nəticələnə bilər ki, bu da pozuntu baş verərkən icra edilən hərəkətin cəmi xalından çıxılır. Ciddi pozuntu həmin pozuntunun baş verdiyi dövrədən kənarlaşdırılma ilə nəticələnə bilər və bu qərar hakimlər briqadasının sədri tərəfindən qəbul edilir.

6.5. * Komanda və ya sinxron cütlüyün Komanda Üzvləri rəngi və dizaynı bənzər olan eyni uniforma geyməlidir. Buna riayət edilməməsi komanda və ya sinxron cütlüyün komanda və ya sinxron idman tədbirindən kənarlaşdırılması ilə nəticələnə bilər. Bu qərar hakimlər briqadasının sədri tərəfindən qəbul edilir.

6.6. Milli gerb və ya Federasiyanın loqosu
*Gimnatlar Milli gerb və ya Federasiyanın loqosu ilə çıxış etməlidirlər ( bu, Geyim və Reklama dair BGF-nin Qaydalarına uyğun olmalıdır); əks halda hakimlər briqadasının sədri tərəfindən 0.2 xallıq cərimə tətbiq ediləcək və bu, pozuntunun baş verdiyi hərəkətin cəmi xaından çıxılacaq.*


***= II Hissə - Hakimlik üzrə***

6.7. Sığortalayan şəxslər / Məşqçilər
Sığortalayan şəxslər: idman kostümü və ya şortu yaxud da idman köynəyi və idman ayaqqabıları.
Məşqçilər: MF idman kostümü və ya şortuları, idman köynəyi və idman ayaqqabıları.

**7. YARIŞ KARTLARI**

7.1. Hərəkət elementləri çətinlik qiyməti və onların icra ediləcəyi ardıcıllıqla yarış kartına qeyd edilməlidir.
7.1.1. Gənclər və Böyüklər yaş kateqoriyasında keçirilən yarışlarda birinci hərəkətdə tələb edilən elementlərin hər biri ulduz (*) işarəsi ilə qeyd edilməlidir.
7.1.2. Gənclər və Böyüklər yaş kateqoriyasında keçirilən yarışlarda tələb edilən, lakin icra edilməyən element(lər) və ya tələb (lər) Çətinlik üzrə Hakimlər tərəfindən 2.0 xal cərimənin verilməsi ilə nəticələnəcək. Bu cür dəyişiklikləri Çətinlik üzrə Hakimlər yarış kartında qeyd edəcək.
7.1.3. Birinci ixtiyari hərəkət əvəzinə məcburi hərəkətin istifadə edilməsi halında istənilən dəyişiklik dayanma kimi qiymətləndiriləcək.

7.2. Final mərhələləri üçün hərəkət elementləri (Fərdi Final, Komanda Final və Çoxmərhələli Komanda Final) hər elementin çətinlik qiyməti və onların icra ediləcəyi ardıcıllıqla yarış kartına qeyd edilməlidir.
7.2.1 Yarış kartında yazılmış elementləri təsvir etmək üçün BGF-nin ədədi ardıcıllıq sistemindən istifadə edilməlidir; əks halda kart qəbul edilməyəcək (bax: 3-cü Hissə: I və K).

## 8. BATUTLAR

8.1 Bax Batut, Tamblinq və İkili Mini Batut üzrə BFG Qaydaları.

## 9. TƏHLÜKƏSİZLİK TƏLƏBLƏRİ

9.1 Həmçinin bax TR 4-cü Bölmə 5.1 saylı Reqlament.
9.1.1 Yarış iştirakçısının bir (1) və ya, batutun hər iki tərəfində bir nəfər olmaqla, iki (2) sığortalayan şəxs ola bilər.
9.1.2 Yarış iştirakçısını sığortaçılayan şəxslər tərəfindən batutun hər iki tərəfindən sığorta matı istifadə edilə bilər.

## 10. QEYDİYYATIN APARILMASI VƏ KATİBLİK

10.1 *<u>BGF yarışlarında</u> nəticələri qeydə almaq və çap etmək üçün təsdiqlənmiş kompüter proqramı istifadə edilməldir.*
10.2 Bütün BGF yarışları və beynəlxalq yarışlarda alınmış bütün nəticələrin surəti BGF-nin Baş Katibinə göndərilməlidir.
10.3 Baş protokolçunun vəzifələri aşağıdakılardır:
10.3.1 Yarış kartlarını §7.2-yə uyğun olaraq yığmaq və paylamaq, eləcə də çıxış etmə ardıcıllığı üzrə püşkatmanı həyata keçirmək (həmçinin bax §1.2.2 və §1.3.3).
10.3.2 Protokolçulara nəzarət etmək.
10.3.3 Hər bir hərəkətin başlama ardıcıllığını və isinmə hərəkətləri üçün müvafiq qrupları müəyyən etmək.
10.3.4 İcra texnikası, üfüqi yerdəyişmə, sinxronluq, uçuş müddəti və çətinlikləri, eləcə də bütün cərimələri qeydə almaq.
10.3.5 Hesab vərəqələrində yer alan hesablamaları yoxlamaq və onlara nəzarət etmək.
10.3.6 Bütün hakim xalları, cərimələr və ümumi xalların nümayiş olunmasını təmin etmək.
10.3.7 Hər bir hərəkət üzrə nəticələr, icra texnikası, çətinlik, üfüqi yerdəyişmə, sinxronluq, uçuş müddəti xalları, ümumi cərimə, mövqe və cəmi ümumi nəticənin siyahısını aparmaq.

## 11. ALİ HAKİMLƏR VƏ APELLYASİYA HAKİMLƏRİ

11.1 Bax TR 1-ci Bölmə 7.8.1 və 7.8.3 saylı Reqlamentlər

11.2 Batut gimnastikasında Ali Hakimlər Briqadası Dünya Çempionatları, Olimpiya Oyunları, Ümumdünya Oyunları və Dünya Kuboklarında fəaliyyət göstərir.

# B. YARIŞ PROSEDURU

## a. İSİNMƏ HƏRƏKƏTLƏRİ

12.1 Gimnastların alətdə isinmə hərəkəti edə bilmələrini təmin etmək məqsədilə yarış üçün seçilmiş alət yarış başlamamışdan ən azı iki (2) saat əvvəl yarış zalına yerləşdirilməlidir (həmçinin bax TR 1-ci Bölmə 4.11.6 saylı Reqlament).

12.2 Təsnifat və final mərhələlərindən əvvəl gimnastların yarış alətində (maksimal olaraq) 30 saniyə ərzində isinmə hərəkətləri etmələrinə icazə verilir. Əgər gimnast bu vaxt məhdudiyyətini keçərsə, hakimlər briqadasının sədri növbəti hərəkətin ümumi xalından 0,3 cərimə xalı çıxacaqdır (bax §20.13).

12.2.1 Əgər ən azı səkkiz (8) metr hündürlüyə malik qonşu zalda ekvivalent avadanlıq quraşdırılarsa, yarış alətində isinmə imkanı aradan qaldırıla bilər.

## b. HƏRƏKƏTƏ BAŞLAMA

13.1 Hər bir gimnast hərəkətə hakimlər briqadasının sədri tərəfindən verilən siqnal ilə başlayır.

13.2 (§13.1-ə uyğun olaraq) siqnal verildikdən sonra gimnast bir (1) dəqiqə ərzində ilk elementə start verməlidir, əks halda o, Hakimlər Heyətinin Sədri tərəfindən aşağıdakı qaydada cərimələnəcəkdir (bax §20.13):

- 61 saniyə: 0,2 xal çıxılır
- 91 saniyə: 0,4 xal çıxılır
- 121 saniyə: 0,6 xal çıxılır
- 181 saniyə: yarışın müvafiq mərhələsindən kənarlaşdırılma

Bu müddət məhdudiyyəti nasaz alət və ya digər əhəmiyyətli səbəbə görə keçilərsə, cərimə tətbiq edilməyəcəkdir. Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

13.3 Yanlış start baş verərsə, gimnast hakimlər briqadasının sədrinin siqnalı ilə yenidən başlaya bilər.

13.4 Hərəkət başladıqdan sonra gimnastı sığortalayan şəxslər və ya məşqçisi hərəkət yerinə yetirilərkən onunla danışar və ya ona istənilən şəkildə siqnal verərsə, bu, hakimlər briqadasının sədri tərəfindən yalnız bir dəfə tətbiq edilən 0,6 xallıq cərimə ilə nəticələnəcəkdir (bax §20.13).

13.5 Əgər gimnastlar / cütlüklər çıxış siyahısında qeyd olunmuş vaxt və qaydada hərəkəti yerinə yetirməyə hazır deyilsə, onlar yarışın müvafiq mərhələsindən kənarlaşdırılır.

## c. ELEMENTLƏRİ YERİNƏ YETİRƏRKƏN TƏLƏB OLUNAN VƏZİYYƏTLƏR *

14.1 Ayaqlar və qıçlar bütün vəziyyətlərdə birlikdə olmalı (aralı ayaqlarla tullanma elementi istisna olmaqla), ayaq və ayaq barmaqları uzadılmalıdır.

14.2 Elementin tələblərindən asılı olaraq, bədən qruplaşmış, bükülmüş və ya düz vəziyyətdə ola bilər.

14.3 Çoxqat salto elementinin vint mərhələsi istisna olmaqla, qruplaşmış və bükülmüş vəziyyətlərdə budlar bədənin yuxarı hissəsinə yaxın olmalıdır (bax §14.7).

14.4 Çoxqat salto elementinin vint mərhələsi istisna olmaqla, qruplaşmış vəziyyətdə əllər qıçın dizdən aşağı hissəsinə toxunmalıdır (bax §14.7).



***= II Hissə - Hakimlik üzrə***

14.5 Qollar imkan daxilində düz və/və ya bədənə yaxın saxlanılmalıdır. *

14.6 Aşağıda bədənin vəziyyətləri üzrə minimal tələblər müəyyən edilmişdir:

14.6.1 **Düz vəziyyət:** Bədənin yuxarı hissəsi ilə budlar arasındakı bucaq 135°-dən böyük olmalıdır.

14.6.2 **Bükülmüş vəziyyət:** Bədənin yuxarı hissəsi ilə budlar arasındakı bucaq 135° və ya daha kiçik, budlar ilə qıçların aşağı hissəsi arasındakı bucaq isə 135°-dən böyük olmalıdır.

14.6.3 **Qruplaşmış vəziyyət:** Bədənin yuxarı hissəsi ilə budlar arasındakı bucaq, eləcə də budlar ilə qıçların aşağı hissəsi arasındakı bucaq 135° və ya daha kiçik olmalıdır.

14.7 Vintli çoxqat saltolar vaxtı bükülmüş və qruplaşmış vəziyyət vint mərhələsində (yarıqruplaşmış və bükülmüş vəziyyətə) dəyişə bilər.

## d. ELEMENTLƏRİN TƏKRARLANMASI *

15.1 Hərəkət vaxtı heç bir element təkrarlanmamalıdır, əks halda təkrarlanmış elementin çətinliyi qeydə alınmayacaqdır. Elementin birinci hərəkət vaxtı təkrarlanması da Çətinlik üzrə Hakimlərin 2,0 bal cərimə verməsinə gətirib çıxaracaqdır (bax §22.3).

15.2 Eyni sayda fırlanmadan ibarət olan, amma fərqli, yəni qruplaşmış, bükülmüş və düz vəziyyətlərdə yerinə yetirilən elementlər təkrar yox, müxtəlif elementlər hesab edilirlər.

15.2.1 Qruplaşma və yarıqruplaşma vəziyyətləri eyni vəziyyət sayılır.

15.3 Vint müxtəlif fazalarda həyata keçirildikdə eyni sayda vint və saltoya malik çoxqat salto elementləri (630° və daha çox) təkrar hesab edilmir ( bax II Hissə: 1.A).

15.4 BGF yarışlarında §5.3.2-yə uyğun olaraq təsnifat mərhələsinin birinci hərəkətində çətinliyi hesablanmış heç bir element ikinci hərəkətdə təkrarlana bilməz, əks halda ikinci hərəkətdə təkrarlanmış elementin çətinliyi hesablanmayacaqdır.

## e. HƏRƏKƏTİN DAYANDIRILMASI

16.1 Gimnast aşağıdakılardan birini etdikdə hərəkət dayandırılmış hesab edilir:

16.1.1* Batut toru üzərinə aşkar şəkildə iki ayaqla eyni vaxtda enməmək.

16.1.2 Endikdən sonra növbəti elementə keçmək üçün torun elastikliyindən istifadə etməmək.

16.1.3 Ara (düz) tullanma həyata keçirmək.

16.1.4 Oturma vəziyyəti və ya ayaq, qarın və kürək istisna olmaqla, hər hansı digər bədən üzvünün üzərinə düşmək.

16.1.5 Natamam element yerinə yetirmək.

16.1.6 Bədənin istənilən hissəsi ilə batut torundan başqa bir yerə toxunmaq.

16.1.7 Sığortaçı tərəfindən toxunulmaq və ya sığorta matına toxunmaq.

16.1.8 Təhlükəsizlik qaydaları pozulduğuna görə batutu tərk etmək.

16.1.9 Sinxron hərəkət vaxtı həmkarının elementinə uyğun gəlməyən element yerinə yetirmək.

16.1.9.1 Gimnastlardan biri həmkarını ən azı yarım element qabaqlayırsa, onlar müxtəlif elementlər yerinə yetirmiş hesab edilirlər. Gimnastlardan biri aşkar şəkildə elementə başlamış, digəri isə əvvəlki elementi bitirmək üçün batuta enməmişdirsə, onlar müxtəlif elementlər yerinə yetirmiş hesab edilirlər.

16.1.10 Müəyyən edilmiş məcburi hərəkəti (bax §1.2.1.1) tələb olunan elementlərlə və/və ya yarış kartında qeyd olunmuş ardıcıllıqla yerinə yetirməmək.

16.2 Dayandırılmış element qiymətləndirilmir.

16.3 Gimnast yalnız batut toru üzərində başa çatdırdığı elementlərin sayına görə qiymətləndiriləcəkdir.

16.4 Maksimal qiymət barədə qərarı hakimlər briqadasının sədri verir.


*** = II Hissə - Hakimlik üzrə***

## f. HƏRƏKƏTİN BAŞA ÇATDIRILMASI *

17.1 Hərəkət dik vəziyyətdə başa çatdırılmalıdır və hər iki ayaq batut torunun üzərində olmalıdır, əks halda cərimə tətbiq ediləcəkdir (bax §21.3.2).

17.2 Son elementdən sonra gimnastın düz vəziyyətdə daha bir (1) nəzarətli tullanma (sıçrayış) həyata keçirməsinə icazə verilir. Nəzarətsiz sıçrayış 0,1 xal cərimənin tətbiqinə səbəb olacaqdır (bax §21.3.2).

17.3 Sinxron yarışlarda son elementdən sonra hər iki gimnast ya düz vəziyyətdə daha bir (1) nəzarətli tullanma (sıçrayış) həyata keçirməli, ya da hər ikisi dayanmalıdır, əks halda hakimlər briqadasının sədri tərəfindən 0,4 xallıq cərimə tətbiq ediləcəkdir (bax §20.13).

17.4 Tor üzərinə son dəfə endikdən sonra gimnast dik dayanmalı və təxminən üç (3) saniyə ərzində tarazlığını itirməməlidir, əks halda tarazlığın itirilməsinə görə 0,1 - 0,2 xallıq cərimə tətbiq edilir (bax §21.3.2).

17.5 Gimnast ondan (10) artıq element yerinə yetirərsə, hakimlər briqadasının sədri tərəfindən 2,0 xallıq cərimə tətbiq ediləcəkdir (bax §20.13).

## g. QİYMƏTLƏNDİRMƏ

Beş (5) növ qiymət istifadə edilir, "D" qiyməti bir hərəkətin çətinlik dərəcəsinin cəmini, "E" qiyməti icra texnikası üzrə hakimin bir hərəkətə görə verdiyi qiyməti, "H" qiyməti üfüqi yerdəyişmə qiymətini, "T" qiyməti uçuş müddətini, "S" qiyməti isə sinxronluq qiymətini bildirir.

**18.1*** **Çətinliyin qiymətləndirilməsi**

Prinsipcə, hərəkət vaxtı bir element üzrə əldə edilən çətinlik dəyəri açıqdır, lakin Gənclərin Olimpiya Oyunları və gənclər və yeniyetmələr arasında keçirilən yarışlarda bu dəyər **1,8** xal ilə məhdudlaşdırılır. Daha yüksək çətinlik dərəcəsi olan elementlər yerinə yetirilə bilsə də, onlar məhdud çətinlik qiyməti olan **1,8** xal ilə qiymətləndirilir. Gənclər və yeniyetmələr arasında keçirilən yarışlarda dördlü saltolar qadağandır və yarışdan kənarlaşdırılma ilə nəticələnir.

Hər bir elementin çətinliyi aşağıdakı şəkildə hesablanır:

18.1.1 Hər bir elementin çətinliyi vint və salto fırlanmalarının sayı əsasında hesablanır:

| | | |
|---|---|---|
| 18.1.1.1 | ¼ salto üçün (90°) | 0,1 xal |
| 18.1.1.2 | bir tam salto üçün (360°) | 0,5 xal |
| 18.1.1.3 | tam ikili salto üçün (720°) | 1,0 xal |
| 18.1.1.4 | tam üçlü salto üçün (1080°) | 1,6 xal |
| 18.1.1.5 | tam dördlü salto üçün (1440°) | 2,2 xal |
| 18.1.1.6 | ½ vint üçün (180°) | 0,1 xal |

18.1.2 Yana doğru salto və vintsiz və ya saltosuz fırlanma elementləri çətinlik dəyərinə malik deyil.

18.1.3 Salto və vintləri birləşdirən elementlərdə saltonun və vintin çətinlik dəyərləri cəmlənir.

18.1.4 Düz və ya bükülmüş vəziyyətdə yerinə yetirilən 360 - 630°-lik vintsiz tək saltolar əlavə 0,1 xal ilə qiymətləndirilir.

18.1.5 Düz və ya bükülmüş vəziyyətdə yerinə yetirilən 720° və daha böyük bucaqlı vintli və ya vintsiz çoxqatlı saltolar əlavə 0,1 xal ilə qiymətləndirilir.

**18.2** **Qiymətləndirmə üsulu**

18.2.1 İcra texnikası, üfüqi yerdəyişmə və çətinliyin qiymətləndirilməsi xalın onda biri ilə həyata keçirilir. Sinxronluq balın 1/100-i ilə qiymətləndirilir. Uçuş müddəti saniyənin 1/1000-i ilə qiymətləndirilir və 5/1000-ə qədər yuvarlaqlaşdırılır. (Bax əlavə M).

18.2.2 Hakimlər cərimələri bir-birindən müstəqil şəkildə yazmalı və tətbiq etməlidir.

18.2.3 Hakimlər briqadasının sədri tərəfindən siqnal verildikdə bütün hakimlərin qiymətləri eyni vaxtda göstərilməlidir.

18.2.4 Əgər icra texnikası və ya üfüqi yerdəyişmə hakimlərindən hər hansı biri hakimlər briqadasının sədrinin siqnalından sonra qiymət verməzsə, əskik qiymət(lər)in əvəzinə digər qiymətlərin orta dəyəri istifadə ediləcəkdir. *(BGF yarışlarında İcra Texnikası və ya Üfüqi Yerdəyişmə Hakimlərindən hər hansı biri icra olunmuş hər element üzrə [enmə cərimələri də daxil olmaqla] cərimələri daxil etməzsə, əskik cərimə(lər)in əvəzinə digər cərimələrin orta dəyəri istifadə edilir.)* Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

18.2.5 <u>İcra texnikası</u> xalının qiymətləndirilməsi <u>(E)</u>:

18.2.5.1 İcra texnikası üzrə hakimlər §21.3-ə uyğun olaraq pis texnikaya görə cərimələr tətbiq edir. Cərimələr maksimal qiymətdən, yəni 10,0 xaldan və ya hakimlər briqadasının sədrinin müəyyən etdiyi qiymətdən çıxılır (bax §16.4).

18.2.5.2 Fərdi yarışlarda gimnastın hərəkət üzrə icra texnikası xalını müəyyən etmək üçün icra texnikası üzrə hakimlərin iki (2) orta qiyməti cəmlənir (E+E). *(BGF yarışlarında icra texnikası hakimlərinin iki (2) orta cəriməsi element üzrə cərimə kimi götürülür, sonra [enmə cərimələrini nəzərə almaqla] orta cərimələrin cəmi mümkün olan ən yüksək icra texnikası xalından [maksimal olaraq 20 baldan] çıxılaraq gimnastın hərəkət üzrə icra texnikası xalı əldə edilir).*

18.2.5.3 Sinxron batut yarışlarında hər bir gimnasta verilən orta icra xalı (E), cütlüyün ümumi orta xalını təşkil edir. *(BGF yarışlarında icra üzrə hakimlərin hər gimnast üçün orta cərimələri element üzrə cərimələr kimi götürülür, sonra [enmə cərimələrini nəzərə almaqla] ortaq cərimə xallarının orta dəyəri mümkün olan ən yüksək icra xalından [maksimal olaraq 20 xaldan] çıxılaraq cütlüyün hərəkət üzrə icra texnikası xalı əldə edilir).*

18.2.6 <u>Üfüqi yerdəyişmə</u> xalının qiymətləndirilməsi <u>(H)</u>:

18.2.6.1 Üfüqi yerdəyişmənin qiymətləndirilməsi hakimlər briqadasının sədrinin nəzarəti altında elektron formatda həyata keçirilməlidir. Üfüqi yerdəyişmə üzrə cərimələr §23.1-ə uyğun olaraq tətbiq edilir.

18.2.6.2 Hər element üzrə üfüqi yerdəyişmə cərimələri maksimal qiymətdən, yəni 10,0 xaldan və ya hakimlər briqadasının sədrinin müəyyən etdiyi qiymətdən çıxılır (bax §16.4). Bu qiymət üfüqi yerdəyişmə balı sayılır.

18.2.6.3 Əgər elektron qiymətləndirmə sistemi mövcud deyilsə, icra texnikası üzrə iki (2) hakim (5 və 6-cı hakimlər) icra texnikasının əvəzinə üfüqi yerdəyişməni qiymətləndirməyə görə məsuliyyət daşıyacaqdır. Onların verdiyi qiymətlərin orta dəyəri hesablanır və əldə edilən nəticə üfüqi yerdəyişmə xalı sayılır. *(BGF yarışlarında üfüqi yerdəyişmə hakimləri bütün zonaları görmə imkanı verən video çəkiliş vasitəsilə dəyərləndirmə aparır (Bax Əlavə P)).*

18.2.6.3.1 Əgər elektron sistemdə nasazlıq yaranarsa, qiymət hakimlər briqadasının sədri tərəfindən rəsmi videonun təhlili əsasında müəyyən edilir. (Bax Əlavə P)

18.2.7 <u>Uçuş müddəti</u> balının qiymətləndirilməsi <u>(T)</u>:

18.2.7.1 <u>Uçuş müddətinin</u> qiymətləndirilməsi hakimlər briqadasının sədrinin nəzarəti altında elektron formatda həyata keçirilməlidir.

18.2.7.1.1 Əgər elektron sistemdə nasazlıq yaranarsa, müddət hakimlər briqadasının sədri tərəfindən rəsmi videonun təhlili əsasında müəyyən edilir. (Bax Əlavə N)

18.2.8 <u>Sinxronluq</u> xalının qiymətləndirilməsi <u>(S)</u>:

18.2.8.1 Sinxronluğun qiymətləndirilməsi hakimlər briqadasının sədrinin nəzarəti altında

elektron formatda həyata keçirilməlidir.

18.2.8.1.1 Əgər elektron sistemdə nasazlıq yaranarsa, qiymət hakimlər briqadasının sədri tərəfindən rəsmi videonun təhlili əsasında müəyyən edilir. (Bax Əlavə N)

18.2.8.2 Sinxronluq əskikliyi üzrə cərimələr maksimal qiymətdən, yəni 10,0 xaldan və ya hakimlər briqadasının sədrinin müəyyən etdiyi qiymətdən çıxılır (bax §16.4). Sonra bu qiymət ikiyə vurulur və əldə edilmiş nəticə sinxronluq xalı hesab edilir.

18.2.8.3 Əgər elektron qiymətləndirmə sistemi mövcud deyilsə, sinxronluq üzrə üç (3) əlavə hakimin orta qiyməti ikiyə vurulur və əldə edilmiş nəticə sinxronluq xalı hesab edilir.

18.2.9 Hərəkət üzrə ümumi xal:

18.2.9.1 Fərdi yarışlarda ümumi nəticə "E" qiymətləri (icra üzrə), "H" qiymətləri (üfüqi yerdəyişmə), "T" qiymətləri (müddət) və "D" qiymətlərinin (çətinlik üzrə) cəmindən §6.4, §6.6, §12.2, §13.2, §13.4 və §17.5-ə uyğun olaraq cərimələri çıxaraq hesablanır.

**Xal = E (maks. 20 bal) + H (maks. 10 bal) + D + T - Cərimələr**

18.2.9.2 Sinxron yarışlarda ümumi nəticə "E" qiymətləri (icra texnikası), "H" qiymətləri (üfüqi yerdəyişmə), "S" qiymətləri (sinxronluq) və "D" qiymətlərinin (çətinlik) cəmindən §6.4, §6.6, §12.2, §13.2, §13.4, §17.3 və §17.5-ə uyğun olaraq cərimələri çıxaraq hesablanır.

**Bal = E (maks. 10 bal) + H (maks. 10 bal) + S (maks. 20 bal) + D - Cərimələr**

18.2.10 Çətinlik üzrə xalının qiymətləndirilməsi (D):

18.2.10.1 Çətinlik üzrə hakimlər §18.1-ə uyğun olaraq hərəkətin çətinliyini hesablayır.

18.2.11 Bütün qiymətlər vergüldən sonra 3 (üç) rəqəmə qədər yuvarlaqlaşdırılır. Həmin yuvarlaqlaşdırma yalnız gimnastın hərəkət üzrə ümumi xalı münasibətində həyata keçirilir.

18.2.12 Hakimlər briqadasının sədri yekun xalların etibarlılığının müəyyən edilməsinə görə məsuliyyət daşıyır.

# C. HAKİMLƏR BRİQADASI

## 19. HAKİMLƏR BRİQADASI

| | | | *Fərdi* | *Sinxron* |
|---|---|---|---|---|
| 19.1 | Üfüqi yerdəyişməni ölçmə cihazı olduqda heyətin tərkibi: | | | |
| | 19.1.1 | hakimlər briqadasının sədri (UM, ÜY, SİN) | 1 | 1 |
| | 19.1.2 | İcra üzrə hakimlər | | |
| | | - fərdi yarışlar üzrə (1-6 saylı hakimlər) | 6 | |
| | | - sinxron yarışlar üzrə<br>(Batut No. 1: 1, 3 və 5-ci hakimlər)<br>(Batut No. 2: 2, 4 və 6-cı hakimlər) | | 6 |
| | 19.1.3 | Çətinlik üzrə hakimlər (7 və 8-ci hakimlər) | 2 | 2 |
| | 19.1.4 | **Ümumi** | **9** | **9** |

| | | | Fərdi | Sinxron |
|---|---|---|---|---|
| 19.2 | Üfüqi yerdəyişməni ölçmə cihazı olmadıqda heyətin tərkibi: | | | |
| | 19.2.1 | Hakimlər briqadasının sədri (UM, SİN) | 1 | 1 |
| | 19.2.2 | İcra üzrə hakimlər | | |
| | | - fərdi yarışlar üzrə (1-6 saylı hakimlər) | 4 | |
| | | - fərdi üfüqi yerdəyişmə üzrə (5 və 6-cı hakimlər) | 2 | |
| | | - sinxron yarışlar üzrə<br>(Batut No. 1: 1, 3 və 5-ci hakimlər)<br>(Batut No. 2: 1, 3 və 5-ci hakimlər) | | 4 |
| | | - sinxron üfüqi yerdəyişmə üzrə<br>(Batut No. 1: 5-ci hakim)<br>(Batut No. 2: 6-ci hakim) | | 2 |
| | 19.3.2 | Çətinlik üzrə hakimlər (7 və 8-ci | 2 | 2 |
| | 19.4.2 | **Ümumi** | **9** | **9** |

19.3 1, 3 və 5-ci hakimlər 1-ci batutdan 5-7 metr aralıda olan və yerdən ən azı bir (1), maksimal olaraq isə iki (2) metr yüksəklikdə yerləşən hakim platformasında oturur.

19.4 Vəzifələrini qənaətbəxş şəkildə yerinə yetirməyən hakim əvəzlənməlidir. Bu barədə qərarı Ali hakimlər briqadası verir. Ali hakimlər briqadası olmadıqda qərarı hakimlər briqadasının sədri verir. Bax TR 1-ci Bölmə 7.8.1 saylı Reqlament və YQ §11.2.

19.4.1 İcra üzrə hakim əvəzlənərsə, hakimlər briqadasının sədri həmin hakimin verdiyi qiymətlərin qalan hakimlərin qiymətlərinin orta dəyəri ilə əvəzlənməsinə qərar verə bilər.

19.5 HHS UM, ÜY və SİN elektron sisteminə nəzarətə görə məsuliyyət daşıyır.

## 20. HAKİMLƏR BRİQADASININ SƏDRİNİN VƏZİFƏLƏRİ

20.1 Avadanlıqlara və ya alətə nəzarət.

20.2 Hakimlər iclasını və qiymətləndirmə sınağını təşkil etmək (bax TR 1-ci Bölmə 7.9 saylı Reqlament).

20.3 Bütün hakimləri, gimnastları sığortaçılayan şəxsləri və protokolçuları yerləşdirmək və onlara nəzarət etmək.

20.4 Yarışları idarə etmək.

20.5 Yarışın hakimlər heyətini çağırmaq.

20.6 İkinci cəhdə icazə verilib-verilməyəcəyinə qərar vermək (bax §5.2).

20.7 Gimnastın geyimi barədə qərar vermək (bax §6).

20.8 Gimnastları sığortalayan şəxslər tərəfindən göstərilmiş hər hansı köməkliyin zəruri olub-olmadığına qərar vermək (bax TR 4-cü Bölmə 5.1 saylı Reqlament).

20.9 Hərəkət dayandırılmışdırsa, maksimal qiyməti bildirmək (bax §16).

20.10 VÖC, ÜYC və Sinxronluğu müəyyən etmə cihazını idarə etmək və müvafiq xalları nümayiş etdirmək.

20.11 Hakim dərhal qiymət vermədikdə bununla bağlı qərar vermək (bax §18.2.4).

20.12 Elektron sistem nasazlığı halında çətinlik üzrə 7-ci hakim ilə birlikdə sinxron hərəkətlər, uçuş müddəti və üfüqi yerdəyişmənin video ilə qiymətləndirilməsinə nəzarət etmək (bax §18.2.6, §18.2.7 və §18.2.8).

20.13 §6.4, §6.6, §12.2, §13.2, §13.4, §17.3 və §17.5-ə uyğun olaraq cərimələr barəsində qərar vermək.

20.14 Bütün xallar, hesablamalar və yekun nəticələri yoxlamaq, onlara nəzarət etmək və aşkar hesablama səhvləri müəyyən edildikdə müdaxilə etmək.

20.15* Federasiya rəsmisi və ya hakim tərəfindən xalların hesablanması üzrə aşkar səhvlər ilə bağlı müraciət edildikdə mərhələ bitmədən qərar vermək (bax II Hissə 1 A).

20.16 Çətinlik üzrə hakimlərə kömək etmək və sinxron yarışlarda iştirak edən cütlüklərin §16.1.9-a uyğun olaraq eyni elementləri eyni vaxtda yerinə yetirib-yetirmədiyini yoxlamaq.

## 21. İCRA TEXNİKASI ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ (1-6 SAYLI HAKİMLƏR)

21.1 §21.3-ə uyğun olaraq icra texnikasını 0,0 - 0.5 xal diapazonunda qiymətləndirmək və cərimələri cərimə vərəqələrinə daxil etmək.

21.2 Cərimələri hakimlər briqadasının sədri tərəfindən müəyyən edilmiş maksimal qiymətdən çıxmaq (bax §16.4).

21.3 İcra texnikası üzrə cərimələr

21.3.1* hər element üzrə koordinasiya, daimi hündürlük və nəzarətin pozulması 0.1-0.5 xal

21.3.2* hərəkət (10 element) başa çatdırıldıqdan sonra tarazlığın itirilməsi, yalnız daha ciddi səhvə görə cərimə verilir:

21.3.2.1 nəzarətsiz sıçrayış 0.1 xal

21.3.2.2 dik vəziyyətdə dayanaraq təxminən üç (3) saniyə ərzində tarazlığı saxlaya bilməmə 0.1-0.2 xal

21.3.2.3 batuta endikdən sonra tora bir və ya hər iki əl ilə toxunma 0.5 xal

21.3.2.4 batuta endikdən sonra diz üstə düşmək və ya tora dizlər, əllər və dizlər, qarın, kürək ilə toxunmaq və ya onun üzərinə oturmaq 1.0 xal

21.3.2.5 batut torundan başqa hər hansı bir yerə toxunmaq və ya üzərinə çıxmaq 0.5 xal

21.3.2.6* batut torunun xaricinə enmək və ya yıxılmaq, batut sahəsini tərk etmək və ya əlavə salto yerinə yetirmək 1,0 xal

21.4 Sinxon yarışlar vaxtı 1, 3 və 5-ci hakimlər 1-ci batutdakı, 2, 4 və 6-cı hakimlər isə 2-ci batutdakı hərəkətin icrasını qiymətləndirir.

21.5 Sinxron yarışlarda icra texnikasının qiymətləndirilməsi eynilə fərdi yarışlarda olduğu kimi həyata keçirilir.

21.6 İcra texnikası üzrə qiyməti göstərmək.

***(həmçinin bax hakimlik üzrə Təlimat)***

## 22. ÇƏTİNLİK ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ (7 VƏ 8-Cİ HAKİMLƏR)

22.1 Yarış kartlarını yarış başlamazdan ən azı 2 (iki) saat əvvəl baş protokolçudan yığmaq.

22.2 Yarış kartlarına daxil edilmiş elementləri və çətinlik dəyərlərini yoxlamaq.

22.3 §7.1, §7.3 və §5.3-ə uyğun olaraq birinci hərəkət üzrə tələb olunan elementləri / tələbləri yoxlamaq və əskik tələblər və təkrarlar üzrə cərimələri tətbiq etmək (bax §7.3, §15.1 və §16.1.10).

22.3.1 Əgər gimnast çətinliyi yarış kartında yazılandan fərqli olan element(lər)i yerinə yetirərsə, bunu açıq şəkildə nümayiş etdirmək.

22.4 Yerinə yetirilmiş bütün elementləri və onların çətinlik dəyərini müəyyən etmək və yarış kartına daxil etmək (BGF hesablama sisteminə uyğun qaydada).

22.4.1 *BGF yarışlarına §18.1 və §15.1-ə uyğun olaraq seçmə turunun birinci hərəkətində tələb olunan hər bir elementin çətinlik xalını, eləcə də §15.4-ə uyğun olaraq birinci hərəkətdəki elementin / elementlərin ikinci hərəkətdə təkrarlanıb-təkrarlanmadığını müəyyən etmək.*

22.5 Ya məcburi hərəkətin ardıcıllığa uyğun şəkildə yerinə yetirilməməsi (bax §16.1.10), ya da ikinci mərhələ və final mərhələsində hərəkətlərindəki elemetlərdən hər hansı birinin ara (düz) tullanma olması halında (bax §16.1.3), hərəkətin dayandırılıb-dayandırılmadığını müəyyən etmək və hakimlər briqadasının sədrinə müvafiq rəy bildirmək.

22.6 Sinxron yarışlarda iştirak edən cütlüklərin §16.1.9-a uyğun olaraq eyni elementləri eyni vaxtda yerinə yetirib-yetirmədiyini yoxlamaq və hakimlər briqadasının sədrinə məlumat vermək.

22.7 Çətinlik xalını göstərmək.

22.8 Əgər elektron sistem xalları göstərməzsə, çətinlik üzrə 7-ci hakim HHS ilə birlikdə Sinxronluq, Uçuş Müddəti, Üfüqi Yerdəyişmə ballarına nəzarət edir.

## 23. ÜFÜQİ YERDƏYİŞMƏ ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ

23.1 Elektron sistem yoxdursa, bədənin istənilən hissəsi müəyyən edilmiş zonadan kənar bir yerə toxunduqda hər bir element üçün çıxılma tətbiq edilir.

23.2* Qiymətləndirmə hakimlər tərəfindən həyata keçirilirsə, ayaq üzərinə enmə ilə başa çatdırılan elementlərdə ayağın hər hansı hissəsi (kənar xəttinin xaricində olan) zonaya təsadüf etdikdə həmin zonaya aid çıxılma tətbiq edilir (bax hakimlik üzrə Təlimatın Sxemlər bölməsi).

23.3* Qiymətləndirmə hakimlər tərəfindən həyata keçirilirsə, qarın və kürək üzərinə və ya oturma vəziyyətinə enmə ilə başa çatdırılan elementlərdə (bədənin daha böyük hissəsi tora toxunduğu üçün) bədənin endiyi yeri müəyyən etmək üçün bud-çanaq oynağı nəzərdə tutulur (bax hakimlik üzrə Təlimatın Sxemlər bölməsi).

Lozanna şəhəri, May 2021-ci il

Beynəlxalq Gimnastika Federasiyası



Bruno Qrandi
Prezident



Andre F. Qaysbuxler
Baş katib



Horst Küntse
Batut TK Prezidenti

## Yarış Qaydaları

# TAMBLİNQ

01.01.2021-ci il tarixindən etibarlıdır.

**A. ÜMUMİ**

Tamblinq hərəkətləri səkkiz (8) elementdən ibarətdir və önə, geriyə və yana doğru müxtəlif elementləri nümayiş etdirmək məqsədilə planlaşdırılmalıdır. Hərəkət yaxşı nəzarət, koordinasiya, icra texnikası və tempin qorunması ilə yerinə yetirilməlidir. Tamblinq dayanmalara və ya ara addımlara yol vermədən, daimi sürətlə və ritmik şəkildə əl(lər) üzərindən ayaqlar üzərinə və ayaqlar üzərindən ayaqlar üzərinə fırlanaraq tullanmadan ibarət elementlərlə xarakterizə edilir.

**1. FƏRDİ YARIŞLAR**

1.1. Tamblinq yarışları aşağıda verilmiş struktura uyğun olaraq Təsnifat və Final mərhələlərindən ibarətdir:

| Yarış mərhələsi | Kim yarışır? | Hansı hərəkəti icra edir? | Çıxış etmə ardıcıllığı |
|---|---|---|---|
| 1-ci təsnifat mərhələsi | Bütün gimnastlar | 2 hərəkəti icra edir | Püçkatma |
| 2-ci təsnifat mərhələsi | Əgər iştirakçı sayı 48 və ya çox olarsa, ən yaxşı nəticələr əldə etmiş 24 gimnast<br>32-47 iştirakçı sayı olarsa, ən yaxşı nəticələr əldə etmiş 16 gimnast<br>İştirakçı sayı 32-dən az olarsa, heç bir gimnast MF qaydalarına uyğun olaraq Maksimum 3 nəfər | 1 hərəkət icra edilir | Püşkatma |
| 1-ci Final | Ən yaxşı nəticələr əldə etmiş 8 gimnast, MF qaydalarına uyğun olaraq maksimum 2 | 1 hərəkət icra edilir | Püşkatma |
| 2-ci Final | Ən yaxşı nəticələr əldə etmiş 4 gimnast MF qaydalarına uyğun olaraq heç bir məhdudiyyət | 1 hərəkət icra edilir | 1-ci Final mərhələsinin ardıcıllığı saxlanılır |

**1.2. Təsnifat mərhələləri**

1.2.1. Təsnifat mərhələləri iki dövrədən ibarət olur: 1-ci Təsnifat mərhələsində qeydiyyatdan keçmiş bütün gimnastlar yarışır və 2-ci Təsnifat mərhələsində gimnastların sayı qeydiyyatdan keçmiş nominativ iştirakçı sayından asılı olur:

- 1-31 iştirakçı olduqda 2-ci Təsnifat mərhələsi olmur
- 32-47 iştirakçı olduqda 2-ci Təsnifat mərhələsi 16 gimnastla başlayır
- 48 və daha çox iştirakçı olduqda 2-ci Təsnifat mərhələsi 24 gimnastla başlayır

1.2.2. 1-ci Təsnifat mərhələsi iki ixtiyari hərəkətdən ibarət olur və heç bir hərəkətdə elementlərin təkrarlanmasına icazə verilmir. İki hərəkətin xallarının ən yüksək cəmi 2-ci Təsnifat və ya Final mərhələsinə keçidi müəyyən edir (bax: TR Maddə 1).

1.2.3. Təsnifat mərhələləri (1 və 2-ci Təsnifat mərhələləri) üçün çıxışetmə ardıcıllığı püşkatma yolu ilə müəyyən edilir. Gimnastlar mümkün olduğu qədər bərabər sayda paylanmaqla və hər qrupda ən çoxu on iki (12) nəfər olmaqla, qruplara ayrılır və növbəti qrup Təsnifat Dövrəsinə başlamazdan əvvəl birinci və ikinci hərəkətləri icra edir.

1.2.3.1. Hər yarış qrupunun qalibi 2-ci Təsnifat və ya Final mərhələsinə vəsiqə əldə edir. (bax: 1.2.1)

1.2.3.2. 2-ci Təsnifat mərhələsi üzrə 16 və ya 24 və ya Final mərhələsi üzrə 8-ə qədər qalan yerlər birinci təsnifat dövrəsinin yekun sıralamasına uyğun olaraq verilir.

1.2.4. 2-ci Təsnifat mərhələsində iştirak MF qaydalarına uyğun olaraq maksimum 3 gimnastla məhdudlaşır. Əgər eyni MF-dan 4 gimnast öz müvafiq yarış qruplarında qalib olarsa, o zaman ən yüksək 3 xal vəsiqə əldə edir. Heç – heçə əldə edildiyi halda, qalibin müəyyən edilməsi üçün əlavə yarış qaydaları tətbiq edilir.

1.2.5. 2-ci Təsnifat mərhələsində hər yarış qrupu ya 8 və ya 12 gimnastdan ibarət olur. 2-ci Təsnifat mərhələsi sıfır xalı ilə başlayır. Bu zaman 1-ci Təsnifat mərhələsinə aid hərəkət və ya elementlər 2-ci Təsnifat mərhələsində icra oluna bilər.

1.2.5.1. Hər yarış qrupunun qalibi Final mərhələsinə vəsiqə əldə edir.

1.2.5.2. Final mərhələsi üçün qalan altı (6) yer bütün gimnastların yekun sıralamasına uyğun olaraq verilir.

Final mərhələlərində iştirak MF qaydalarına uyğun olaraq maksimum iki (2) gimnastla məhdudlaşır.

**1.3. Final mərhələləri**

1.3.1. Final mərhələləri üçün çıxışetmə ardıcıllığı püşkatma yolu ilə müəyyən edilir. 2-ci Final mərhələsi üçün çıxışetmə ardıcıllığı dörd (4) vəsiqə əldə etmiş gimnastın çıxışı ilə 1-ci Mərhələdəki ardıcıllığa uyğun olur.

1.3.2. Final mərhələləri hər hərəkətdə icazə verilən elementlərin təkrarlanmasına icazə verilməməklə iki dövrədən ibarət olur:

1.3.2.1. 1-ci Final mərhələsində səkkiz (8) gimnast bir (1) ixtiyari hərəkəti icra edir. Gimnastlar 1-ci Final mərhələsinə sıfır xalla başlayır. Ən yaxşı 4 (dörd) gimnast 2-ci Final mərhələsinə vəsiqə əldə etdiyi halda, qalan dörd (4) gimnast 1-ci Final mərhələsindəki nəticələrinə görə 5 – 8-ci yerlər üzrə sıralanır.

1.3.2.2. 2-ci Final mərhələsində dörd (4)gimnast bir (1) ixtiyari hərəkəti icra edib, titul ( qızıl medal) və qalan yerlər (2 - 4-cü yerlər) uğrunda mübarizə aparır. Gimnastlar 2-ci Final mərhələsinə sıfır xalla başlayır. Qalib gimnast 2-ci Final mərhələsində ən yüksək xal qazanmış gimnast olur.

1.3.3. Heç- heçə əldə edildiyi halda qalibin müəyyən edilməsi üçün təkrar yarış qaydaları tətbiq olunur (bax: Maddə. 4.4 TR).

**2. KOMANDA YARIŞI**

2.1. Komanda hər idman tədbiri üzrə ən azı üç (3) və ən çoxu dörd (4) gimnastdan ibarət olur ( kişi və qadın yarışı).

2.2. Təsnifat mərhələləri

2.2.1. 1-ci Təsnifat mərhələsi Komanda yarışları üzrə Final mərhələləri üçün təsnifat rolunu oynayır.

2.2.2. Komanda üzvlərinin birinci təsnifat mərhələsinin hər dövrəsində əldə etdiyi üç (3) ən yüksək xal bu mərhələdən sonra komandanın ümumi xalını ( altının (6) cəmi) verir.

2.3. Final mərhələləri

2.3.1. 1-ci Mərhələdə beş (5) ən yüksək yerə layiq görülmüş komandalar Komanda yarışları üzrə Final mərhələsinə vəsiqə əldə edir.

2.3.2. Final mərhələlərindəki komandalar üç (3) gimnastdan ibarət olur və hər gimnast bir hərəkəti icra edir.

2.3.3. Komanda yarışları üzrə Final mərhələləri üç (3) dövrədən ibarət olur. Hər üç (3) dövrədə komandaların çıxışetmə ardıcıllığı sıra ardıcıllığına uyğun olub, 5-ci yerə layiq görülmüş komandanın birinci gimnastı birinci, sonra 4-cü yerə layiq görülmüş komandanı təmsil edən birinci gimnast ikinci çıxış edir….

2.3.4. MF öz komandaları adından Final mərhələsində çıxış edəcək üç (3) gimnastı yarışacaqları ardıcıllıqla, Komanda yarışları üzrə Final mərhələsindən ən azı bir saat əvvəl təyin edir.

2.3.5. Qiymətləndirmə komandanın hər dövrədə qazandığı sıra ballarının cəminə əsasən müəyyən edilir (5, 4, 3, 2 və 1). Qalib komanda Final mərhələsində sıra ballarının ən yüksək cəmini əldə etmiş komanda olur.

2.3.6. Heç-heçə əldə edildiyi halda qalibin müəyyən edilməsi üçün təkrar yarış qaydaları tətbiq edilir (bax: Maddə 4.4 TR).

2.4. Çoxmərhələli Komanda yarışları üzrə Final Mərhələsi.

Komanda aşağıda verilmiş kateqoriyaların hər birindən bir (1) kişi və bir (1) qadın gimnast / cütlüyündən ibarət olur:

- Fərdi batut
- Sinxron batut
- Tamblinq
- İkili mini – batut

2.4.1 Təsnifat mərhələləri

2.4.1.1. 1-ci Təsnifat mərhələsi Çoxmərhələli Komanda yarışları üzrə Final mərhələsi üçün təsnifat rolunu oynayır.

2.4.1.2. Komandanın xalı hər kateqoriya və cinsdən olan bir gimnastın əldə etdiyi ən yüksək xalın cəminə bərabər olur.

2.4.2. Final mərhələləri

2.4.2.1. 1-ci Təsnifat mərhələsində beş (5) ən yüksək yerə layiq görülmüş komanda Final mərhələsinə vəsiqə əldə edir.

2.4.2.2. Final mərhələlərindəki Komandalar hər ölkə üzrə hər kateqoriya və cinsdən bir gimnastdan ibarət olur. Hər gimnast bir hərəkəti icra edir.

2.4.2.3. Bax: TR 4-cü Bəndində verilmiş 4.3.4 Maddəsindəki yarış prosesi

2.4.2.4. Qiymətləndirmə komandanın hər dövrədə əldə etdiyi sıralama ballarının cəminə əsasən müəyyən edilir (5, 4, 3, 2 və 1). Qalib komanda Komanda yarışları üzrə Final mərhələsində sıralama ballarının ən yüksək cəmini əldə etmiş komanda olur.

2.4.3. Heç-heçə əldə edildiyi halda qalibin müəyyən edilməsi üçün təkrar yarış qaydaları tətbiq edilir (bax: Maddə 4.4 TR)

## 5. HƏRƏKƏTLƏR

5.1 Hər hərəkət səkkiz (8) elementdən ibarət olur.

5.2 1-ci Təsnifat mərhələsinin birinci və ikinci hərəkətləri § 15 bəndinə əsasən, hərəkətlərin heç birində elementi təkrarlamadan icra edilməlidir.

5.3 Final mərhələsində (1 və 2-ci Final mərhələləri) hərəkətlər § 15 bəndinə əsasən, hərəkətlərin heç birində elementi təkrarlamadan icra edilməlidir.

5.4 Final mərhələsində gimnast Təsnifat Dövrəsində icra edilmiş element və ya hərəkəti təkrarlaya bilər.

5.5 Tamblinq hərəkəti yalnız bir istiqamətli olmalıdır; lakin hərəkətin sonunda əks istiqamətdə tək elementə icazə verilir ( 8-ci element) (Bax: §17.3).

5.6 Bütün tamamlanmış hərəkətlər §17.4 bəndinə uyğun olaraq salto ilə başa çatmalıdır.

5.7 Hərəkətlər zamanı təkrar cəhdlərə icazə verilmir.

5.7.1. Əgər hərəkət zamanı gimnasta aşkar maneələr olarsa ( nasaz avadanlıq və ya ciddi kənar təsir), Hakimlər Briqadasının Sədri əlavə cəhdə icazə verə bilər. Gimnastın geyimi "avadanlıq" hesab edilmir.

5.7.2 Tamaşaçının səs – küyü, alqışlaması və buna bənzər digər hallar bir qayda olaraq maneə hesab edilmir.

## 6. GİMNASTLARIN GEYİMİ

**6.1. Kişi gimnastlar**

- Qolsuz və ya qısa qollu triko
- Gimnast şortusu
- Ağ "çeşki" və / ya ağ ayaq örtüyü geyilə bilər.

**6.2. * Qadın gimnastlar**

- qollu və ya qolsuz triko və ya kombinezon (dəriyə kip oturmalıdır)
- Uzun corablar geyilə bilər ( dəriyə kip oturmalı və trikonun rəngi ilə eyni olmalıdır)
- Gimnast şortusu geyilə bilər (dəriyə kip oturmalıdır)
- Dəriyə kip oturmayan istənilən digər "geyim" növünə icazə verilmir
- Təhlükəsizlik məqsədləri üçün üz və ya başın örtülməsinə icazə verilmir
- Ağ "çeşki" və / ya ağ ayaq örtüyü geyilə bilər.

**6.3.** Bax: § 6.3 TRA

**6.4.** bax: § 6.4 TRA

**6.5. Komandalar**

Komanda üzvləri eyni uniforma geyməlidir. Buna riayət edilməməsi komandanın idman tədbirindən kənarlaşdırılması ilə nəticələnə bilər. Bu qərar hakimlər briqadasının sədri tərəfindən qəbul edilir.

**6.6. Milli gerb və ya Federasiyanın loqosu**

**Bax: TRA YQ-da** §6.6

**6.7. Məşqçilər**

MF idman kostümü və ya şortular, idman köynəyi və idman ayaqqabıları

## 7. YARIŞ KARTLARI

7.1. 1 və 2-ci Təsnifat Mərhələlərinin elementləri hər elementin çətinlik qiyməti və onların icra ediləcəyi ardıcıllıqla yarış kartına qeyd edilməlidir.

7.2. Final mərhələləri üçün hərəkət elementləri (Fərdi Final, Komanda Final və Çoxmərhələli Komanda Final) hər elementin çətinlik qiyməti və onların icra ediləcəyi ardıcıllıqla yarış kartına qeyd edilməlidir.

7.2.1. Yarış kartında yazılmış elementləri təsvir etmək üçün BGF-nin ədədi ardıcıllıq sistemindən istifadə edilməlidir; əks halda kart qəbul edilməyəcək (Bax: Hissə 3: I və K).

7.3. Yarış kartı Yerli Təşkilat Komitəsinin nəzərdə tutduğu vaxt və yerdə təqdim edilməlidir; əks halda gimnastın iştirakına icazə verilməyə bilər. Yerli Təşkilat Komitəsi bunların Çətinlik üzrə Hakimlərə yarışa başlamazdan əvvəl ən azı iki (2) saat ərzində təqdim edilməsinə görə cavabdehdir.

7.4. Bütün dəyişilmiş elementlər Çətinlik üzrə Hakimlər tərəfindən yarış kartlarına qeyd edilir.

# 8. TAMBLİNQ CIĞIRI

8.1 Bax Batut, Tamblinq və İkili Mini Batut üzrə BFG Qaydaları.

# 9. TƏHLÜKƏSİZLİK TƏLƏBLƏRİ

9.1 Həmçinin bax TR 4-cü Bölmə
5.2 saylı Reqlament.

9.1.1 Hər gimnastı bir (1) sığortalayan şəxs ola bilər (məşqçisi).

# 10. QEYDİYYATIN APARILMASI VƏ KATİBLİK

10.1 Bax BAT YQ §10.

# 11. ALİ HAKİMLƏR VƏ APELLYASİYA HAKİMLƏRİ

11.1 Bax TR 1-ci Bölmə 7.8.1 və 7.8.3 saylı Reqlamentlər

11.2 Tamblinq yarışlarında ali hakimlər briqadası Dünya Çempionatları, Olimpiya Oyunları, Ümumdünya Oyunları və Dünya Kuboklarında fəaliyyət göstərir.

# B. YARIŞ PROSEDURU

**12. YARIŞ PROSEDURU**

**12. İSİNMƏ HƏRƏKƏTLƏRİ**

12.1. 2-ci Təsnifat Mərhələsi və Final Mərhələsindən bilavasitə əvvəl, hər gimnasta digər gimnastdan sonra yarış alətində çıxışetmə ardıcıllığı ilə bir hərəkət etməsinə icazə verilir. Bütün gimnastlar isinmə hərəkətini başa çatdırdıqdan sonra yarış başlayır.

12.2. Hakimlər Briqadasının Sədri isinmə hərəkətlərinə nəzarət edir.

12.3 Hər hansı gimnast hərəkət sayından artıq hərəkət icra etdikdə, Hakimlər Briqadasının Sədri növbəti hərəkətin cəmi xalına 0.3 xallıq cərimə tətbiq edir (bax: §20.13).

12.4 Əgər bitişik zalda hündürlüyü ən azı altı (6) metr olan ekvivalent avadanlıq yerləşdirilibsə, faktiki yarış zamanı yarış avadanlığında isinmə hərəkətinə icazə verilməyə bilər.

# 13. HƏRƏKƏTƏ BAŞLAMA

13.1 Hər bir gimnast hərəkətə hakimlər briqadasının sədri tərəfindən verilən siqnal ilə başlayır.

13.2 (§13.1-ə uyğun olaraq) Siqnal verildikdən sonra gimnast iyirmi (20) saniyə ərzində ilk elementə start verməlidir, əks halda hakimlər briqadasının sədri tərəfindən ona 0,2 xal cərimə veriləcəkdir.
Və 61-ci saniyyədə gimnast hərəkətə başlayarsa, bu halda idmançının hərəkəti qeydə alınmır. Bu qərarı Hakimlər Briqadasının Sədri qərar verir Bu müddət məhdudiyyəti nasaz avadanlıq və ya digər əhəmiyyətli səbəbə görə keçilərsə, cərimə tətbiq edilməyəcəkdir. Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

13.3 Tramplin-dən (Körpüçük) yalnız birinci hərəkətə başlamaq üçün istifadə edilə bilər. O, ya tamblinq cığırı, ya da yüyürmə cığırında yerləşə bilər.

13.4 Birinci element yüyürmə cığırından başlaya bilər, ancaq tramplindən istifadə edilib edilmədiyindən asılı olmayaraq mütləq tamblinq cığırına enməklə bitməlidir.

13.5 Hərəkət başladıqdan sonra gimnastın öz məşqçisi hərəkət əsnasında onunla danışar və ya ona istənilən şəkildə siqnal verərsə, bu, HHS tərəfindən yalnız bir dəfə tətbiq edilən 0,6 xallıq cərimə ilə nəticələnəcəkdir (bax §20.12).

## 14. ELEMENTLƏRİ YERİNƏ YETİRƏRKƏN TƏLƏB OLUNAN VƏZİYYƏTLƏR *

14.1 Pəncə və dizlər bütün vəziyyətlərdə birlikdə olmalı, ayaq və pənclər dartılmalıdır.

14.2 Elementin tələblərindən asılı olaraq bədən qruplaşmış, bükülmüş və ya düz vəziyyətdə ola bilər.

14.3 Çoxqat salto elementinin vint mərhələsi istisna olmaqla, qruplaşmış və bükülmüş vəziyyətlərdə budlar bədənin yuxarı hissəsinə yaxın olmalıdır (bax §14.7).

14.4 Çoxqat salto elementinin vint mərhələsi istisna olmaqla, qruplaşmış vəziyyətdə əllər çanaq dizdən aşağı hissəsinə toxunmalıdır (bax §14.7).

14.5 Qollar imkan daxilində düz və bədənə yaxın saxlanılmalıdır.

14.6 Aşağıda bədənin vəziyyətləri üzrə minimal tələblər müəyyən edilmişdir:

14.6.1 **Düz vəziyyət:** Bədənin yuxarı hissəsi ilə budlar arasındakı bucaq 135°-dən böyük olmalıdır.

14.6.2 **Bükülmüş vəziyyət:** Bədənin yuxarı hissəsi ilə budlar arasındakı bucaq 135° və ya daha kiçik, budlar ilə qıçların aşağı hissəsi arasındakı bucaq isə 135°-dən böyük olmalıdır.

14.6.3 **Qruplaşmış vəziyyət:** Bədənin yuxarı hissəsi ilə budlar arasındakı bucaq, eləcə də budlar ilə qıçların aşağı hissəsi arasındakı bucaq 135° və ya daha kiçik olmalıdır.

14.7 Vintli çoxqat saltolar vaxtı bükülmüş və qruplaşmış vəziyyət fırlanma mərhələsində (yarıqruplaşmış və bükülmüş vəziyyətə) dəyişə bilər.

14.8 Çiyin səviyyəsi və ya daha aşağı səviyyədə yerinə yetirilmiş vintsiz istənilən geri istiqamətli tək salto *sürətlənmə saltosu* hesab edilir və bu cür qiymətləndirilir.

## 15. ELEMENTLƏRİN TƏKRARLANMASI *

15.1 Arxaya aşma elementləri, templi saltoları, rondat və vint hərəkəti istisna olmaqla, təsnifat mərhələsinin 2 (iki) mərhələsində §1.2.1 və 5.2-yə uyğun olaraq heç bir element təkrarlana bilməz, əks halda təkrarlanmış elementin çətinliyi hesablanmayacaqdır (həmçinin bax aşağıdakı §15.5).

15.2 Arxaya aşma elementləri, templi saltoları, rondat və vint hərəkəti istisna olmaqla, final mərhələsinin hərəkətlərində eyni element təkrarlana bilməz, əks halda təkrarlanmış elementin çətinliyi hesablanmayacaqdır (həmçinin bax aşağıdakı §15.5).

15.3 Eyni sayda fırlanmadan ibarət olan, lakin fərqli, yəni qruplaşmış, bükülmüş və düz vəziyyətlərdə yerinə yetirilən elementlər təkrar yox, müxtəlif elementlər hesab edilirlər.

15.3.1 Qruplaşma və yarıqruplaşma vəziyyətləri eyni vəziyyət sayılır.

15.4 Vint müxtəlif fazalarda həyata keçirilərsə, eyni sayda vint və saltoya malik çoxqat salto elementləri (720° və daha çox) təkrar hesab edilmir ( bax II Hissə: 1.A).

15.5 İdmançıların birinci çıxışında (Q1) olan elementlər və hərəkətlər fərdi və komanda yarışlarında digər fərqli fazalarda yerinə yetirilə bilər.

## 16. HƏRƏKƏTİN DAYANDIRILMASI

16.1 Gimnast aşağıdakılardan birini etdikdə hərəkət dayandırılmış hesab edilir:

16.1.1 Sığortalayan şəxs tərəfindən toxunulmaq.

16.1.2 Ara addımları atmaq və ya dayanmaq.

16.1.3 Hərəkət zamanı cığıra / zonaya / mat üzərinə yıxılmaq.

16.1.4 Bədənin istənilən hissəsi ilə tamblinq cığırının xarici xətlərinin kənarında olan səthə toxunmaq.

16.1.5 Tamblinq cığırına ayaq və əllərdən başqa bədənin hər hansı hissəsi ilə toxunmaq, ovuç və pənclər istisna olmaqla!

16.1.6 Elementi bədənin köndələn və arxa-ön oxunun ətrafında dönmədən yerinə yetirmək.

16.2 Dayandırılmış element qiymətləndirilmir.

16.3 Gimnast yalnız enmə zonasına ayaq üstə düşməklə başa çatdırdığı elementlərin sayına görə qiymətləndiriləcəkdir. *Qeyd: enmə zonasından icra edilən heç bir hərəkət qeydə alınmır.*

16.4 Maksimal qiymət barədə qərarı hakimlər briqadasının sədri verir. Texnika Hakimlər

## 17. HƏRƏKƏTİN BAŞA ÇATDIRILMASI *

17.1 Hər bir hərəkət hər iki ayağın cığırda və ya enmə sahəsində olması ilə başa çatdırılmalıdır, əks halda son element hesablanmayacaqdır.

17.2 Son elementdən sonra gimnastlar dik vəziyyətdə dayanmalı və təxminən üç (3) saniyə ərzində tarazlığı saxlamalıdır, əks halda onlara cərimə tətbiq ediləcəkdir (bax §21.3.2).

17.3 §5.7-yə uyğun olaraq əks istiqamətli element istisna olmaqla, son element tamblinq cığırından başlayaraq enmə zonasında başa çatmalıdır. Bu qaydaya riayət etməmə HBS tərəfindən 0,4 xallıq cərimə ilə cəzalandırılır.

17.4 Bütün tam hərəkətlər (8 element) salto ilə başa çatdırılmalıdır, əks halda HBS tərəfindən 2,0 xal Hakimlər Briqadası Sədri (HBS) tərəfindən cərimə tətbiq edilir (bax §20.12).

17.5 Əlavə elementlərə görə HBS tərəfindən (ümumilikdə) 1,0 xal cərimə tətbiq ediləcəkdir (bax §20.12).

## 18. QİYMƏTLƏNDİRMƏ

İki növ qiymət istifadə edilir - bir hərəkətin çətinlik dərəcəsinin cəmini bildirən "D" qiyməti və bir hərəkətə görə icra texnikası üzrə hakimin verdiyi "E" qiyməti.

18.1* **Çətinliyin qiymətləndirilməsi**

Prinsipcə, hərəkət vaxtı bir element üzrə əldə edilən çətinlik dəyəri açıqdır, lakin gənclər və yeniyetmələr arasında keçirilən yarışlarda bu dəyər **4,3** xal ilə məhdudlaşdırılır. Daha yüksək çətinlik dərəcəsi olan elementlər yerinə yetirilə bilsə də, onlar məhdud çətinlik qiyməti olan **4,3** xal ilə qiymətləndirilir. Gənclər və yeniyetmələr arasında keçirilən yarışlarda dördlü saltolar qadağandır və yarışdan kənarlaşdırılma ilə nəticələnir.

Hər bir elementin çətinliyi aşağıdakı şəkildə hesablanır:

18.1.1 Yalnız ayaq üzərində başa çatdırılan elementlər qiymətləndirilir.

18.2.1 Yana aşma elementləri çətinlik dəyərinə malik deyil

| | | | |
|---|---|---|---|
| 18.3.1 | Aşma, arxaya doğru aşma, rondat və irəliyə doğru aşma elementləri | | 0,1 xal |
| | Sürətlənmə saltoları | | 0,2 xal |
| 18.1.4 | Saltolar: | | |
| | 18.1.4.1 | Hər bir salto (360°) | 0,5 xal |
| | 18.1.4.2 | Bükülmüş və ya düz vəziyyətdə yerinə yetirilmiş vintsiz tək saltonun aldığı bonus | 0,1 xal |
| | 18.1.4.3 | Önə doğru hər bir saltonun aldığı bonus | 0,1 xal |


*** = II Hissə - Hakimlik üzrə**

18.1.5 Vintli saltolar:

18.1.5.1 Tək salto:

- ½ vint üçün (180°) 0,2 xal
- İki (2) vintdən (720°) artıq hər ½ vint üçün 0,3 xal
- Üç (3) vintdən (1080°) artıq hər ½ vint üçün 0,4 xal

18.1.5.2 İkili saltolar:

- ½ vint üçün (180°) 0,1 xal
- Bir (1) vintdən (360°) artıq hər ½ vint üçün 0,2 xal
- İki (2) vintdən (720°) artıq hər ½ vint üçün 0,3 xal
- Üç (3) vintdən (1080°) artıq hər ½ vint üçün 0,4 xal

18.1.5.2 Üçlü saltolar:

- Hər ½ vint üçün (360°-yə qədər) 0,3 xal
- Bir (1) vintdən (360°) artıq hər ½ vint üçün 0,4 xal

18.1.6 Çoxqat saltolar - vintli və ya vintsiz

18.1.6.1 Bükülmüş vəziyyətdə yerinə yetirilən ikili saltolar 0,1, bükülmüş vəziyyətdə yerinə yetirilən üçlü saltolar isə 0,2 xallıq bonus alır.

18.1.6.2 Düz vəziyyətdə yerinə yetirilən ikili saltolar 0.2, düz vəziyyətdə yerinə yetirilən üçlü saltolar isə 0.4 xallıq bonus alır.

18.1.6.3 İkili saltolarda, istənilən vint və vəziyyətə görə verilən hər hansı bonus da daxil olmaqla, elementin ümumi dəyəri ikiyə vurulur.

18.1.6.4 Üçlü saltolarda, istənilən vint və vəziyyətə görə verilən hər hansı bonus da daxil olmaqla, elementin ümumi dəyəri üçə vurulur.

18.1.6.5 Dördlü saltolarda, istənilən vint və vəziyyətə görə verilən hər hansı bonus da daxil olmaqla, elementin ümumi dəyəri dördə vurulur.

18.1.7 Yalnız qadınlar arasında keçirilən yarışlarda: Bir hərəkət daxilində çətinlik dəyəri ən azı 2.0 xal olan ikinci, üçüncü və s. elementlər 1,0 xal bonus alır.

18.2 Qiymətləndirmə üsulu

18.2.1 İcra texnikası və çətinliyin qiymətləndirilməsi xalın onda biri ilə həyata keçirilir.

18.2.2 Hakimlər cərimələri bir-birindən müstəqil şəkildə yazmalıdır.

18.2.3 Hakimlər briqadasının sədri tərəfindən siqnal verildikdə icra texnikası üzrə hakimlərin qiymətləri eyni vaxtda göstərilməlidir.

18.2.4 Əgər İcra Texnikası Hakimlərindən hər hansı biri hakimlər briqadasının sədri siqnalından sonra qiymət verməzsə, əskik qiymət(lər)in əvəzinə digər qiymətlərin orta dəyəri istifadə edilir. *(BGF yarışlarında icra üzrə hakimlərdən hər hansı biri icra olunmuş hər element üzrə [enmə cərimələri də daxil olmaqla] cərimələri daxil etməzsə, əskik cərimə(lər)in əvəzinə digər cərimələrin orta dəyəri istifadə edilir.)* Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

18.2.5 İcra üzrə xalın qiymətləndirilməsi (E):

18.2.5.1 §21.3-ə əsasən zəif icra texnikasına görə cərimələr maksimal qiymətdən, yəni 10,0 xaldan və ya hakimlər briqadasının sədrinin müəyyən etdiyi qiymətdən çıxılır (bax §16.4).

18.2.5.2 10 xal üzərindən qiyməti göstərmək üçün hakimlər bütün hərəkətlər üzrə verdikləri qiymətə 2,0 xal əlavə edir.

18.2.5.3 İcra texnikası hakimlərinin ən yüksək və ən aşağı qiymətləri iki dəfə silinir, digər iki qiymət bir-birinə əlavə edilərək gimnastın hərəkət üzrə icra texnikası qiyməti müəyyən edilir (E+E). *(BGF-nın yarışlarında hər element üzrə 6 icra texnikası hakiminin 2 orta cərimısinin cəmi hər elementin cəriməsi kimi götürülür, sonra həmin cərimələrin cəmi [enmə cəriməsi də daxil olmaqla].* Ümumi hesablamada iki Texnika + Çətinlik və Ümumi cərimə xalları qeyd edilir. Xal = Texnika (maksimum 20 xal) + çətinlik – ümumi cərimə xalı

*mümkün olan ən yüksək icra texnikası xalından [maks. 30 bal] çıxılaraq gimnastın hərəkət üzrə icra texnikası qiyməti müəyyən edilir).*

18.2.6 Çətinlik xalının qiymətləndirilməsi:

18.2.6.1 Çətinlik hakimləri ixtiyari hərəkətlərin çətinliyini §5.3, §15, §16 və §18.1-18.1.7-yə uyğun olaraq hesablayır.

18.2.7 Gimnastın hərəkət üzrə ümumi xalının qiymətləndirilməsi:

18.2.7.1 Hər bir hərəkət ayrı qiymətləndirilir və hər hərəkət üzrə icra texnikası ilə çətinlik üçün ümumi qiymət hesablanır.

18.2.7.2 Protokolçular üç ədəd "E" qiyməti (icra texnikası) və "D" qiymətini (çətinlik) cəmləyərək və §5.5, §6.4, §6.6, §12.2, §13.2, §13.5, §17.4 və §17.5-ə uyğun olaraq cərimələri çıxaraq ümumi balı hesablayır.

18.2.8 Bütün qiymətlər vergüldən sonra 2 (iki) rəqəmə qədər yuvarlaqlaşdırılır. Həmin yuvarlaqlaşdırma yalnız gimnastın hərəkət üzrə ümumi xalı münasibətində həyata keçirilir.

18.2.9 Baş protokolçu nəticələr siyahısındakı ümumi qiymətləri yoxlamalıdır.

18.2.10 Hakimlər briqadasının sədri yekun xalların etibarlılığının müəyyən edilməsinə görə məsuliyyət daşıyır.

# C. HAKİMLƏR HEYƏTİ

## 18.1.1.1. HAKİMLƏR HEYƏTİ

19.1 Heyət:

| | | |
|---|---|---|
| 19.1.1 | Hakimlər briqadasının sədri | 1 |
| 19.2.1 | İcra üzrə hakimlər (1-5 saylı hakimlər) | 6 |
| 19.3.1 | Çətinlik üzrə hakimlər (6 və 7-ci hakimlər) | 2 |
| 19.4.1 | **Ümumi** | **9** |

19.2 Bütün hakimlər tamblinq cığırının kənarından ən azı 5 (beş) metr aralıda yerləşən 50 sm-lik podiumda ayrı oturmalıdır. Hakim masaları tamblinq cığırının 16-cı metrindən başlayaraq yerləşdirilməlidir.

19.3 Vəzifələrini qənaətbəxş şəkildə yerinə yetirməyən hakim əvəzlənməlidir. Bu barədə qərarı ali hakimlər briqadası verir. Ali hakimlər briqadası olmadıqda qərarı hakimlər briqadasının sədri verir. Bax TR 1-ci Bölmə 7.8.1 saylı Reqlament və YQ §11.2.

19.3.1 İcra üzrə hakim əvəzlənərsə, hakimlər briqadasının sədri həmin hakimin verdiyi qiymətlərin qalan hakimlərin qiymətlərinin orta dəyəri ilə əvəzlənməsinə qərar verə bilər.

## 18.1.1.2. HAKİMLƏR BRİQADASININ SƏDRİNİN VƏZİFƏLƏRİ

20.1 Avadanlıqlara nəzarət.

20.2 Hakimlər konfransını və qiymətləndirmə sınağını təşkil etmək (bax TR 1-ci Bölmə 7.9 saylı Reqlament).

20.3 Bütün hakimləri, sığortaçıları və protokolçuları yerləşdirmək və onlara nəzarət etmək.

20.4 Yarışları idarə etmək.

20.5 Yarışın hakimlər briqadasını çağırmaq.

20.6 İkinci cəhdə icazə verilib-verilməyəcəyinə qərar vermək (bax §5.10).

20.7 Hərəkət dayandırılmışdırsa, maksimal qiyməti bildirmək (bax §16).

20.8 Enmı zamanı cərimə xalın qeyd edilməsi.

| | | |
|---|---|---|
| 20.8.1 | cığırın kənar xətləri və ya enmə zonasının xaricinə enmək | 1.0 xal |
| 20.8.2 | endikdən sonra, enmə zonasından enmə sahəsinə və ya cığıra çıxmaq | 0.2 xal |

20.9 Hakim dərhal qiymət vermədikdə bununla bağlı qərar vermək (bax §18.2.4).

20.10 §6.4, §6.6, §12.2, §13.2, §13.5, §17.3, §17.4, §17.5 və §20.10-a uyğun olaraq cərimə xallarını tətbiq etmək.

20.11 Bütün xallar, hesablamalar, yekun və final nəticələri yoxlamaq, onlara nəzarət etmək və aşkar hesablama səhvləri müəyyən edildikdə müdaxilə etmək.

20.12 Növbəti mərhələyə başlamamışdan əvvəl, bütün verilən etirazlar həllini tapmalıdır.

## 18.1.1.3. İCRA TEXNİKASI ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ (1-5 SAYLI HAKİMLƏR)

21.1 §21.3-ə uyğun olaraq icra texnikasını 0.0 - 0.5 xal diapazonunda qiymətləndirmək və cərimələri cərimə vərəqələrinə daxil etmək.

21.2 Cərimələri hakimlər briqadasının sədri tərəfindən müəyyən edilmiş maksimal qiymətdən çıxmaq (bax §16.4).

21.3 İcra üzrə cərimələr

21.3.1* hər element üzrə koordinasiya, hündürlük və ritmin pozulması 0.1-0.5 xal

21.3.2* hərəkət (8 element) başa çatdırıldıqdan sonra tarazlığın itirilməsi, yalnız daha ciddi səhvə görə cərimə verilir:

21.3.2.1 dik vəziyyətdə dayanaraq təxminən üç (3) saniyə ərzində tarazlığı saxlaya bilməmə 0.1-0.3 xal

21.3.2.2 endikdən sonra, cığır və ya enmə zonasına / sahəsinə bir və ya hər iki əl ilə toxunma 0,5 xal

21.3.2.3 enmə zonasına endikdən sonra diz üstə düşmək və ya cığıra və ya enmə sahəsinə dizlər, əllər və dizlər, qarın, kürək ilə toxunmaq və ya onun üzərinə oturmaq 1.0 xal

21.3.2.4 endikdən sonra sığortaçı tərəfindən köməyin göstərilməsi 1.0 xal

21.3.2.5* enmə sahəsi və ya cığıra endikdən sonra enmə sahəsi və ya cığırı tərk etmək, bədənin hər hansı hissəsi ilə enmə sahəsi xaricində toxunuş etmək və ya döşəməyə toxunmaq, yaxud da əlavə salto yerinə yetirmək 1.0 xal

21.4 İcra üzrə qiyməti göstərmək.

## 18.1.1.4. ÇƏTİNLİK ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ (7 VƏ 8-Cİ HAKİMLƏR)

22.1 Yarış kartlarını yarış başlamazdan ən azı iki (2) saat əvvəl baş protokolçudan yığmaq.

22.2 Yarış kartlarına daxil edilmiş elementləri və çətinlik dəyərlərini yoxlamaq.

22.3 §5.5.1, §5.5.2 və/və ya 5.5.3-ə uyğun olaraq tələb olunan elementləri / tələbləri yoxlamaq və əskik tələblər ilə bağlı cərimələri tətbiq etmək.

22.3.1 Əgər gimnast çətinliyi yarış kartında yazılandan fərqli olan element(lər)i yerinə yetirərsə, bunu açıq şəkildə bildirmək və hərəkətlərdə edilmiş bütün dəyişiklik və təkrarları qeydə almaq.

22.4 Yerinə yetirilmiş bütün elementləri, onların çətinlik dəyərini müəyyən etmək və yarış kartına daxil etmək (BGF-nin hesablama sisteminə uyğun qaydada).

22.5 Çətinlik xalını göstərmək.

Lozanna şəhəri, May 2021-ci il

**Beynəlxalq Gimnastika Federasiyası**





| | | |
|---|---|---|
| Bruno Qrandi | Andre F. Qaysbuxler | Horst Küntse |
| Prezident | Baş katib | Batut TK Prezidenti |

# Yarış Qaydaları

**İKİLİ MİNİ BATUT.**
**2021-ci ilin 1 Yanvar tarixindən etibarlıdır.**

## A. ÜMUMİ

İMB hərəkəti iki (2) elementdən ibarət olub, fırlanma elementləri ilə və ya bunlar olmadan önə və arxaya müxtəlif hərəkətləri nümayiş etdirmək üçün planlaşdırılmalıdır. Bu hərəkət lazımi nəzarət, forma, hərəkətin icrası, hündürlük, hündürlüyün saxlanmasını təmin edərək, lazımi nəzarəti, formanı, hərəkətin icrasını və tempin saxlanmasını nümayiş etdirməlidir. İMB dayanmadan və ya arada düz istiqamətdə sıçrayışlar olmadan, yüksək, davamlı və ritmik ayaqlardan ayaqlara dönərək tullanma elementləri ilə xarkterizə edilir.

**1. FƏRDİ YARIŞLAR**

1.1. İMB yarışları aşağıda verilmiş quruluşa əsasən Təsnifat və Final mərhələlərindən ibarətdir:

| Yarış mərhələsi | Kim yarışır? | Hansı hərəkəti icra edir? | Çıxış etmə ardıcıllığı |
|---|---|---|---|
| 1-ci təsnifat mərhələsi | Bütün gimnastlar | 2 hərəkəti icra edir | Püşkatma |
| 2-ci təsnifat mərhələsi | Əgər iştirakçı sayı 48 və ya çox olarsa, ən yaxşı nəticələr əldə etmiş 24 gimnast<br>Iştirakçı sayı 32-47 ı olarsa, ən yaxşı nəticələr əldə etmiş 16 gimnast<br>İştirakçı sayı 31-dən az olarsa, heç bir gymnast MF qaydalarına uyğun olaraq Maksimum 3 nəfər | 1 hərəkət icra edilir | Püşkatma |
| 1-ci Final | Ən yaxşı nəticələr əldə etmiş 8 gimnast, MF qaydalarına uyğun olaraq maksimum 2 | 1 hərəkət icra edilir | Püşkatma |
| 2-ci Final | Ən yaxşı nəticələr əldə etmiş 4 gimnast, MF qaydalarına uyğun olaraq heç bir məhdudiyyət | 1 hərəkət icra edilir | 1-ci Mərhələnin ardıcıllığı saxlanılır |

1.2. Təsnifat mərhələləri

1.2.1. Təsnifat mərhələsi iki dövrəyə ayrılır: bütün qeydiyyatdan keçmiş gimnastların yarışdığı 1-ci Təsnifat mərhələsi və gimnastların sayının nominativ qeydiyyatdan keçmiş iştirakçı sayından asılı olduğu 2-ci Təsnifat mərhələsi:

- 1-31 iştirakçı sayı, 2-ci Təsnifat mərhələsi olmur
- 32-47 iştirakçı sayı, 16 gimnastın iştirak etdiyi 2-ci Təsnifat mərhələsi
- 48 və daha çox iştirakçı sayı, 24 gimnastın iştirak etdiyi 2-ci Təsnifat mərhələsi

1.2.2. 1-ci Təsnifat mərhələsi heç bir hərəkətdə elementlərin təkrarına icazə verilmədiyi iki ixtiyari hərəkətdən ibarət olur. Hər iki hərəkətin xallarının ən yüksək cəmi 2-ci Təsnifat mərhələsi və ya Final mərhələsinə keçidi müəyyən edir (bax: TR Maddə 1).

1.2.3. Təsnifat mərhələləri (1 və 2-ci Mərhələlər) üzrə çıxışetmə ardıcıllığı püşkatma nəticəsində müəyyən edilir. Gimnastlar maksimum on iki (12) nəfərdən ibarət olan, öz birinci və ikinci hərəkətlərini növbəti qrup Təsnifat Dövrəsinə başlamazdan əvvəl icra edən müvafiq qruplara ayrılır.

1.2.3.1. Hər yarış qrupunun qalibi 2-ci Təsnifat mərhələsi və ya Final mərhələsinə vəsiqə əldə edir. (bax: 1.2.1)

1.2.3.2. 2-ci Təsnifat mərhələsi üzrə 16 və ya 24 və ya Final mərhələsi üzrə 8-ə qədər olan qalan yerlər təsnifatın birinci dövrəsinin yekun sıralamasına uyğun olaraq verilir.

1.2.4. 2-ci Təsnifat mərhələsində iştirak MF qaydalarına uyğun olaraq maksimum 3 gimnastla məhdudlaşır. Əgər eyni MF-dən olan 4 gimnast öz müvafiq yarış qruplarının qalibi olarsa, 3 ən yüksək xal nəzərə alınır. Heç-heçə əldə edildiyi halda, qalibin müəyyən edilməsi üçün əlavə yarış qaydaları tətbiq olunur.

1.2.5. 2-ci Təsnifat mərhələsində hər yarış qrupu ya 8 və ya 12 gimnastdan ibarət olur. 2-ci Təsnifat mərhələsi sıfır xalla başlayır. 1-ci Mərhələdən olan elementlər 2-ci Mərhələdə icra edilə bilsə də, 1-ci Mərhələdə olduğu kimi, eyni İMB zonasında icra edilmir.

1.2.5.1. Hər yarış qrupunun qalibi Finala yüksəlir.

1.2.5.2. Final mərhələsi üçün qalan altı (6) yer bütün gimnastların yekun sıralamasına uyğun verilir.

1.2.6. Final mərhələlərində İştirak MF qaydalarına əsasən maksimum iki (2) gimnastla məhdudlaşır.

1.3. Final mərhələləri

1.3.1. Final mərhələləri üçün çıxışetmə ardıcıllığı püşkatma nəticəsində müəyyən edilir. 2-ci Final mərhələsinin çıxışetmə ardıcıllığı dörd (4) vəsiqə əldə etmiş gimnastla 1-ci Final mərhələsindəki ardıcıllığa uyğun olur.

1.3.2. Final mərhələləri istənilən hərəkətdə elementlərin təkrarlanmasına icazə verilməməklə, iki dövrəyə ayrılır:

1.3.2.1. 1-ci mərhələdə səkkiz (8) gimnast bir (1) ixtiyari hərəkət icra edir. Gimnastlar 1-ci Mərhələyə sıfır xalla başlayır. Ən yaxşı 4 (dörd) gimnast 2-ci Mərhələyə vəsiqə qazandığı halda qalan dörd (4) gimnast onların 1-ci Mərhələdəki nəticələrinə uyğun olaraq 5-8-ci yerlər üzrə sıralanır.

1.3.2.2. 2-ci Mərhələdə dörd (4)gimnast bir (1) ixtiyari hərəkət icra edib, titul ( qızıl medal) və qalan yerlər uğrunda (2-4-cü yerlər) mübarizə aparır. Gimnastlar 2-ci Mərhələyə sıfır xalla başlayır. Qalib gimnast 2-ci Mərhələdə yüksək xal qazanmış gimnastdır.

1.3.3. Heç – heçə əldə edildiyi halda qalibin müəyyən edilməsi üçün əlavə yarış qaydaları tətbiq edilir (bax: Maddə 4.4 TR).

## 2. KOMANDA YARIŞI

2.1 Komanda hər idman tədbiri üzrə ən azı üç (3) və ən çoxu dörd (4) gimnastdan ibarət olur (kişi və qadın yarışı).

2.2 Təsnifat mərhələləri

2.2.1 1-ci Təsnifat mərhələsi Komanda yarışları üzrə Final mərhələləri üçün təsnifat rolunu oynayır.

2.2.2 Komanda üzvlərinin birinci təsnifat mərhələsinin hər dövrəsində əldə etdiyi üç (3) ən yüksək xal bu mərhələdən sonra komandanın ümumi xalını (altının (6) cəmi) verir.

2.3 Final mərhələləri

2.3.1 1-ci Mərhələdə beş (5) ən yüksək yerə layiq görülmüş komandalar Komanda yarışları üzrə Final mərhələsinə vəsiqə əldə edir.

2.3.2 Final mərhələlərindəki komandalar üç (3) gimnastdan ibarət olur və hər gimnast bir hərəkəti icra edir.

2.3.3 Komanda yarışları üzrə Final mərhələləri üç (3) dövrədən ibarət olur. Hər üç (3) dövrədə komandaların çıxışetmə ardıcıllığı sıra ardıcıllığına uyğun olub, 5-ci yerə layiq görülmüş

komandanın birinci gimnastı birinci, sonra 4-cü yerə layiq görülmüş komandanı təmsil edən birinci gimnast ikinci çıxış edir….

2.3.4 MF öz komandaları adından Final mərhələsində çıxış edəcək üç (3) gimnastı yarışacaqları ardıcıllıqla, Komanda yarışları üzrə Final mərhələsindən ən azı bir saat əvvəl təyin edir.

2.3.5 Qiymətləndirmə komandanın hər dövrədə qazandığı sıra ballarının cəminə əsasən müəyyən edilir (5, 4, 3, 2 və 1). Qalib komanda Final mərhələsində sıra ballarının ən yüksək cəmini əldə etmiş komanda olur.

2.3.6 Heç-heçə əldə edildiyi halda qalibin müəyyən edilməsi üçün təkrar yarış qaydaları tətbiq edilir (bax: Maddə 4.4 TR).

2.4 Çoxmərhələli Komanda yarışları üzrə Final Mərhələsi.

Komanda aşağıda verilmiş kateqoriyanın hər birindən bir (1) kişi və bir (1) qadın gimnast / cütlüyündən ibarət olur:

- Fərdi batut
- Sinxron batut
- Tamblinq
- İkili mini – batut

2.4.1 Təsnifat mərhələləri

2.4.1.1 1-ci Təsnifat mərhələsi Çoxmərhələli Komanda yarışları üzrə Final mərhələsi üçün təsnifat rolunu oynayır.

2.4.1.2 Komandanın xalı hər kateqoriya və cinsdən olan bir gimnastın əldə etdiyi ən yüksək xalın cəminə bərabər olur.

2.4.2 Final mərhələləri

2.4.2.1 1-ci Təsnifat mərhələsində beş (5) ən yüksək yerə layiq görülmü komanda Final mərhələsinə vəsiqə əldə edir.

2.4.2.2 Final mərhələlərindəki Komandalar hər ölkə üzrə hər kateqoriya və cinsdən bir gimnastdan ibarət olur. Hər gimnast bir hərəkəti icra edir.

2.4.2.3 Bax: TR 4-cü Bəndində verilmiş 4.3.4 Maddəsindəki yarış prosesi

2.4.2.4 Qiymətləndirmə komandanın hər dövrədə əldə etdiyi sıralama ballarının cəminə əsasən müəyyən edilir (5, 4, 3, 2 və 1). Qalib komanda Final mərhələsində sıralama ballarının ən yüksək cəmini əldə etmiş komanda olur.

2.4.3 Heç-heçə əldə edildiyi halda qalibin müəyyən edilməsi üçün təkrar yarış qaydaları tətbiq edilir (bax: Maddə 4.4 TR)

## (3) -
## 4. QALİBLƏR

4.1 Final mərhələsində ən yüksək nəticə əldə edən gimnast və ya komanda qalib hesab olunur.

4.2 Medallar TR 1-ci Bölmə 10.3 saylı Reqlamentə əsasən verilir.

## 5. HƏRƏKƏTLƏR

5.1* Hər bir hərəkət iki (2) elementdən ibarətdir (bir (1) *qalxma* və ya *yüksəlmə* elementi və bir (1) *sıçrama elementi*).

5.1.1 Vintsiz düz qalxma element hesab edilmir. Yüksəlmə və ya sıçrama elementi yerinə düz tullanma istifadə edilərsə, hərəkət dayanmış hesab edilir (bax §16.1.8).

5.2* • Qalxma elementi və ya düz tullanaraq qalxma, qalxma zonasından həyata keçirilməli və yüksəlmə / sıçrama zonasına enərək bitməlidir.

• Tullanma elementi yüksəlmə / sıçrama zonasında başlamalı və eyni zonaya enməklə bitməlidir.

• Sıçrama elementi yüksəlmə / sıçrama zonasında başlamalı və enmə zonasında bitməlidir. §5.2 üzrə hər hansı pozuntu hərəkətin dayandırılmasına səbəb olacaqdır (bax §16.1.7).

5.3 Elementlər yalnız hərəkətin müxtəlif hissələrində yerinə yetirildikdə təkrarlana bilər (qalxma, yüksəlmə və ya sıçrama).

5.4 Hərəkətlər üzrə ikinci cəhdlərə icazə verilmir.

5.4.1 Gimnast hərəkət vaxtı açıq şəkildə narahat edilərsə (avadanlığın nasaz olması, əhəmiyyətli xarici təsir və s.), hakimlər briqadasının sədri təkrar cəhdə icazə verə bilər. Gimnastın geyimi "avadanlıq" hesab edilə bilməz.

5.4.2 Tamaşaçı səs-küyü, alqışlar və bu kimi amillər bir qayda olaraq narahatlıq hesab edilmir.

## 6. GİMNAST VƏ SIĞORTAÇILARIN GEYİMLƏRİ *

6.1 **Kişi gimnastlar**

- Qolsuz və ya qısa qollu triko
- Gimnast şortu
- Ağ batut ayaqqabıları və/və ya ağ corablar 6.2*

**Qadın gimnastlar**

- Qollu və ya qolsuz triko və ya kombinezon (dar olmalıdır)
- Uzun corablar geyinmək olar (dar və triko ilə eyni rəngdə olmalıdır)
- Dar olmayan heç bir digər "geyimə" icazə <u>verilmir</u>
- Təhlükəsizlik səbəblərinə görə üz və ya başın örtülməsinə icazə <u>verilmir</u>
- Batut ayaqqabıları və/və ya ağ corablar

6.3 bax § 6.3 BAT

6.4 bax § 6.4 BAT

6.5 **Komandalar**

Komanda üzvləri eyni geyimlərdə çıxış etməlidir. Bu qaydaya riayət etməmə komandanın komanda yarışından kənarlaşdırılması ilə nəticələnə bilər. Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

6.6 **Gerb və ya Federasiyanın loqosu**

Bax BAT YQ §6.6.

6.7 **Sığortalayan şəxslər**

İdman kostyumu və gimnastika ayaqqabıları və ya ekvivalenti.

## 7. YARIŞ KARTLARI

7.1 Hər bir hərəkət, elementlərin çətinlik dərəcəsi ilə birlikdə yarış kartına qeyd edilməlidir.

*7.1.1 <u>BGF yarışlarında</u> yarış kartına yazılmış elementləri təsvir etmək üçün yalnız BGF hesablama sistemindən istifadə edilə bilər, əks halda kart qəbul edilməyəcəkdir (bax III Hissə: H və I).*

7.2 Yarış kartı təşkilatçı komitənin müəyyən etdiyi vaxt və yerdə təqdim edilməlidir, əks halda gimnastın çıxış etməsinə icazə verilməyə bilər. Baş protokolçu kartların Çətinlik üzrə hakimlərə yarış başlamazdan ən azı iki (2) saat əvvəl verilməsinə görə məsuliyyət daşıyır.

7.3 Elementlərə və onların yarış kartında yazıldığı ardıcıllğa cərimə tətbiq edilmədən dəyişikliklər edilə bilər, amma həmin dəyişikliklər çətinlik üzrə hakimlər tərəfindən yarış kartına daxil edilməlidir. *BGF yarışlarının Komanda Finalında yerinə yetirilən hərəkət çətinlik hakimləri tərəfindən protokollaşdırılır. Seçmə turunda yerinə yetirilmiş element və hərəkətlər istifadə edilə bilər (bax §15.2).*

## 8. İKİLİ MİNİ BATUT AVADANLIĞI

8.1 Bax Batut, Tamblinq və İkili Mini Batut üzrə BFG Qaydaları.

## 9. TƏHLÜKƏSİZLİK TƏLƏBLƏRİ

9.1 Həmçinin bax TR 4-cü Bölmə 5.2 saylı Reqlament.
- 9.1.1 Hər gimnastın bir (1) sığortaçısı (məşqçisi) ola bilər.
- 9.1.2 Sığorta matı yalnız idmançının öz sığortaçısı tərəfindən istifadə edilə bilər.

## 10. QEYDİYYATIN APARILMASI VƏ KATİBLİK

10.1 Bax BAT YQ §10.

## 11. ALİ HAKİMLƏR VƏ APELLYASİYA HAKİMLƏRİ

11.1 Bax TR 1-ci Bölmə 7.8.1 və 7.8.3 saylı Reqlamentlər

11.2 Ali hakimlər briqadası İkili Mini Batut üzrə Dünya Çempionatları, Ümumdünya Oyunları və Dünya Kuboklarında fəaliyyət göstərir.

# B. YARIŞ PROSEDURU

### 12. İSİNMƏ HƏRƏKƏTLƏRİ

12.1. 2-ci Təsnifat Mərhələsi və Final Mərhələsindən bilavasitə əvvəl, bir gimnastın digər gimnastdan sonra yarış alətində çıxışetmə ardıcıllığı ilə bir hərəkət etməsinə icazə verilir. Bütün gimnastlar isinmə hərəkətini başa çatdırdıqdan sonra yarış başlayır.

12.2. Hakimlər Briqadasının Sədri isinmə hərəkətlərinə nəzarət edir.

12.3 Hər hansı gimnast hərəkət sayından artıq hərəkət icra etdikdə, Hakimlər Briqadasının Sədri növbəti hərəkətin cəmi xalına 0.3 xallıq cərimə tətbiq edir (bax: §20.13).

12.4 Əgər bitişik zalda hündürlüyü ən azı altı (6) metr olan ekvivalent avadanlıq yerləşdirilibsə, faktiki yarış zamanı yarış avadanlığında isinmə hərəkətinə icazə verilməyə bilər.

## 13 HƏRƏKƏTƏ BAŞLAMA

13.1 Hər bir gimnast hərəkətə hakimlər briqadasının sədri tərəfindən verilən siqnal ilə başlayır.

13.2 (§13.1-ə uyğun olaraq) siqnal verildikdən sonra gimnast 20 saniyə ərzində ilk elementə start verməlidir, əks halda hakimlər briqadasının sədri tərəfindən ona 0,3 xal cərimə veriləcəkdir.
Bu müddət məhdudiyyəti nasaz alət və ya digər əhəmiyyətli səbəbə görə keçilərsə, cərimə tətbiq edilməyəcəkdir. Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

13.3 Yanlış start baş verər və gimnast İkili Mini Batuta toxunmazsa, gimnast cərimə almadan hakimlər briqadasının sədrinin siqnalı ilə yenidən başlaya bilər.

13.4 Hərəkət başladıqdan sonra gimnastın öz məşqçisi hərəkət vaxtı onunla danışar və ya ona istənilən şəkildə siqnal verərsə, bu, hakimlər briqadasının sədri tərəfindən yalnız bir dəfə tətbiq edilən 0,9 xallıq cərimə ilə nəticələnəcəkdir (bax §20.12).

## 12. ELEMENTLƏRİ YERİNƏ YETİRƏRKƏN TƏLƏB OLUNAN VƏZİYYƏTLƏR *

14.1 Bax BAT YQ §14.1-14.7.

## 13. ELEMENTLƏRİN TƏKRARLANMASI *

15.1 Dörd (4) hərəkətlərdən hər hansı birində §5.3-ə uyğun olaraq qalxma, yüksəlmə və ya sıçrama elementi kimi bir dəfədən artıq istifadə edilən element təkrarlanmış hesab edilir. Təkrarlanmış elementin çətinlik dərəcəsi hesablanmır.

15.2 *Dünya Çempionatlarının təsnifat mərhələsində yerinə yetirilmiş elementlər və ya hərəkət komanda finalında təkrarlana bilər.*

15.3 Eyni sayda fırlanmadan ibarət olan, amma fərqli, yəni qruplaşmış, bükülmüş və düz vəziyyətlərdə yerinə yetirilən elementlər təkrar yox, müxtəlif elementlər hesab edilirlər.

15.3.1 Qruplaşma və yarıqruplaşma vəziyyətləri eyni vəziyyət sayılır.

15.4 Vint müxtəlif fazalarda həyata keçirildikdə eyni sayda vint və saltoya malik çoxqat salto elementləri (720° və daha çox) təkrar hesab edilmir ( bax II Hissə: 1.A).

## 14. HƏRƏKƏTİN DAYANDIRILMASI

16.1 Gimnast aşağıdakılardan birini etdikdə hərəkət dayandırılmış hesab edilir:

16.1.1 Aşkar şəkildə torun üzərinə iki ayağı ilə eyni vaxtda enməmək.

16.1.2 Endikdən sonra növbəti elementə keçmək üçün torun elastikliyindən istifadə etməmək.

16.1.3 Sığortaçı tərəfindən toxunulmaq və ya sığorta matına toxunmaq.

16.1.4 Təhlükəsizlik qaydaları pozulduğuna görə İMB-ni tərk etmək.

16.1.5 İMB toruna ayaqdan başqa hər hansı bədən hissəsi ilə enmək.

16.1.6* Hərəkət vaxtı İMB-nin torundan başqa hər hansı hissəsinə enmək.

16.1.7 Qalxma elementi, yüksəlmə elementi və ya sıçrama elementini düzgün formada və ya düzgün sahədə yerinə yetirməmək (§5.2-ə uyğun olaraq).

16.1.8 Yüksəlmə və ya sıçrama elementi əvəzinə düz tullanma yerinə yetirmək (§5.1.1-ə uyğun olaraq).

16.2 §16.1.1-16.1.8-ə uyğun olaraq dayanmanın baş verdiyi element qiymətləndirilmir.

16.3 Avadanlığın dar olması səbəbiylə hərəkət vaxtı tordan başqa hissələrə toxunma dayanma hesab edilmir, amma hakimlər briqadasının sədri tərəfindən 0,3 xal cərimə tətbiq edilir (bax §20.12).

16.4 Gimnast yalnız iki ayaq üzərində başa çatdırdığı elementlərin sayına görə qiymətləndirilir.

16.5 Maksimal qiymət barədə qərarı hakimlər briqadasının sədri verir.

## 15. HƏRƏKƏTİN BAŞA ÇATDIRILMASI *

17.1 Sıçrama elementindən sonra hərəkət nəzarətli şəkildə, dik vəziyyətdə, hər iki ayaq enmə sahəsində olacaq qaydada başa çatdırılmalıdır, əks halda sıçrama elementi qiymətləndirilməyəcəkdir.

17.2 Sıçrama elementi bitdikdən sonra gimnastlar təxminən üç (3) saniyə ərzində dik vəziyyətdə dayanmalıdır, əks halda onlara tarazlıq itkisinə görə cərimə tətbiq ediləcəkdir (bax §21.3.2).

## 16. QİYMƏTLƏNDİRMƏ

İki (2) növ qiymət istifadə edilir - bir hərəkətin çətinlik dərəcəsinin cəmini bildirən "D" qiyməti və icra üzrə hakimin bir hərəkətə görə verdiyi "E" qiyməti.

18.1* **Çətinliyin qiymətləndirilməsi**

Prinsipcə, hərəkət vaxtı bir element üzrə əldə edilən çətinlik dəyəri açıqdır, lakin gənclər və yeniyetmələr arasında keçirilən yarışlarda bu dəyər **4,6** xal ilə məhdudlaşdırılır. Daha yüksək çətinlikdə olan elementlər yerinə yetirilə bilsə də, onlar məhdud çətinlik qiyməti olan **4,6** xal ilə qiymətləndirilir. Gənclər və yeniyetmələr arasında keçirilən yarışlarda dördlü saltolar qadağandır və yarışdan kənarlaşdırılma ilə nəticələnir.

Hər bir elementin çətinliyi aşağıdakı şəkildə hesablanır:

18.1.1 Yalnız ayaqlar üzərində başa çatdırılan elementlər qiymətləndirilir.

18.1.2 Hər 1/2 vint (180°) üçün ( § 18.1.4.2-də göstərilmiş istisnadan başqa) 0.2 xal

18.1.3 Hər salto üçün (360°) 0.5 xal

18.1.4 Bir və ya daha az saltolar:

18.1.4.1 Bükülmüş və ya düz vəziyyətdə vintsiz yerinə yetirilən tək saltolar 0.1 xal bonus alır.

18.1.4.2 1-dən artıq vintli tək saltolarda (360°) vintin çətinliyi aşağıdakı kimi hesablanır:

- Bir (1) vintdən (360°) artıq hər ½ vint üçün 0,3 xal
- İki (2) vintdən (720°) artıq hər ½ vint üçün 0,4 xal
- Üç (3) vintdən (1080°) artıq hər ½ vint üçün 0,5 xal
- Dörd (4) vintdən (1440°) artıq hər ½ vint üçün 0,6 xal

18.1.5 Yana doğru saltolar çətinlik dəyərinə malik deyil.

18.1.6 Çoxqat saltolar - vintli və ya vintsiz:

18.1.6.1 Bükülmüş vəziyyətdə yerinə yetirilən ikili saltolar 0,4, bükülmüş vəziyyətdə yerinə yetirilən üçlü saltolar isə 0,8 xallıq bonus alır.

18.1.6.2 Düz vəziyyətdə yerinə yetirilən ikili saltolar 0,8, düz vəziyyətdə yerinə yetirilən üçlü saltolar isə 1,6 xallıq bonus alır.

18.1.6.3 İkili saltolarda istənilən vint də daxil olmaqla, elementin ümumi dəyəri ikiyə vurulur. Sonra bükülmüş və ya düz vəziyyət bonusu əlavə edilərək element üzrə ümumi qiymət müəyyən edilir.

18.1.6.4 Üçlü saltolarda istənilən vint də daxil olmaqla, elementin ümumi dəyəri üçə vurulur. Sonra bükülmüş və ya düz vəziyyət bonusu əlavə edilərək element üzrə ümumi qiymət müəyyən edilir.

18.1.6.5 Dördlü saltolarda istənilən vint də daxil olmaqla, elementin ümumi dəyəri dördə vurulur. Sonra bükülmüş və ya düz vəziyyət bonusu əlavə edilərək element üzrə ümumi qiymət müəyyən edilir.

18.1.7 Salto və vintləri birləşdirən elementlərdə saltonun və vintin çətinlik dəyərləri cəmlənir.

18.2 Qiymətləndirmə üsulu.

18.2.1 İcra texnikası və çətinliyin qiymətləndirilməsi xalın onda biri ilə həyata keçirilir.

18.2.2 Hakimlər cərimələri bir-birindən müstəqil şəkildə yazmalıdır.

18.2.3 Hakimlər briqadasının sədri tərəfindən siqnal verildikdə icra texnikası üzrə hakimlərin qiymətləri eyni vaxtda göstərilməlidir.

18.2.4 Əgər icra üzrə hakimlərindən hər hansı biri hakimlər briqadasının sədrinin siqnalından sonra qiymət verməzsə, əskik qiymət(lər)in əvəzinə digər qiymətlərin orta dəyəri istifadə edilir. *(BGF yarışlarında İcra Texnikası Hakimlərindən hər hansı biri icra olunmuş hər element üzrə [enmə cərimələri də daxil olmaqla] cərimələri daxil etməzsə, əskik cərimə(lər)in əvəzinə digər cərimələrin orta dəyəri istifadə edilir.)* Bu barədə qərarı hakimlər briqadasının sədri verir.

18.2.5 İcra texnikası balının qiymətləndirilməsi (E):

18.2.5.1 §21.3-ə əsasən zəif icraya görə cərimələr maksimal qiymətdən, yəni 10,0 xaldan və ya hakimlər briqadasının sədrinin müəyyən etdiyi qiymətdən çıxılır (bax §16.4).

18.2.5.2 On (10) xal üzərindən qiyməti göstərmək üçün hakimlər bütün başa çatdırılmış hərəkətlər üzrə verdikləri qiymətə 8,0 xal əlavə edir. Sadəcə bir (1) elementin olduğu hərəkatlərdə icra üzrə hakimlər, maksimal xal 7,0 olmaq şərtilə, 6,0 xal əlavə edir.

18.2.5.3 İcra texnikası hakimlərinin ən yüksək və ən aşağı qiymətləri silinir, digər üç qiymət cəmlənərək gimnastın hərəkət üzrə icra texnikası qiyməti müəyyən edilir (E+E+E). *(BGF yarışlarında icra texnikası üzrə 5 hakimin hər element üzrə 3 orta cəriməsinin cəmi element üzrə cərimə kimi götürülür, sonra [enmə cərimələrini nəzərə almaqla] bu cərimələrin cəmi mümkün olan ən yüksək icra texnikası balından [maksimal olaraq 30 xaldan] çıxılaraq gimnastın hərəkət üzrə icra xalı əldə edilir).*

18.2.6 Çətinlik xalının qiymətləndirilməsi (D):

18.2.6.1 Çətinlik üzrə hakimlər hərəkətin çətinliyini §15, §16 və §18.1-ə uyğun olaraq hesablayır və yarış kartına daxil edir.

18.2.7 Gimnastın hərəkət üzrə ümumi xalının qiymətləndirilməsi:

18.2.7.1 Hər bir hərəkət ayrı qiymətləndirilir və hər hərəkət üzrə icra və çətinlik üçün ümumi qiymət hesablanır.

18.2.7.2 Protokolçular üç ədəd "E" qiyməti (icra) və "D" qiymətini (çətinlik) cəmləyərək və §6.4,§6.6, §12.2, §13.2, §13.4 və §16.3-ə uyğun olaraq cərimələri çıxaraq xalı hesablayır.

**Xal = E (maks. 30 bal) + D - Cərimələr**

18.2.8 Bütün qiymətlər vergüldən sonra 3 (üç) rəqəmə qədər yuvarlaqlaşdırılır. Həmin yuvarlaqlaşdırma yalnız gimnastın hərəkət üzrə ümumi xalı münasibətində həyata keçirilir.

18.2.9 Baş Protokolçu nəticələr siyahısında ümumi qiymətləri yoxlamalıdır.

18.2.10 Hakimlər briqadasının sədri yekun balların etibarlılığının müəyyən edilməsinə görə məsuliyyət daşıyır.

# C. HAKİMLƏR BRİQADASI

## 17. HAKİMLƏR BRİQADASI

19.1 Heyət:

| | | |
|---|---|---|
| 19.1.1 | hakimlər briqadasının sədri | 1 |
| 19.2.1 | İcra üzrə hakimlər (1-5 saylı hakimlər) | 5 |
| 19.3.1 | Çətinlik üzrə hakimlər (6 və 7-ci hakimlər) | 2 |
| 19.4.1 | **Ümumi** | **8** |

19.2 1-7 saylı hakimlər ikili mini batutun kənarından ən azı 5 (beş) metr aralıda yerləşən 50 sm-lik podiumda ayrı oturmalıdır.

19.3 Vəzifələrini qənaətbəxş şəkildə yerinə yetirməyən Hakim əvəzlənməlidir. Bu barədə qərarı ali hakimlər briqadası verir. Ali hakimlər briqadası olmadıqda qərarı hakimlər briqadasının sədri verir. Bax TR 1-ci Bölmə 7.8.1 saylı Reqlament və YQ §11.2.

19.3.1 İcra üzrə hakim əvəzlənərsə, hakimlər briqadasının sədri həmin hakimin verdiyi qiymətlərin qalan hakimlərin qiymətlərinin orta dəyəri ilə əvəzlənməsi barədə qərar verə bilər.

## 18. HAKİMLƏR BRİQADASININ SƏDRİNİN VƏZİFƏLƏRİ

20.1 Alətlərə nəzarət.
20.2 Hakimlərin iclasını və qiymətləndirmə sınağını təşkil etmək (həmçinin bax TR 1-ci Bölmə 7.9 saylı Reqlament).
20.3 Bütün hakimləri, sığortalayan şəxsləri və protokolçuları yerləşdirmək və onlara nəzarət etmək.
20.4 Yarışları idarə etmək.
20.5 Yarışın hakimlər briqadasını çağırmaq.
20.6 İkinci cəhdə icazə verilib-verilməyəcəyinə qərar vermək (bax §5.4).
20.7 Gimnastın geyimi barədə qərar vermək (bax §6).
20.8 Sığortalayan şəxs tərəfindən göstərilmiş hər hansı köməkliyin zəruri olub-olmadığına qərar vermək (bax TR 4-cü Bölmə 5.3 saylı Reqlament).
20.9 Hərəkət dayandırılmışdırsa, §16-ya uyğun olaraq maksimal qiyməti bildirmək.
20.10 Enmə üzrə aşağıdakı cərimələri tətbiq etmək:

| | | |
|---|---|---|
| 20.10.1* | B zonasının içinə enmə (bax II Hissə - Münsiflik üzrə təlimat) | 0,9 xal |
| 20.10.2* | C zonasının içinə enmə (bax II Hissə - Münsiflik üzrə təlimat) | 1,5 xal |
| 20.10.3 | A zonasından B və ya C zonasına, yaxud da B zonasından C zonasına çıxmaq | 0,3 xal |

20.11 Hakim dərhal qiymət vermədikdə bununla bağlı qərar vermək (bax §18.2.4).
20.12 §6.4, §6.6, §12.2, §13.2, §16.3 və §20.10-a uyğun olaraq cərimələr barəsində qərar vermək.
20.13 Bütün xallar, hesablamalar və yekun nəticələri yoxlamaq, onlara nəzarət etmək və aşkar hesablama səhvləri müəyyən edildikdə müdaxilə etmək.
20.14* Federasiya rəsmisi və ya hakim tərəfindən çətinliyin hesablanmasında buraxılmış aşkar səhvlər və ya icra texnikası xallarında yol verilmiş ədədi səhvlər ilə bağlı müraciət edildikdə mərhələ bitmədən qərar vermək (bax II Hissə, 1 A).

## 19. İCRA ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ (1-5 SAYLI hakimlər)

21.1 §21.3-ə uyğun olaraq icranı 0,0 - 0.5 xal diapazonunda qiymətləndirmək və cərimələri cərimə vərəqələrinə daxil etmək.
21.2 Cərimələri hakimlər briqadasının sədri tərəfindən müəyyən edilmiş maksimal qiymətdən çıxmaq (bax §16.4).
21.3 İcra üzrə cərimələr:

| | | |
|---|---|---|
| 21.3.1* | hər element üzrə koordinasiya, hündürlük və nəzarətin pozulması | 0.1-0.5 xal |
| 21.3.2* | sıçrama elementi başa çatdırıldıqdan sonra tarazlığın itirilməsi (yalnız daha ciddi səhvə görə cərimə verilir): | |
| 21.3.2.1 | dik vəziyyətdə dayanaraq təxminən üç (3) saniyə ərzində tarazlığı saxlaya bilməmə | 0.1-0.3 xal |
| 21.3.2.2 | endikdən sonra, İMB və ya enmə zonasına / sahəsinə bir və ya hər iki əl ilə toxunma | 0,5 xal |
| 21.3.2.3 | endikdən sonra diz üstə düşmək və ya enmə sahəsinə dizlər, qarın, kürək ilə toxunmaq və ya onun üzərinə oturmaq | 1,0 xal |
| 21.3.2.4 | endikdən sonra sığortaçı tərəfindən köməyin göstərilməsi | 1,0 xal |
| 21.3.2.5 | enmə sahəsinə endikdən sonra sahədən çıxma, bədənin hər hansı hissəsi ilə enmə sahəsi xaricində toxunuş döşəməyə toxunma, yaxud da İMB üzərinə yıxılma | 1,0 xal |

21.4 İcra texnikası üzrə qiyməti göstərmək.

***(həmçinin bax Münsiflik üzrə təlimat)***


**** = II Hissə - Hakimlik üzrə***

## 20. ÇƏTİNLİK ÜZRƏ HAKİMLƏRİN VƏZİFƏLƏRİ (6 VƏ 7-Cİ HAKİMLƏR)

22.1 Yarış kartlarını yarış başlamazdan ən azı iki (2) saat əvvəl baş protokolçudan yığmaq.

22.2 Yarış kartlarına daxil edilmiş elementləri və çətinlik dəyərlərini yoxlamaq.

22.3 Yerinə yetirilmiş bütün elementləri, onların çətinlik dəyərini müəyyən etmək və yarış kartına daxil etmək (BGF hesablama sisteminə uyğun qaydada).

22.3.1 Gimnast çətinliyi yarış kartında yazılandan fərqli olan element(lər)i yerinə yetirərsə, bunu açıq şəkildə bildirmək və hərəkətlərdə edilmiş bütün dəyişiklik və təkrarları qeydə almaq.

22.4 Çətinlik balını göstərmək.

Lozanna şəhəri, May 20216ci il

Beynəlxalq Gimnastika Federasiyası

| | | |
|---|---|---|
| Bruno Qrandi | Andre F. Qayxbuxler | Horst Küntse |
| Prezident | Baş katib | Batut TK Prezidenti |

# II Hissə - HAKİMLİK ÜZRƏ GÖSTƏRİŞLƏR

1.1.2017 tarixindən etibarlıdır

## 1. YARIŞ QAYDALARININ TƏFSİRİ

***QEYD:** Bu təfsirlər BGF BAT-TK tərəfindən təlimat və aydınlıq üçün hazırlanmışdır. Qaydaların təfsiri üzrə mübahisə yarandıqda yekun qərarı hakimlər briqadasının sədri verir. 2-ci Hissədə təqdim olunmuş sxemlər yalnız təlimat məqsədi daşıyır və hərfən başa düşülməməlidir.*

## A. BATUT, TAMBLİNQ VƏ İKİLİ MİNİ BATUT YARIŞ QAYDALARININ TƏFSİRİ

### 1.2.2 - Çıxış etmə qrupları

Hər qrup üzrə maksimal gimnast sayı on altıdır (16), BAT-TK hər qrupda səkkiz (8) ilə on iki (12) arasında gimnastın olmasını tövsiyə edir.

### 6 - Geyim

Saçlar qısa və ya səliqəli şəkildə yığılmış olmalıdır. Açıq saçlar gimnast üçün risk təşkil edə bilər. Bu, təhlükəsizlik problemlərinə səbəb ola və BAT YQ §16.1.6 və TAM YQ §16.1.4-ə əsasən dayandırılma ilə nəticələnə bilər.

Trikonun / kombinezonun boyun hissəsinin önü və arxası müvafiq şəkildə olmalıdır, kəsiyin olması ixtiyaridir, ancaq o, döş sümüyünün yarısını keçməməli və kürək sümüyünün alt xəttindən aşağı enməməlidir. Trikolar / kombinezonlar qollu və ya qolsuz ola bilər; çiyin qayışının eni azı 2 sm olmalıdır. Trikonun aşağı hissəsindəki (maksimal) kəsik çanaq-bud oynağını keçməməlidir. Trikonun bud çevrəsi üzrə uzunluğu ombanı 2 sm-dən çox keçməməlidir. Qismən naxışlı tüldən ibarət olan trikolar astarlı olmalıdır (gövdədən sinəyə doğru).

Batut yarışlarının ilkin turlarında komanda üzvləri eyni rəngli olmaq şərtilə istər şort, istərsə də gimnast şalvarı geyinə bilər. Lakin final turunda bütün üzvlər eyni geyimdə, ya şort, ya da gimnast şalvarında olmalıdır. Sinxron yarış iştirakçılarının hər ikisi ya şort, ya da gimnast şalvarı geyinməlidir.

### 7.3 - Yarış kartları

Hərəkət tam yerinə yetirilməzsə, əskik tələb üzrə cərimə yalnız həmin tələbin qalan elementlərdə yerinə yetirilə bilməyəcəyi aşkar olduqda tətbiq edilir.

### 14 - Tələb olunan vəziyyətlər

*Ümumi mülahizələr:*

Element əsnasında bədənin formasını (qruplaşma, bükülmə və ya düz) müəyyən etmək məqsədilə çətinlik hakimləri bir qayda olaraq elementin orta fazasında bədənin aldığı ən aşağı çətinlikli vəziyyəti qiymətləndirir (düz vəziyyət ən çətin, qruplaşma vəziyyəti isə çətinliyi ən aşağı olan vəziyyət hesab olunur). Çoxqat saltoların yerinə yetirilməsi halında bu Hakimlik Göstərişlərində yer alan §15-ə istinad edin (aşağıda).

### 14.5 - Qollar

Vinti dayandırmaq məqsədilə qolların bədəndən aralanmasına icazə verilir. Bədən ilə qollar arasındakı maksimal bucaq aşağıdakı kimi olmalıdır:

| | |
|---|---|
| ½ vintli salto, tam vintli salto, ½ vintli çoxqat salto | 45° |
| 1-dən artıq vint və digər çoxvintli saltolar | 90° |

## 15 - Təkrarlar

Element müxtəlif vəziyyətlərdə yerinə yetirildikdə onun təkrar olub-olmadığına qərar vermək üçün iki (2) amil nəzərə alınır - vintlərin sayı və fazaları ilə saltoların sayı.

1. *0°-180° arası vintlər*

Salto dərəcəsi ən azı 270° olduqda üç vəziyyət də mümkündür

***Məsələn:***

| | | |
|---|---|---|
| Arxaya doğru ¾ salto | (V=0° S=270°) | 3 vəziyyət ola bilər |
| Ayaq üzərinə ½ vint | (V=180° S=90°) | 1 vəziyyət ola bilər |
| ½ vintli önə doğru 1¼ salto | (V=180° S=450°) | 3 vəziyyət ola bilər |

2. *360° və daha böyük vintlər*

Salto dərəcəsi ən azı 450° olduqda üç vəziyyət də mümkündür

***Misal:***

| | | |
|---|---|---|
| 1½ vintli önə doğru 1¼ salto | (V=540° S=450°) | 1 vəziyyət ola bilər |
| 1/1 vintli arxaya doğru 1/1 salto | (V=360° S=360°) | 1 vəziyyət ola bilər |
| 2/1 vintli arxaya doğru 2/1 salto | (V=720° S=720°) | 3 vəziyyət ola bilər |

3. *Çoxqat saltolar*

Çoxqat saltolarda gimnastlar hər element üzrə yalnız bir bədən vəziyyəti ala bilər: qruplaşma, bükülmə və ya düz. Çətinlik hakimləri elementi idmançının qəbul etdiyi çətinlik dərəcəsi ən aşağı olan bədən vəziyyəti əsasında qiymətləndirir, məsələn:

*½ vintli önə doğru üçlü salto:* Birinci salto qruplaşmış, ikincisi isə bükülmüş vəziyyətdə yerinə yetirilmişdirsə, çətinlik hakimləri elementi bükülmüş vəziyyətdə yerinə yetirilmiş kimi qiymətləndirir.

**QEYD:** *Sinxron* yarışlarda bədənin aldığı vəziyyəti qiymətləndirərkən də eyni meyarlar (vintlərin sayı / saltoların sayı) tətbiq olunur. Ayaq üzərinə ½ vint elementində yalnız bir bədən vəziyyəti qəbul edildiyinə görə cütlük həmin elementi müxtəlif vəziyyətlərdə yerinə yetirə bilər və bu hərəkətin dayandırılması hesab edilmir. ½ vintli salto elementində isə yuxarıdakı meyarlar çərçivəsində bir neçə vəziyyət mümkündür, buna görə də hər iki gimnast eyni bədən vəziyyətini almalıdır, əks halda elementlər müxtəlif, hərəkət isə dayandırılmış hesab edilir (bax Batut YQ §16.1.6).

*4. Saltonun müxtəlif fazalarında vintlər*

- 540° və daha aşağı dərəcəli saltolarda yalnız bir (1) faza qiymətləndirilir və əgər element müxtəlif bədən vəziyyətləri ilə bağlı yuxarıda qeyd olunmuş meyarlara cavab vermirsə, o, təkrar hesab edilir.
- 630°-900° arası saltolar iki (2) fazaya ayrılır, erkən faza və gec faza.
- Düz **və ya** bükülmüş vəziyyətdə eyni vint sayı ilə aşkar fasilə **və ya** vəziyyət dəyişikliyi olmadan yerinə yetirilən bütün çoxqat vintli ikili saltolar bir dəfədən çox istifadə edildikdə təkrar sayılır.

## 17 - Dayanma / Hərəkətin başa çatdırılması

Hər iki ayaq üzərinə enmə ayağın altını nəzərdə tutur.

Gimnast enmə vaxtı ayaqları ilə tor / cığır / zona / sahəyə toxunar, lakin əyani olaraq enməyə hazırlaşdığını nümayiş etdirməz və eyni hərəkət əsnasına üz, diz, əl və diz, qarın və ya kürək üstə yıxılarsa, element qiymətləndirilmir. Yıxılmaya görə əlavə cərimə xalı çıxılmır.

## 18.1 - Çətinlik

Çətinlik hakimləri arasında fikir ayrılığı yarandıqda qərarı hakimlər briqadasının sədri verir.

Tək saltolarda çətinlik üzrə hakimlər elementin vəziyyətini qalxmanın əvvəlindən enmədən əvvəlki 135°-lik hissəyə qədər qiymətləndirməlidir.

Çoxlu saltolarda çətinlik hakimləri elementin qalxmadan sonrakı vəziyyətini aşağıdakı qaydada qiymətləndirməlidir:

| | |
|---|---|
| Arxaya doğru salto: | qalxdıqdan 90° sonrakı fazadan başlayaraq enmədən əvvəlki 180°-lik hissəyə qədər |
| Önə doğru salto: | qalxdıqdan 135° sonrakı fazadan başlayaraq enmədən əvvəlki 180°-lik hissəyə qədər |

Enmə vaxtı ayaqların vəziyyəti nəzərə alınmalıdır, ayaqların 1/4 vintdən (90°-dən) artıq fırlanması 1/2 vint sayılır, ayaqların 3/4 vintdən (270°-dən) artıq fırlanması 1/1 vint sayılır və s.

## 20.15 (BAT/TAM) / 20.14 (İMB) - Hakimlər briqadasının sədri vəzifələri

Xalların hesablanması vaxtı aşkar səhvlərə yol verildikdə həmin səhvi aşkarlayan hakim, gimnast, məşqçi və ya digər rəsmi şəxs mərhələ bitməmişdən əvvəl peşəkar və xoş niyyətli şəkildə hakimlər briqadasının sədrinə müraciət etməlidir ki, hakimlər heyətinin sədri vəziyyətə növbəti mərhələ başlamadan əvvəl aydınlıq gətirə bilsin.

## 21.3.1 - İcra texnikasının qiymətləndirilməsi

**BATUT Və İMB**

**Fırlanma və ya uçuş fazası**

• Əllərin vəziyyəti 0,0-0,1 xal
• Ayaqların vəziyyəti 0,0-0,2 xal
(o cümlədən dizlərin bükülməsi, barmaqların uzadılmaması, ayaqların birlikdə olmaması)
• Bədənin vəziyyəti 0,0-0,2 xal

**Açılma və enmə fazası**

• Saltonun açılması və düz vəziyyətin saxlanılması 0,0-0,3 xal
(o cümlədən 90°-yə (saat əqrəbinin 3 vəziyyətinə) çatdırılmamış vint fırlanması)
• Açılmama 0,3 xal

Bu cərimələrin istənilən kombinasiyası ümumilikdə 0,5 xala qədər birləşdirilə bilər.

**Üfüqi yerdəyişmə**

• (yalnız batut yarışlarında) 0,0-0,3 xal




**TAMBLİNQ**

**Fırlanma və ya uçuş fazası**

• Əllərin vəziyyəti 0,0-0,1 xal
• Ayaqların vəziyyəti 0,0-0,2 xal
(o cümlədən dizlərin bükülməsi, barmaqların uzadılmaması, ayaqların birlikdə olmaması)
• Bədənin vəziyyəti 0,0-0,2 xal

**Açılma və enmə fazası**

- Saltonun açılması və düz vəziyyətin saxlanılması 0,0-0,3 xal
  (o cümlədən 90°-yə (saat əqrəbinin 3 vəziyyətinə) çatdırılmamış vint fırlanması)
- Açılmama 0,3 xal
- Çoxqat vintlər və üçlü saltolar üçün istisnalar 0,2 xal

**Hərəkət vaxtı**

- Sürət itkisi 0,0-0,2 xal
- Mərkəz oxundan kənara çıxma 0,0-0,1 xal

Bu cərimələr istənilən şəkildə cəmi 0,5 xala qədər birləşdirilə bilər.

### 21.3.2 - Enmə cərimələri

Dayandırılmış hərəkətlərə görə enmə cərimələri tətbiq edilmir.

## B. BATUT ÜZRƏ YARIŞ QAYDALARININ TƏFSİRİ

### Ümumi vəzifələr

Yalnız hər iki ayaq, qarın, kürək üzərinə və ya oturma vəziyyətinə enməklə başa çatan elementlər hesaba alınır.

### 16.1.1 - Tək ayaq üzərinə enmə

Tək ayaq üzərinə enməklə başa çatan element element hesab edilmir və bu cür enmədən sonra hərəkət dayandırılır. Bu qayda yalnız ayaqlar ilə ikili təmas edildikdə tətbiq olunur. Əgər qarın və ya kürək üzərinə enmə əsnasında ayaqlar ardıcıl olaraq tora toxunarsa bu dayanma təşkil etmir.

### 17.3 - Eyni hərəkəti yerinə yetirməmə (sıçrayış və ya dik vəziyyətdə dayanma)

Gimnastlardan birinin bir dəfəlik tam şəkildə dayanması, digərinin isə qismən dayanması halı bu qaydanın pozulması kimi qiymətləndirilmir, çünki qismən dayanma sıçrayış hesab olunmur.

### 21.3.2 - Hərəkət bitdikdən sonra tarazlığın saxlanılmaması.

Sıçrayış vaxtı nəzarətsiz hərəkətlər tarazlıq itkisinin bir hissəsi kimi qiymətləndirilməlidir.

Əgər gimnast dik vəziyyətdə dayanmağı unudar və endikdən sonra təxminən üç (3) saniyə ərzində toru tərk edərsə, icra texnikası hakimləri bunun səbəbi barədə qərar verməlidir: qərar tarazlıq itkisi olarsa, 0,5 ilə 1,0 arası, gimnastın dik dayanmağı unutduğuna dair qərar verilərsə, 0,2 xallıq cərimə tətbiq edilir.

**Sıçrayış üzrə cərimə nümunəsi (maksimal olaraq 0,1 xal):**

- Sıçrayışdan sonra uçuş vaxtı nəzarətsiz hərəkətlər 0,1 xal

**Enmə üzrə cərimə nümunəsi (maksimal olaraq 0,2 xal):**

- Tor üzərində dayanarkən əl hərəkətləri (məsələn dairəvi hərəkətlər) 0,1 xal
- Addım(lar) və ya sıçrayış(lar) 0,1 – 0,2 xal
- Dik dayanmama 0,1 xal
- Dayanarkən ayaqların ayrı və ya çiyin enindən daha aralı olması 0,1 xal
- Tam tarazlığa nail olmadan hakimlərə tərəf dönmə 0,1 xal

*Diqqət*

- Bu cərimə addımın və ya sıçrayışın uzunluğundan yox, sayından asılıdır.
- Addım atılmışdırsa (0,1 xal cərimə), eyni ayaqla sabit dik vəziyyətə qayıtma addım üzrə cərimə hesab **edilmir**.
- Sıçrayış və enmə vaxtı tarazlıq itkisi üzrə tətbiq olunan cərimələr 0,3 xaldan çox ola bilməz.

**21.3.2.6 - Əlavə elementlər**

Gimnast yekun enmədən (10-cu elementdən) sonra torun hərəkətini dayandıra və ya ona nəzarət edə bilmədiyi üçün salto və ya "sürətlənmə" saltosu və s. yerinə yetirməyə məcbur qalarsa, 1,0 xallıq cərimə tətbiq edilir.

# C. TAMBLİNQ YARIŞ QAYDALARININ TƏFSİRİ

**18.1 - Çətinlik - yana doğru saltolar**
Yana doğru saltoların çətinliyi hesablanarkən salto vaxtı yerinə yetirilən və 180°-dən böyük olmayan vintlər nəzərə alınmamalıdır.

**21.3.2 - Enmə zonası - tərif**
Xəttin xarici kənarı tamblinq cığırı və enmə zonasının hüdudunu göstərir. Əgər bədənin istənilən hissəsi bu hüdudun kənarında toxunuş edərsə, bu, §21.3-ə uyğun olaraq çıxılma və ya §20.10-a uyğun olaraq cərimə ilə nəticələnəcəkdir.

**21.3.2 - Hərəkət bitdikdən sonra tarazlığın saxlanılmaması.**
Əgər gimnast dik vəziyyətdə dayanmağı unudar və endikdən sonra təxminən üç (3) saniyə ərzində toru tərk edərsə, icra texnikası hakimləri bunun səbəbi barədə qərar verməlidir: qərar tarazlıq itkisi olarsa, 1,0 xal, gimnastın dik dayanmağı unutduğuna dair qərar verilərsə 0,3 xal cərimə tətbiq edilir.

**Çıxılma nümunələri:**

- Dayanarkən əl hərəkətləri (məsələn dairəvi hərəkətlər) 0,1 xal
- Addım(lar) və ya sıçrayış(lar) 0,1 – 0,3 xal
- Dik dayanmama 0,1 xal
- Dayanarkən ayaqların ayrı və ya çiyin enindən daha aralı olması 0,1 xal
- Tam tarazlığa nail olmadan hakimlərə tərəf dönmə 0,1 xal

*Diqqət*

- Bu cərimə addımın və ya sıçrayışın uzunluğundan yox, sayından asılıdır.
- Addım atılmışdırsa (0,1 xal və ya daha böyük cərimə), eyni ayaqla sabit dik vəziyyətə qayıtma addım üzrə cərimə hesab **edilmir**.

**21.3.2.5 - Əlavə elementlər**

Gimnast yekun enmədən (8-ci elementdən) sonra cığırın səkdirməsini dayandıra və ya ona nəzarət edə bilmədiyi üçün salto və ya "sürətlənmə" saltosu və s. yerinə yetirməyə məcbur qalarsa 1,0 ballıq cərimə tətbiq edilir.

# D. İMB YARIŞ QAYDALARININ TƏFSİRİ

**Qalxma və sıçrama zonalarının ümumi tərifi:**

- Orta zona **(3)**

- Sonluq göstəriciləri **(4+5)**
- Qalxma zonası, torun orta zonası da daxil olmaqla, bu zonanın önündəki hissəsi kimi müəyyən edilir **(4+1+3)**
- Yüksəlmə / sıçrama zonası, torun orta zonası da daxil olmaqla, bu zonanın arxasındakı hissəsi kimi müəyyən edilir.
  **(3+2+5)**




### 5.1 və 5.2 - Qalxma, Yüksəlmə, Sıçrama

- Düz tullanaraq qalxma və ya qalxma elementi qalxma zonasından həyata keçirilməli və yüksəlmə / sıçrama zonasına enərək bitməlidir.
- Tullanma elementi yüksəlmə / sıçrama zonasında başlamalı və eyni zonaya enməklə bitməlidir.
- Bunlardan hər hansı biri (qalxma və ya yüksəlmə elementi) qeyd olunduğu kimi düzgün zonada yerinə yetirilməzsə, hərəkət yerinə yetirilməmiş hesab olunur (0 xal alır).
- Əvvəlcə qalxma və ya yüksəlmə elementi yerinə yetirilməmişdirsə, sıçrama elementi etibarsız sayılır.

***Misal:*** Sıçrama elementində nələrin baş verdiyindən (məsələn, dayanma, İMB-nin üzərinə düşmə, hər iki ayaqla enmə zonasına enməmə, düz tullanma) asılı olmayaraq, İMB-nin müəyyən edilmiş zonalarında başdan sona qədər düzgün yerinə yetirilmiş qalxma və ya yüksəlmə elementləri həmişə element kimi qiymətləndirilir.

### 16.1.6 - İkili mini batuta toxunma

İMB torunun dar olması səbəbiylə gimnast, ayaqlarının müvafiq qaydada tora enməsinə baxmayaraq, bədəninin müəyyən hissəsi ilə tordan başqa bir yerə toxunuş edə bilər - bu halda §16.3 tətbiq edilir. Lakin ayaqlar aşkar şəkildə tordan kənara enərsə (çərçivə / altlıq və s.), §16.1.6-ya uyğun olaraq bu hal dayanma təşkil edəcəkdir.

### 21.3.2 - Enmə zonası - tərif

Zonanın / sahənin xarici kənarı İMB-nin enmə zonasını / sahəsini göstərir. Əgər bədənin istənilən hissəsi bu hüdudun kənarında toxunuş edərsə, bu, §21.3-ə uyğun olaraq çıxılma və ya §20.10-a uyğun olaraq cərimə ilə nəticələnəcəkdir.

### 21.3.2 - Hərəkət bitdikdən sonra tarazlığın saxlanılmaması.

Əgər gimnast dik vəziyyətdə dayanmağı unudar və endikdən sonra təxminən üç (3) saniyə ərzində toru tərk edərsə, icra texnikası hakimləri bunun səbəbi barədə qərar verməlidir: qərar tarazlıq itkisi olarsa, 1,0 xal, gimnastın dik dayanmağı unutduğuna dair qərar verilərsə, 0,3 xal cərimə tətbiq edilir.

**Çıxılma nümunələri:**

| | |
|---|---|
| • Dayanarkən əl hərəkətləri (məsələn dairəvi hərəkətlər) | 0,1 xal |
| • Addım(lar) və ya sıçrayış(lar) | 0,1 – 0,3 xal |
| • Dik dayanmama | 0,1 xal |
| • Dayanarkən ayaqların ayrı və ya çiyin enindən daha aralı olması | 0,1 xal |
| • Tam tarazlığa nail olmadan hakimlərə tərəf dönmə | 0,1 xal |

*Diqqət*

- Bu cərimə addımın və ya sıçrayışın uzunluğundan yox, sayından asılıdır.

- Addım atılmışdırsa (0,1 xal və ya daha böyük cərimə), eyni ayaqla sabit dik vəziyyətə qayıtma addım üzrə cərimə hesab **edilmir**.

**21.4.1-21.4.3 - Enmə**




Lozanna şəhəri, may 2021-ci il

**Beynəlxalq Gimnastika Federasiyası**

Horst Küntse
Batut TK Prezidenti

## 2. SXEMLƏR (bu sxemlər yalnız təlimat məqsədi daşıyır və hərfən başa düşülməməlidir)



# SALTODA AÇILMA

## AYAQLAR VƏ YA QARIN ÜZƏRİNƏ ENMƏ













## KÜRƏK ÜZƏRİNƏ ENMƏ












# SALTODA AÇILMADAN SONRA BÜKÜLMƏ

**AYAQLAR VƏ YA QARIN ÜZƏRİNƏ ENMƏ** | **KÜRƏK ÜZƏRİNƏ ENMƏ**



# SALTODA AÇILMADAN SONRA QRUPLAŞMA

## AYAQLAR VƏ YA QARIN ÜZƏRİNƏ ENMƏ










## KÜRƏK ÜZƏRİNƏ ENMƏ









# VİNTİN SONUNDA BƏDƏNİN VƏZİYYƏTİ







# VİNT FIRLANMASINI DAYANDIRARKƏN ƏLLƏRİN VƏZİYYƏTİ

## ½ VİNTLİ SALTO, TAM VİNTLİ SALTO, ½ VİNTLİ İKİLİ SALTO




Cərimə tətbiq edilmir




0,1 xal cərimə

## 1-DƏN ARTIQ VİNTLİ TƏK SALTO VƏ BÜTÜN DİGƏR ÇOX VİNTLİ SALTOLAR




Cərimə tətbiq edilmir




0,1 xal cərimə

# ÇOXQAT SALTO YERİNƏ YETİRMƏK ÜÇÜN QALXMA

## ARXAYA DOĞRU




## ÖNƏ DOĞRU



## ÜFÜQİ YERDƏYİŞMƏ



## BÜKÜLMƏ VƏ AYAQLAR ARALI BÜKÜLMƏ VƏZİYYƏTİ

### AYAQLARIN ÜFÜQƏ NİSBƏTƏN DƏRƏCƏSİ




## MƏRKƏZDƏN YAYINMA - TAMBLİNQ



# III Hissə - ƏLAVƏLƏR

1.1.2017 tarixindən etibarlıdır

## A. BATUT ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI PRİNSİPLƏRİ

| Fırlanma | | Dəyər | Bonus | *Misal* | |
|---|---|---|---|---|---|
| ¼ salto | | 0,1 | --- | *arxaya doğru ¾* | ***= 0,3*** |
| tam salto (360°) | | | 0,1 | *Arxaya doğru qrupl. salto* | ***= 0,5*** |
| tam üçlü salto (1080°) | | 1,6 | | *Arxaya doğru qrupl. üçlü salto* | ***= 1,6*** |
| tam dördlü salto (1440°) | | 2,2 | | *Arxaya doğru dördlü salto* | ***= 2,2*** |
| ½ vint | **Vəzifə** | 0,1 | --- | *Arxaya doğru 1/1 vint (0,1+0,2)* | ***= 0,3*** |
| vintli 0°- 630° salto | **<** və ya **/** | | --- | *Düz vəziyyətdə ½ vintli salto* | ***= 0,6*** |
| vintsiz 360°- 630° salto | **<** və ya **/** | | 0,1 | *1 ¾ bükülmüş vəziyyətdə [0,8+0,1]* | ***= 0,9*** |
| vintli və ya vintsiz 720° - 990° s. | **<** və ya **/** | | 0,2 | *2 ¾ bükülmüş vəziyyətdə [1,3+0,2]* | ***= 1,5*** |
| vintli və ya vintsiz 1080° - 1350° s. | **<** və ya **/** | | 0,3 | *½ vintli üçlü salto bük. [1,6+0,1+0,3]* | ***= 2,0*** |
| vintli və ya vintsiz 1440° salto | **<** və ya **/** | | 0,4 | *½ vintli dördlü salto bük.* | ***= 2,7*** |

## B. BATUT ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI – NÜMUNƏLƏR

| Element | | < | / |
|---|---|---|---|
| Arxaya və ya önə doğru ¾ | 3 – | 0,3 | 0,3 |
| Arxaya və ya önə doğru salto | 4 – | 0,5 | 0,6 |
| ½ vintli salto | 4 1 | 0,6 | 0,6 |
| Qarından ¼ salto | 5 – | 0,6 | 0,7 |
| ½ vintli 1¼ salto | 5 1 | 0,7 | 0,7 |
| Vintli salto | 4 2 | 0,7 | |
| 1½ vintli salto | 4 3 | 0,8 | |
| 1¾ salto | 7 – – | 0,8 | 0,9 |
| 2 vintli salto | 4 4 | 0,9 | |
| 1½ vintli 1¼ salto | 5 3 | 0,9 | |
| Arxaya doğru 2 salto | 8 – – | 1,0 | 1,2 |
| ½ vintli 2 salto | 8 – 1 | 1,1 | 1,3 |
| vintli 2 salto | 8 1 1 | 1,2 | 1,4 |
| vintli 2 salto | 8 – 2 | 1,2 | 1,4 |
| 2 ¾ salto | 11 – – – | 1,3 | 1,5 |
| 1½ vintli 2 salto | 8 – 3 | 1,3 | 1,5 |
| 1½ vintli 2 salto | 8 2 1 | 1,3 | 1,5 |

| Element | | < | / |
|---|---|---|---|
| 2 vintli 2 salto | 8 2 2 | 1,4 | 1,6 |
| 2 vintli 2 salto | 8 1 3 | 1,4 | 1,6 |
| 2½ vintli 2 salto | 8 – 5 | 1,5 | 1,7 |
| 2½ vintli 2 salto | 8 2 3 | 1,5 | 1,7 |
| Arxaya doğru 3 salto | 12 – – – | 1,6 | 1,9 |
| 3 vintli 2 salto | 8 1 5 | 1,6 | 1,8 |
| 3 vintli 2 salto | 8 2 4 | 1,6 | 1,8 |
| ½ vintli 3 salto | 12 – – 1 | 1,7 | 2,0 |
| 3½ vintli 2 salto | 8 2 5 | 1,7 | 1,9 |
| 1 vintli 3 salto | 12 1 – 1 | 1,8 | 2.1 |
| 1½ vintli 3 salto | 12 2 – 1 | 1,9 | 2,2 |
| 1½ vintli 3 salto | 12 – – 3 | 1,9 | 2,2 |
| 2 vintli 3 salto | 12 1 – 3 | 2,0 | 2,3 |
| 2½ vintli 3 salto | 12 2 – 3 | 2.1 | 2.4 |
| 3 vintli 3 salto | 12 2 2 2 | 2,2 | 2.5 |
| ½ vintli 4 salto | 16 – – – 1 | 2,3 | 2,7 |
| 1 vintli 4 salto | 16 1 – – 1 | 2.4 | 2,8 |

## C. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI (TAM YQ §18.1-ə istinad)

**İkili saltolar**
Vint - İkili vint (düz)

*Birinci salto:*

| | |
|---|---|
| Salto dəyəri | 0,5 |
| Vint dəyəri (birinci vint) | 0,2 |
| | 0,7 |

*İkinci salto:*

| | |
|---|---|
| Salto dəyəri | 0,5 |
| Vint dəyəri (ikinci və üçüncü vint) | 1,0 |
| | 1,5 |
| Vəziyyət (düz) | 0,2 |
| Elementin ümumi çətinliyi | 2.4 |
| Vurulsun 2 | = **4,8** |

**Üçlü saltolar**
Arxaya doğru üçlü (bük.)

*Birinci salto:*
Salto dəyəri 0,5

*İkinci salto:*
Salto dəyəri 0,5

*Üçüncü salto:*
Salto dəyəri 0,5

| | |
|---|---|
| Vəziyyət (bük.) | 0,2 |
| Elementin ümumi çətinliyi | 1,7 |
| Vurulsun 3 | = **5,1** |

## D. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI – VƏZİYYƏT BONUSLARI

| Bədənin vəziyyəti | Tək | İkili | Üçlü |
|---|---|---|---|
| Qruplaşmış | 0,0 | 0,0 | 0,0 |
| Bükülmüş | 0,1 | 0,1 | 0,2 |
| Düz | 0,1 | 0,2 | 0,4 |

## E. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI – VİNTLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

| Vintlər | Tək | İkili | Üçlü |
|---|---|---|---|
| Yarım vint | 0,2 | 0,1 | 0,3 |
| Birinci vint | 0,4 | 0,2 | 0,6 |
| İkinci vint | 0,4 | 0,4 | 0,8 |
| Üçüncü vint | 0,6 | 0,6 | 0,8 |
| Dördüncü vint | 0,8 | 0,8 | 0,8 |

Məsələn, arxaya doğru bir (1) üç vintli salto (yalnız düz vəziyyət):

- Arxaya doğru salto 0,5
- Birinci vint 0,4
- İkinci vint 0,4
- Üçüncü vint 0,6

**ÜMUMİ 1,9**

Məsələn, önə doğru bir (1) iki vintli salto (yalnız düz vəziyyət):

- Önə doğru salto 0,6
- Birinci vint 0,4
- İkinci vint 0,4

**ÜMUMİ 1,4**

# F. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK – NÜMUNƏLƏR

| Element | | Çətinlik |
|---|---|---|
| Rondat | ( | 0,1 |
| Önə doğru aşma | h | 0,1 |
| Arxaya doğru aşma | f | 0,1 |
| Sürətlənmə saltosu | ^ | 0,2 |
| Arxaya doğru salto | – o | 0,5 |
| Arxaya doğru salto | – < | 0,6 |
| Arxaya doğru salto | – / | 0,6 |
| Önə doğru salto | . – o | 0,6 |
| Önə doğru salto | . – < | 0,7 |
| Yana doğru salto | – o x | 0,5 |
| Yana doğru salto | – < x | 0,6 |
| ½ vintli arxaya doğru salto | 1. / | 0,7 |
| ½ vintli salto | .1 | 0,8 |
| 1/1 vintli arxaya doğru | 2. | 0,9 |
| 1/1 vintli önə doğru salto | .2 | 1,0 |
| 1½ vintli arxaya doğru | 3. | 1,1 |
| 1½ vintli önə doğru salto | .3 | 1,2 |
| 2/1 vintli arxaya doğru | 4. | 1,3 |
| 2/1 vintli önə doğru salto | .4 | 1,4 |
| 2½ vintli arxaya doğru | 5. | 1,6 |
| 3/1 vintli arxaya doğru | 6. | 1,9 |
| 3½ vintli arxaya doğru | 7. | 2,3 |
| 4 vintli arxaya doğru salto | 8. | 2,7 |
| Arxaya doğru 2 salto | – – o | 2,0 |
| Arxaya doğru 2 salto | – – < | 2,2 |
| Arxaya doğru 2 salto | – – / | 2.4 |
| Önə doğru 2 salto | . – – o | 2.4 |
| Önə doğru 2 salto | . – – < | 2,6 |
| Yana doğru 2 salto | – – o x | 2.0 |
| Yana doğru 2 salto | – – < x | 2,2 |

| Element | | Çətinlik |
|---|---|---|
| ½ vintli 2 salto (tvist) | 1 – o | 2,2 |
| ½ vintli 2 salto (tvist) | 1 – < | 2.4 |
| ½ vintli 2 arxaya doğru salto | – 1 o | 2,2 |
| ½ vintli 2 arxaya doğru salto | – 1 < | 2.4 |
| ½ vintli 2 arxaya doğru salto | – 1 / | 2,6 |
| ½ vintli 2 önə doğru salto | . – 1 o | 2,6 |
| ½ vintli 2 önə doğru salto | . – 1 < | 2,8 |
| Vint, arxa | 2 – o | 2.4 |
| Vint, arxa | 2 – < | 2,6 |
| Vint, arxa | 2 – / | 2,8 |
| 1½ vintli 2 salto | 2 1 / | 3,2 |
| 2 vintli 2 salto | 2 2 o | 3,2 |
| 2 vintli 2 salto | 2 2 / | 3,6 |
| 1½ vintli 2 salto | 2 3 o | 3,8 |
| 1½ vintli 2 salto | 2 3 / | 4.2 |
| Vint, 2 vint | 2 4 o | 4,4 |
| Vint, 2 vint | 2 4 / | 4,8 |
| 2 vint, 2 vint | 4 4 / | 6,4 |
| Arxaya doğru 3 salto | – – – o | 4.5 |
| Arxaya doğru 3 salto | – – – < | 5.1 |
| Arxaya doğru 3 salto | – – – / | 5,7 |
| ½ vintli 3 salto (tvist) | 1 – – o | 5,4 |
| ½ vintli 3 salto (tvist) | 1 – – < | 6,0 |
| Vintli 3 salto | 2 – – o | 6,3 |
| Vintli 3 salto | 2 – – < | 6,9 |
| Arxaya doğru 4 salto | – – – – o | 8,0 |

# G. TAMBLİNQ ÜZRƏ ÇƏTİNLİK XALLARININ HESABLANMASI (TAM YQ §15-ə istinad)

| **1-ci hərəkət** | Rondat | Arxaya doğru | Arxaya doğru | Arxaya doğru 2 salto | Sürətlənmə saltosu | Arxaya doğru | Sürətlənmə saltosu | Arxaya doğru 2 salto |
|---|---|---|---|---|---|---|---|---|
| *Dəyər:* | 0,1 | 0,1 | 0,1 | 2.4 | 0,2 | 0,1 | 0,2 | 2,4 * |

| **2-ci hərəkət** | ½ vintli salto | Piruet | Arxaya doğru | Arxaya doğru aşma | Arxaya doğru 2 salto | Sürətlənmə saltosu | Arxaya doğru | Arxaya doğru 2 salto |
|---|---|---|---|---|---|---|---|---|
| *Dəyər:* | 0,8 | 0,9 | 0,1 | 0,1 | **0.0** (təkr.) | 0,2 | 0,1 | 3,6 |

* qadınlar DD dəyəri ən azı 2,0 olan ikinci bir elementi yerinə yetirdikdə 1,0 xallıq bonus alır.

# H. İKİLİ MİNİ BATUT ÜZRƏ ÇƏTİNLİK – NÜMUNƏLƏR

| Önə doğru fırlanma | Element | Vəziyy | Çət. |
|---|---|---|---|
| Önə doğru salto | 4 – | O | 0,5 |
| Önə doğru salto | 4 – | < | 0,6 |
| Önə doğru salto | 4 – | / | 0,6 |
| ½ vintli salto | 4 1 | O | 0,7 |
| ½ vintli salto | 4 1 | < | 0,7 |
| ½ vintli salto | 4 1 | / | 0,7 |
| 1½ vintli salto | 4 3 | | 1,2 |
| 2½ vintli salto | 4 5 | | 1,9 |
| 3½ vintli salto | 4 7 | | 2,8 |
| ½ vintli 2 salto | 8 – 1 | O | 2.4 |
| ½ vintli 2 salto | 8 – 1 | < | 2,8 |
| ½ vintli 2 salto | 8 – 1 | / | 3,2 |
| ½ vintli 2 salto | 8 1 – | O | 2.4 |
| ½ vintli 2 salto | 8 1 – | < | 2,8 |
| ½ vintli 2 salto | 8 1 – | / | 3,2 |
| 1½ vintli 2 salto | 8 2 1 | O | 3,2 |
| 1½ vintli 2 salto | 8 2 1 | < | 3,6 |
| 1½ vintli 2 salto | 8 2 1 | / | 4,0 |
| 1½ vintli 2 salto | 8 – 3 | O | 3,2 |
| 1½ vintli 2 salto | 8 – 3 | < | 3,6 |
| 1½ vintli 2 salto | 8 – 3 | / | 4,0 |
| 2½ vintli 2 salto | 8 2 3 | O | 4,0 |
| 2½ vintli 2 salto | 8 2 3 | < | 4,4 |
| 2½ vintli 2 salto | 8 2 3 | / | 4,8 |
| 2½ vintli 2 salto | 8 – 5 | O | 4,0 |
| 2½ vintli 2 salto | 8 – 5 | < | 4,4 |
| ½ vintli 3 salto | 12 – – 1 | O | 5.1 |
| ½ vintli 3 salto | 12 – – 1 | < | 5,9 |

| Arxaya doğru fırlanma | Element | Vəziyy | Çət. |
|---|---|---|---|
| Arxaya doğru salto | 4 – | O | 0,5 |
| Arxaya doğru salto | 4 – | < | 0,6 |
| Arxaya doğru salto | 4 – | / | 0,6 |
| 1/1 vintli arxaya doğru salto | 4 2 | | 0,9 |
| 2/1 vintli arxaya doğru salto | 4 4 | | 1,5 |
| 3/1 vintli arxaya doğru salto | 4 6 | | 2,3 |
| 4/1 vintli arxaya doğru salto | 4 8 | | 3.3 |
| 5/1 vintli arxaya doğru salto | 4 10 | | 4.5 |
| Arxaya doğru 2 salto | 8 - - | O | 2,0 |
| Arxaya doğru 2 salto | 8 – – | < | 2.4 |
| Arxaya doğru 2 salto | 8 – – | / | 2,8 |
| vintli 2 salto | 8 1 1 | O | 2,8 |
| vintli 2 salto | 8 1 1 | < | 3,2 |
| vintli 2 salto | 8 1 1 | / | 3,6 |
| vintli 2 salto | 8 2 – | O | 2,8 |
| vintli 2 salto | 8 2 – | < | 3,2 |
| vintli 2 salto | 8 2 – | / | 3,6 |
| vintli 2 salto | 8 – 2 | O | 2,8 |
| vintli 2 salto | 8 – 2 | / | 3,6 |
| 2 vintli 2 salto | 8 2 2 | O | 3,6 |
| 2 vintli 2 salto | 8 2 2 | / | 4,4 |
| 2 vintli 2 salto | 8 1 3 | O | 3,6 |
| 2 vintli 2 salto | 8 1 3 | < | 4,0 |
| 2 vintli 2 salto | 8 1 3 | / | 4,4 |
| 3 vintli 2 salto | 8 2 4 | O | 4,4 |
| 3 vintli 2 salto | 8 2 4 | / | 5,2 |
| 3 vintli 2 salto | 8 1 5 | O | 4,4 |
| 3 vintli 2 salto | 8 1 5 | < | 4,8 |
| 4 vintli 2 salto | 8 4 4 | O | 5,2 |
| 4 vintli 2 salto | 8 4 4 | / | 6,0 |
| Arxaya doğru 3 salto | 12 – – – | O | 4.5 |
| Arxaya doğru 3 salto | 12 – – – | < | 5,3 |
| Arxaya doğru 3 salto | 12 – – – | / | 6.1 |
| Vintli 3 salto | 12 2 – – | O | 5,7 |
| Vintli 3 salto | 12 2 – – | < | 6,5 |
| 1 vintli 3 salto | 12 1 – 1 | O | 5,7 |
| 1 vintli 3 salto | 12 1 – 1 | < | 6,5 |
| 3 vintli 3 salto | 12 2 2 2 | O | 8,1 |

# I. BGF HESABLAMA SİSTEMİ – BATUT VƏ İMB

BGF yarışlarında yalnız BGF-Nin hesablama sistemi qəbul edilir.

- birinci rəqəm, saltoların dörddəbirlər (¼) ilə sayını bildirir
- sonrakı rəqəmlər hər salto üzrə vintlərin paylanması və sayını bildirir
- elementin yerinə yetirilmə vəziyyəti sonda göstərilir; qruplaşma üçün '**o**' işarəsi istifadə edilir və ya boşluq buraxılır; bükülmə üçün '**<**', düz vəziyyət üçün isə "**/**" istifadə edilir.

| **Element** | **¼ salto** | **½ vint** | | | **Vəziyyət** | **Çət. BAT** | **Çət. İMB** |
|---|---|---|---|---|---|---|---|
| Önə doğru ½ vintli 3 salto, qrupl. | 12 | - | - | 1 | o | 1,7 | 5.1 |
| Arxaya doğru 2 vintli 2 salto, bük. | 8 | 1 | 3 | | < | 1,6 | 4,0 |
| Önə doğru 1½ vintli 2 salto, düz | 8 | 2 | 1 | | / | 1,5 | 4,0 |
| Arxaya doğru 2 vintli 2 salto, qrupl. | 8 | 1 | 3 | | o | 1,4 | 3,6 |
| Arxaya doğru 2 salto, qrupl. | 8 | - | - | | o | 1,0 | 2,0 |
| Önə doğru ½ vintli 2 salto, qrupl. | 8 | - | 1 | | o | 1,1 | 2.4 |
| ½ vintli 2 salto | 4 | 3 | | | | 0,8 | 1,2 |
| Arxaya doğru 2 vintli salto | 4 | 4 | | | | 0,9 | 1,5 |
| Arxaya doğru ½ vintli 1 ¾ salto, qrupl. | 7 | 1 | - | | o | 0,9 | --- |
| Kürəkdən önə doğru ½ vintli 2 ¼ salto, bük. | 9 | - | 1 | | < | 1,4 | --- |

# J. BGF İŞARƏLƏRİ – BATUT

Tamblinqdə yarış kartlarını doldurmaq üçün prinsipləri aşağıda təsvir edilmiş BGF sistemi istifadə edilməlidir:

- Vintsiz saltolar üçün - istifadə edilir
- ½ vintli saltolar üçün **1** istifadə edilir
- 1 vintli saltolar üçün **2** istifadə edilir
- Hərəkətin istiqamətini göstərmək üçün **.** istifadə edin
- Qruplaşma və yarıqruplaşma vəziyyətləri üçün **o** istifadə edilir
- Bükülmüş vəziyyət üçün **<** istifadə edilir
- Düz vəziyyət üçün **/** istifadə edilir

| **Xüsusi elementlər** | |
|---|---|
| Rondat | **(** |
| Arxaya / önə doğru aşma | **f h** |
| Sürətlənmə saltosu | **^** |
| **Tək saltolar** | |
| Qrupl. vəziyyətdə salto | **- o** |
| Bük. vəziyyətdə salto | **- <** |
| Düz vəziyyətdə salto | **- /** |
| ½ vintli salto | **.1** |
| ½ vintli arxaya doğru salto | **1.** |
| 1 vintli arxaya doğru salto | **2.** |
| 1 ½ vintli arxaya doğru salto | **3.** |
| 2 vintli arxaya doğru salto | **4.** |

| **İkili saltolar** | |
|---|---|
| Qruplaşmış vəziyyətdə 2 | **- - o** |
| Bükülmüş vəziyyətdə 2 salto | **- - <** |
| Düz vəziyyətdə 2 salto | **- - /** |
| Vint - arxaya doğru, qrupl. | **2 - o** |
| Vint - arxaya doğru, bük. | **2 - <** |
| Vint - vint, qrupl. | **2 2 o** |
| Vint - vint, düz | **2 2 /** |
| 3 vintli 2 salto | **2 4 /** |
| **Üçlü saltolar** | |
| Qruplaşmış vəziyyətdə 3 | **- - - o** |
| Bükülmüş vəziyyətdə 3 salto | **- - - <** |
| Vintli 3 salto, qrupl. | **2 - - o** |

Yana doğru edilən = əlavə olaraq **x** ilə işarələnir

Önə və ya arxaya doğru = lazım olduqda nöqtə ilə işarələnir: **.1** = ½ vintli önə doğru salto və ya **1.** = ½ vintli arxaya doğru salto

# K. BGF TERMİNOLOGİYASI

| | |
|---|---|
| BACK | Arxaya doğru salto |
| FRONT | Önə doğru salto |
| BALL OUT | Kürəkdən önə doğru salto |
| CODY | Qarından arxaya doğru salto |
| FLIFFIS | İstənilən vintli ikili salto |
| TRIFFIS | İstənilən vintli üçlü salto |
| QUADRIFFIS | İstənilən vintli dördlü salto |

| | |
|---|---|
| IN | Göstərilən vint sayının elementin ilk hissəsində yerinə yetirildiyini bildirir. |
| OUT | Göstərilən vint sayının elementin son hissəsində yerinə yetirildiyini bildirir. |
| MIDDLE | Göstərilən vint sayının elementin orta hissəsində yerinə yetirildiyini bildirir. |

| | |
|---|---|
| BARANI | ½ vintli önə doğru salto |
| HALF | İkili saltoda yerinə yetirilən yarım vint (aşağıya baxın) |
| FULL | 1/1 vintli arxaya doğru salto |
| DOUBLE FULL | 2/1 vintli arxaya doğru salto |
| TRIPLE FULL | 3/1 vintli arxaya doğru salto |
| RUDOLPH (RUDY) | 1½ vintli önə doğru salto |
| RANDOPLH (RANDY) | 2½ vintli önə doğru salto |
| ADOLPH | 3½ vintli önə doğru salto |

***Nümunələr:***

| *Saltoların sayı* | *Vintlərin sayı* | *Paylanma* | *Terminologiya* |
|---|---|---|---|
| 2 | ½ | OUT | Half out FLIFFIS |
| 2 | ½ + ½ | IN & OUT | Half in half out FLIFFIS |
| 3 | 1 + ½ | MIDDLE & OUT | Full middle half out TRIFFIS |
| 2 | ½ + 1½ | IN & OUT | Half in rudy out FLIFFIS |

# L. BİRİNCİ HƏRƏKƏT ÜZRƏ TƏLƏBLƏR – BATUT

*1 yanvar 2017-ci il tarixindən etibarlıdır*

## I.BGF yarışlarının birinci hərəkəti üzrə tələblər:

1. Hərəkət 10 fərqli elementdən, hər bir element azı 270°-lik fırlanmalı saltodan ibarətdir.
2. Yarış kartında ulduz işarəsi (*) ilə qeyd edilmiş dörd (4) element çətinlik dəyərinə malikdir. Çətinlik qiymətini icra texnikası qiymətinə əlavə edərək ilk hərəkətin ümumi balı müəyyən edilir.
3. Bu dörd (4) elementdən heç biri seçmə turunun ikinci hərəkətində təkrarlana bilməz, əks halda çətinlik hesablanmayacaqdır.

## II.Gənclər arasında yarışlarda təsnifat mərhələsinin birinci hərəkəti üzrə tələblər:

Hərəkət on (10) müxtəlif elementdən ibarətdir və yalnız bir (1) elementdə 270°-dən kiçik saltonun olmasına icazə verilir. Tələblərə uyğun olan hər bir element yarış kartında ulduz (*) ilə işarələnməlidir. Bu tələblər bir elementdə birləşdirilmə yolu ilə yerinə yetirilə bilməz, onlar ayrı elementlər şəklində yerinə yetirilməlidir.

1. qarın və ya kürək üzərinə enmə ilə bir (1) element,
2. 1-ci tələb ilə birlikdə qarın və ya kürəkdən yerinə yetirilən bir (1) element
3. vintli və ya vintsiz arxaya və ya önə doğru bir (1) ikili salto <u>və</u>
4. ən azı 540°-lik vint və 360°-lik salto fırlanmasını ehtiva edən bir (1) element.

Lozanna şəhəri, may 2021-ci il

**Beynəlxalq Gimnastika Federasiyası**

Horst Küntse
Batut TK Prezidenti

# M. HESABLAMA VƏ YUVARLAQLAŞDIRMA NÜMUNƏLƏRİ

## 1. Uçuş müddətinin qiymətləndirilməsi – 18.2.1

18.2.1: İcra texnikası, çətinlik və sinxronluğun qiymətləndirilməsi xalın onda biri ilə həyata keçirilir. <u>Uçuş müddəti</u> saniyənin 1/1000-i ilə qiymətləndirilir və 5/1000-ə qədər yuvarlaqlaşdırılır.

*<u>Misal</u>*

| | | |
|---|---|---|
| Uşuç müddəti qiyməti 1: | 16,233 | >>> yuvarlaqlaşdırıldıqdan sonra: **16,230** |
| Uşuç müddəti qiyməti 2: | 17,196 | >>> yuvarlaqlaşdırıldıqdan sonra: **17,195** |
| Uşuç müddəti qiyməti 3: | 17,455 | >>> yuvarlaqlaşdırıldıqdan sonra: **17,455** |
| Uşuç müddəti qiyməti 4: | 17,194 | >>> yuvarlaqlaşdırıldıqdan sonra: **17,190** |

## 2. Əskik E qiyməti – 18.2.4

18.2.4: "Əgər icra texnikası hakimlərindən hər hansı biri hakimlər briqadasının sədrinin siqnalından sonra qiymət verməzsə, əskik qiymət(lər)in əvəzinə digər qiymətlərin orta dəyəri istifadə edilir."

*<u>Misal</u>*

| **E1** | **E2** | **E3** | **E4** | **E5** |
|---|---|---|---|---|
| 9,1 | 9,1 | 9,2 | --- | 9,2 |

Bu halda göstərilmiş 4 qiymətin orta dəyəri, yəni (9,1+9,1+9,2+9,2)/4 = 9,15, əskik qiyməti əvəzləyir:

| **E1** | **E2** | **E3** | **E4** | **E5** |
|---|---|---|---|---|
| 9,1 | 9,1 | 9,2 | 9,15 | 9,2 |

Bu hərəkətin E qiyməti **27,450**-dir

| **E1** | **E2** | **E3** | **E4** | **E5** | | **E qiyməti** |
|---|---|---|---|---|---|---|
| ~~9,1~~ | 9,1 | 9,2 | 9,15 | ~~9,2~~ | = | 27,450 |

## 3. Yuvarlaqlaşdırma – 18.2.10

18.2.10: "Bütün qiymətlər vergüldən sonra 3 (üç) rəqəmə qədər yuvarlaqlaşdırılır. Həmin yuvarlaqlaşdırma yalnız gimnastın hərəkət üzrə ümumi xalı münasibətində həyata keçirilir."

*<u>Misal</u>*

| | | |
|---|---|---|
| E qiyməti | 27,6666 | (E1: 9,2333* E2: 9,2333* E3: 9,0 E4: 9,5 E5: 9,2) |
| Çətinlik | 15,0000 | |
| Uçuş müddəti | <u>17,2050</u> | |
| Ümumi qiymət | 59,8716 | |
| Yuvarlaqlaşdırıldıqda | **59,871** | |

** əskik qiymətlər (yuxarıdakı 1-ci nümunəyə əsasən)*

# N. ELEKTRON SİSTEM NASAZLIĞI

İcra üzrə hakim öz funksiyasını yerinə yetirə bilmədikdə və ya VÖC nasazlığı halında hakimlər müddəti ölçmək üçün ehtiyyat vasitəyə malik olmalıdır. Kompüterdə dərhal göstərilə biləcək saniyədə 50 kadr tezlikli video vasitəyə üstünlük verilir. Yarışların təşkilatçısı və vaxt üzrə hakim, hakimlər briqadasının sədri və ali hakimlər briqadası belə bir vasitənin mövcudluğunu və düzgün bucaq altında quraşdırılmasını təmin etməlidir.

## 1. Fərdi batut yarışları və ehtiyat video vasitədən istifadə – 18.2.7.1.1

Uçuş müddətini video vasitəsilə ölçmək üçün VÖC istehsalçı(lar)ının təklif etdiyi xüsusi proqram təminatından istifadə edin.

**<u>və ya</u>**

1. Video qeydiyyat vasitəsi ilə batut toruna enmə müddəti də daxil olmaqla, **hərəkətin ümumi müddətini** ölçün, məsələn
   - vaxt ölçmə funksiyasına malik standart proqram təminatı
   - videokameranın daxili vaxt ölçmə funksiyası ilə

2. Batut torunda keçən video kadrların ümumi sayını hesablayıb onları 1/100 saniyə vahidinə çevirərək, batut torunda keçirilmiş **ümumi enmə müddətini** ölçün:

| Kadrların sayı | Vaxt intervalı (25 kadr/san) | Vaxt intervalı (50 kadr/san) |
|---|---|---|
| 1 | 0,04 | 0,02 |
| 2 | 0,08 | 0,04 |
| 3 | 0,12 | 0,06 |
| 4 | 0,16 | 0,08 |
| 5 | 0,20 | 0,10 |
| Və s. | Və s. | Və s. |

3. Uçuş müddətini əldə etmək üçün batut torunda keçmiş müddəti hərəkətə sərf olunmuş ümumi müddətdən **çıxın**.

## 2. Sinxron batut yarışları və ehtiyat video vasitədən istifadə – 18.2.8.1.1

Müddətin video kadrlara çevrilməsi (25 kadr/san)

| Çıxılmalar | Müddət fərqi | Kadrlar ilə fərq | | Çıxılmalar | Müddət fərqi | Kadrlar ilə fərq |
|---|---|---|---|---|---|---|
| 0,05 | 0,02 | 0,5 | | 0,55 | 0,22 | 5,5 |
| 0,10 | 0,04 | 1 | | 0,60 | 0,24 | 6 |
| 0,15 | 0,06 | 1,5 | | 0,65 | 0,26 | 6,5 |
| 0,20 | 0,08 | 2 | | 0,70 | 0,28 | 7 |
| 0,25 | 0,10 | 2.5 | | 0,75 | 0,30 | 7,5 |
| 0,30 | 0,12 | 3 | | 0,80 | 0,32 | 8 |
| 0,35 | 0,14 | 3,5 | | 0,85 | 0,34 | 8,5 |
| 0,40 | 0,16 | 4 | | 0,90 | 0,36 | 9 |
| 0,45 | 0,18 | 4,5 | | 0,95 | 0,38 | 9,5 |
| 0,50 | 0,20 | 5 | | 1,00 | 0,40 - 0,50 | 10 - 12,5 |

1. Rəsmi videodan istifadə edərək hər element üzrə enmə fərqlərinin kadr sayını hesablayın:

| Saniyədə kadr (tezlik) | 25 | 30 | 50 | 60 |
|---|---|---|---|---|
| Element üzrə hesablanmış maks. | 5 | 6 | 10 | 12 |

*(Qeyd: enmə üzrə maksimal çıxılma 0,5 xaldır)*

2. Kadrların ümumi sayını tezliyə bölərək ümumi müddəti əldə edin.
3. Ümumi müddəti 2,5-ə vuraraq və ya 0,04-ə bölərək hərəkət üzrə ümumi çıxılmanı əldə edin.

*Misal:* (Video tezliyi saniyədə 25 kadrdır)

a) Kadr sayı 17-dir

b) 17 / 25 = 0,68 san

c) 0,68 x 2,5 = 1,7 xallıq çıxılma

d) 10 – 1,7 = 8,3 sinxronluq qiyməti

# O. TAMBLİNQ ÜZRƏ AÇIQLAMA

**Rondat üzrə yaxşı texnika**

- Təmas fazasının sonunda qollar düz olmalıdır
- Bütün bədən tamblinq cığırının şaquli oxu üzərində hərəkət etməlidir
- Ayaqlar 90°-yə qədər birlikdə olmalıdır
- Ayaqlar 90°-dən sonra düz olmalıdır

**Xüsusi çıxılmalar:**

- Bədənin şaquli vəziyyətdən kənara çıxması 0,1

**Arxaya doğru aşma üzrə yaxşı texnika**

- Qollar uçuş fazalarında, təmas fazasının sonunda düz olmalı və çox aralı olmamalıdır
- Qalxmadan sonra ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Bədən elementin tələblərinə uyğun şəkildə əyilməlidir
- Təmas fazasında ayaqlar əyilə bilər
- Yaxşı ritm, hündürlük və hərəkət müstəvisi

**Sürətlənmə saltosu üzrə yaxşı texnika**

- Qollar düz olmalıdır
- Ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Bədən elementin tələblərinə uyğun şəkildə əyilməlidir
- Bükülmə fazası 180°-dən sonra başlamalıdır
- Təmas fazasında ayaqlar bir az əyilə bilər
- Yaxşı ritm, hündürlük və hərəkət müstəvisi

**Xüsusi çıxılmalar:**

- 180°-dən əvvəl başlamış bükülmə 0,1
- Təmas fazasında ayaqların həddən artıq əyilməsi 0,1
- Hündürlüyün çiyin səviyyəsində olması 0,1
- Hündürlüyün çiyin səviyyəsindən yuxarıda olması 0,2

**Önə doğru salto üzrə yaxşı texnika**

- Trayektoriya hərəkətə uyğun olmalıdır
- Qollar mümkün qədər düz saxlanılmalıdır
- Ayaqlar düz olmalı və birlikdə saxlanılmalıdır (keçid yerinə yetirilirsə, 180°-yə qədər)
- Bədən elementin tələblərinə uyğun olaraq qruplaşmış və ya bükülmüş olmalıdır
- Enmə güclü şəkildə yerinə yetirilməlidir
- Yaxşı ritm, hündürlük və hərəkət müstəvisi

**Yarım vintli önə doğru salto üzrə yaxşı texnika**

- Trayektoriya hərəkətə uyğun olmalıdır
- Vint çox tez başlamamalıdır

- Qollar düz olmalıdır
- Ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Vəziyyət aydın şəkildə seçilən düz, qruplaşmış və ya bükülmüş vəziyyət olmalıdır
- Yaxşı ritm, hündürlük və hərəkət müstəvisi

**Xüsusi çıxılmalar:**

| | |
|---|---|
| ○ Həddən artıq tez vintə başlama | 0,1 |

**Arxaya doğru vintli birləşdirilmiş salto üzrə yaxşı texnika**

- Trayektoriya hərəkətə uyğun olmalıdır
- Elementin sonunda qollar düz olmalıdır
- Ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Vint çox tez başlamamalıdır
- Bükülmə fazası 180°-dən sonra başlamalıdır
- Enmə güclü şəkildə yerinə yetirilməli, vint enmədən əvvəl başa çatmalıdır
- Yaxşı ritm, hündürlük və hərəkət müstəvisi

**Xüsusi çıxılmalar:**

| | |
|---|---|
| ○ 180°-dən əvvəl başlamış bükülmə | 0,1 |
| ○ Həddən artıq tez vintə başlama | 0,1 |
| ○ Vintin yerdə başa çatdırılması | 0,1 |

**Arxaya doğru tək salto üzrə yaxşı texnika**

- Trayektoriya hərəkətə uyğun olmalıdır (sonuncu və ya əks hərəkətdən əvvəl yerinə yetirilən 7-ci element)
- Hündürlük çiyin səviyyəsindən xeyli yüksək olmalıdır
- Qollar mümkün qədər düz saxlanılmalıdır
- Ayaqlar 90°-yə qədər düz (bükülmüş vəziyyət istisna olmaqla) və birlikdə olmalıdır
- Bədən elementin tələblərinə uyğun olaraq qruplaşmış, bükülmüş və ya düz olmalıdır
- Açılma aydın şəkildə seçilməlidir

**Xüsusi çıxılmalar:**

| | |
|---|---|
| ○ Enmədən əvvəl aydın açılmanın olmaması | 0,1 - 0,3 |
| ○ Hündürlüyün çiyin səviyyəsində olması | 0,1 |
| ○ Hündürlüyün çiyin səviyyəsindən aşağıda olması | 0,2 |

**Arxaya doğru vintli tək salto üzrə yaxşı texnika**

- Trayektoriya hərəkətə uyğun olmalıdır (sonuncu və ya əks hərəkətdən əvvəl yerinə yetirilən 7-ci element)
- Hündürlük çiyin səviyyəsindən xeyli yüksək olmalıdır
- Qollar düz olmalıdır
- Ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Vint həddən artıq tez başlamamalı və enmədən əvvəl bitməlidir
- Bədən düz saxlanılmalıdır

**Xüsusi çıxılmalar:**

| | |
|---|---|
| ○ Fırlanmanın sonunda bükülmə | 0,1 - 0,2 |
| ○ Vintə həddən artıq tez başlama | 0,1 |
| ○ Vinti həddən artıq gec bitirmə | 0,1 |

**<u>Önə doğru əks fırlanmalı salto üzrə yaxşı texnika</u>**

- Trayektoriya hərəkətə uyğun olmalıdır
- Hündürlük çiyin səviyyəsindən xeyli yüksək olmalıdır
- Qollar mümkün qədər düz saxlanılmalıdır
- Ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Bədən elementin tələblərinə uyğun olaraq qruplaşmış, bükülmüş və ya düz olmalıdır
- Açılma aydın şəkildə seçilməlidir

**<u>Xüsusi çıxılmalar:</u>**

- o Enmədən əvvəl aydın açılmanın olmaması 0,1 - 0,2
- o Hündürlük itkisi və səhv trayektoriya 0,1 - 0,2

**<u>Vintli və vintsiz çoxqat saltolar üzrə yaxşı texnika</u>**

- Trayektoriya hərəkətə uyğun olmalıdır (bağlayıcı və ya hərəkəti bitirən element)
- Hündürlük çiyin səviyyəsindən xeyli yüksək olmalıdır
- Qollar mümkün qədər düz saxlanılmalıdır
- Ayaqlar 90°-yə qədər düz və birlikdə olmalıdır
- Bədən elementin tələblərinə uyğun olaraq qruplaşmış, bükülmüş və ya düz olmalıdır
- Qruplaşmış və bükülmüş vəziyyətdə yerinə yetirilən vintsiz ikili saltonun açılma fazası aydın olmalıdır
- Birləşdirici element olduqda 180°-dən sonra bükülmə
- Vint həddən artıq tez başlamamalı və enmədən əvvəl bitməlidir

**<u>Xüsusi çıxılmalar:</u>**

- o Vintə həddən artıq tez başlama 0,1
- o Vinti həddən artıq gec bitirmə 0,1
- o -- o və --< zamanı açılma 0,1 - 0,3
- o Bütün digər saltolar zamanı açılma 0,1 - 0,2

*TAMBLİNQ ÜZRƏ İDMANÇILARIN ÇOXVİNTLİ SALTO ELEMENTLƏRİ ZAMANI BATUTDA OLDUĞU KİMİ AÇILACAĞINI GÖZLƏMƏK MÜMKÜN OLMADIĞINA GÖRƏ ENMƏYƏ HAZIRLIQ FAZASI QİYMƏTLƏNDİRİLMƏLİDİR...*

- ... bədənin yuxarı hissəsi açıq şəkildə 90°-dən az açılmışdırsa 0,2
- ... bədənin yuxarı hissəsi 90°-yə yaxın səviyyədə açılmışdırsa 0,1
- ... bədənin yuxarı hissəsi açıq şəkildə 90°-dən artıq açılmışdırsa 0,0

Lozanna şəhəri, may 2021-ci il

**Beynəlxalq Gimnastika Federasiyası**

Horst Küntse, Batut TK Prezidenti

# P. Ali hakimlər, Referent Hakimləri, TNS Sistemindən İstifadə

**YARIŞ QAYDALARINA (YQ) ƏLAVƏ**

**(KAG / QAG / BG / BAT / AER / AKRO)**

Daxil olan sənədlər:

A) BGF Yarışlarında ali hakimlər briqadası və müşahidəçilərin, habelə apellyasiya hakimləri və yarışların Müşahidə Şurasının Vəzifələri üzrə Qaydalar

B) Referent Hakimləri üçün Qaydalar

C) TNS Sistemindən (Təkrar və Nəzarət Sistemi) İstifadə üzrə Qaydalar

Bütün bu qaydalar İcraiyyə Komitəsi və Prezident Komissiyası tərəfindən 2012-ci ilin oktyabr/noyabr aylarında hazırlanmış və yenilənmişdir.
Onlar YQ sənədinə əlavə kimi qiymətləndirilməlidir. Bu qaydalar ilə Yarış Qaydaları (YQ) arasında ziddiyyət olarsa, bu qaydalar üstün hesab ediləcəkdir.

**Giriş**

BGF-ə aid sahələrin bir çox aspektini uyğunlaşdırmaq və asanlaşdırmaq məqsədilə BGF İcraiyyə Komitəsi (İK) bir sıra prosedurun Yarış Qaydalarından çıxarılması və bu qaydaların İK səlahiyyətinə daxil edilməsi barədə qərara gəlmişdir. Bu qaydaların bir sənədə yığılması İK-nın daha çevik davranması və zəruri olduqda daha tez reaksiya verməsi üçün imkan yaradır. Bu qaydalar bütün sahələrə tətbiq edildiyi üçün daha ümumi anlayışa və daha yaxşı uyğunlaşmaya nail olmaq mümkündür. Aşağıdakı qaydalar 2022-2024 dövrünə tətbiq edilir və yalnız İK-nın qərarı ilə dəyişdirilə bilər. Bu qaydalar YQ sənədinə əlavə hesab edilməlidir. Bu qaydalar ilə YQ arasında ziddiyyət olarsa, bu qaydalar üstün hesab ediləcəkdir.

**Qısaltmalar və təriflər**

Bu sənəddə aşağıdakı qısaltma və təriflər istifadə ediləcəkdir:

| | |
|---|---|
| BGF | Beynəlxalq Gimnastika Federasiyası |
| İK | İcraiyyə Komitəsi |
| TK | Texniki Komitə |
| YTK | Yerli Təşkilat Komitəsi |
| TR | Texniki Reqlamentlər |
| İHS | Referent Hakimləri Sistemi |
| R-Hakimi | Referent Hakim |
| RE | İcra üzrə referent hakim |
| RA | Artistizm üzrə referent hakim |
| RD | Çətinlik üzrə referent hakim |
| R-Balı | İki R-Hakiminin qiymətinin orta dəyərini götürərək hesablanmış referent bal |
| E-Hakiminin Qiyməti | Hərəkət üzrə E-Hakimlərinin ən yüksək və ən aşağı qiymətləri silindikdən sonra qalan icra qiyməti (idman gimnastikası və bədii gimnastikada bu qiymət qalan qiymətlərin orta dəyərinə, batut gimnastikasında cəminə bərabər olur) |
| E-Balı | Hərəkətin icra texnikası üzrə yekun xal (R-xalının daxil edilib-edilmədiyindən asılı olmayaraq) |
| A-Hakiminin Qiyməti | Hərəkət üzrə A-Hakimlərinin ən yüksək və ən aşağı qiymətləri silindikdən sonra hesablanan artistizm xalı |
| A-Balı | Hərəkətin atistizm üzrə yekun xalı (R-xalının daxil edilib-edilmədiyindən asılı olmayaraq) |
| Fərq | E-Hakiminin Qiyməti ilə RE-xalı, yaxud da A-Hakiminin Qiyməti ilə RA-xalı arasındakı fərq |
| Kəsir | İki R-hakiminin Qiymətləri arasındakı fərq |
| HQP | Hakimləri Qiymətləndirmə Proqramı |
| HHS | Hakimlər Heyətinin Sədri |
| ŞİS | Şərhçi İnformasiya Sistemi |
| TNS | Təkrar və Nəzarət Sistemi |

# A) BGF YARIŞLARINDA ALİ HAKİMLƏR BRİQADASI VƏ MÜŞAHİDƏÇİLƏRİN, HABELƏ APELLYASİYA HAKİMLƏRİ VƏ YARIŞLARIN MÜŞAHİDƏ ŞURASININ VƏZİFƏLƏRİ ÜZRƏ QAYDALAR

## 1. Apellyasiya Hakimləri və Yarışların Müşahidə Şurası

Apellyasiya Münsifləri və Yarışların Müşahidə Şurası BGF-in İK tərəfindən təqdim edilmişdir. O, siyasi və nəzarət funksiyası daşıyır və bütün BGF yarışlarına müşahidəçilik edir. Üzvlər yarışların bütün mövcud qaydalar, Texniki Reqlamentlər (TR) və BGF-in Nizamnaməsi çərçivəsində keçirilməsini təmin edir. Onlar birbaşa olaraq müdaxilə etmir, əvəzində məsul şəxsin (TK, YTK, BGF əməkdaşlarının) diqqətini problemə yönəldərək problemi aradan qaldırmağı xahiş edirlər.

Apellyasiya Hakimləri və Yarışların Müşahidə Şurası, Prezident Komissiyasının təyin etdiyi iki İK üzvü (bunların biri Prezident funksiyasını yerinə yetirir) və nə Yarış Hakimlərinin, nə də ali hakimlərin qərarında iştirak etməmiş səlahiyyətli şəxs olan üçüncü üzvdən ibarətdir. Müvafiq Texniki Prezident və ya hər hansı digər müvafiq şəxs məsləhətçi kimi dəvət oluna bilər. Tapşırıq və səlahiyyətlərin təfərrüatları İK tərəfindən aşağıdakı qaydada qərarlaşdırılmışdır:

Apellyasiya hakimləri və Yarışların Müşahidə Şurası yarışların və bütün yarışöncəsi mərhələlərin idarə edilməsinə tam nəzarət edir. Şuranın xüsusi vəzifələrinə aşağıdakılar daxildir:

- hakimlər üzrə püşkatma prosesi və gimnastlar üzrə püşkatmanın düzgün həyata keçirilməsinə nəzarət etmək
- komandaların rotasiyası və çıxış etmə ardıcıllıqlarına nəzarət etmək
- Yarışlar üzrə direktor və yarışların keçirildiyi yerin meneceri arasında əməkdaşlığı təmin etmək, yarışın yaxşı keçməsini təmin etmək məqsədilə Longines (SwissTiming) təşkilatı və bütün əməliyyat tərəfdaşları ilə əməkdaşlıq etmək
- müxtəlif mərasimlər, mətbuat konfransları və tanışlıq iclasları üçün protokolların hazırlanmasını təmin etmək
- hakimlərin tərkibi və davranışına nəzarət etmək
- şura, yarış bitdikdən dərhal sonra xallara düzəliş etmək üçün deyil, hakimlərin davranışını yoxlamaq məqsədilə video təhlil tələb edə bilər. Ciddi fikir ayrılıqları yaranarsa, şura İK-nın məsələni nəzərdən keçirməsini təklif edə bilər

## 2.Ali hakimlər briqadası

Rəsmi BGF yarışlarında və Olimpiya Oyunlarında Texniki Komitələr (TK) Ali Münsiflər Heyətini təşkil edir və olimpiya növləri, eləcə də aerobika və akrobatik gimnastikada təyin edilmiş məsuliyyət sahələri üzrə Müşahidəçi rolunu oynayırlar.

### 2.1. TK Prezidentinin rolu və vəzifələri *

TK Prezidenti və ya onun təmsilçisi ali hakimlər briqadasının prezidenti qismində çıxış edir. Özünün və ali hakimlər briqadasının vəzifələrini yerinə yetirərkən həmin şəxs aşağıdakıları həyata keçirməlidir:

- Yarışı TR-də müəyyən edilmiş qaydada idarə etmək.
- Bütün hakim yığıncaqları və təlimat iclaslarını təşkil etmək və onlara sədrlik etmək.
- Yarışa aid hakim reqlamentlərini tətbiq etmək.
- Müvafiq olduqda yarışlarda istinad hakimləri üzrə qaydaları tətbiq etmək.

- Müvafiq olduqda yarışlarda TNS sistemlərindən istifadə qaydalarını tətbiq etmək.
- Yeni elementlərin qiymətləndirilməsi tələbləri ilə məşğul olmaq.
- İş planında dərc edilmiş qrafikə riayət edilməni təmin etmək.
- Sorğulara bu sənəddə müəyyən edilmiş qaydada cavab vermək.
- Ali hakimlər briqadasının üzvləri ilə əməkdaşlıq edərək xəbərdarlıqlar etmək və ya istənilən hakimlik vəzifəsində qənaətbəxş çıxış etdiyi və ya andını pozduğu hesab olunan istənilən şəxsi əvəzləmək.
- Hakimlik səhvlərini müəyyən etmək məqsədilə (yarışdan sonra) TK ilə qlobal video təhlilini həyata keçirmək və mümkün sanksiyaların tətbiqi üçün hakimlərin qiymətləndirilməsi üzrə nəticələri BGF-in İntizam Komissiyasına təqdim etmək.
- BGF Avadanlıq Normalarına uyğun olaraq avadanlıq spesifikasiyalarının ölçülməsinə nəzarət etmək.
- Qeyri-adi və ya xüsusi vəziyyətlərdə yarışa hakim namizədliyini irəli sürmək
- Müşahidəçilərin işinə nəzarət etmək və zəruri olduqda müdaxilə etmək. Sorğunun göndərilməsi, müddət səhvləri və ya xətti səhvlərin olması halları istisna olmaqla, hesab tablosunda göstərildikdən sonra hesabın dəyişdirilməsinə bir qayda olaraq icazə verilmir.
- Mümkün qədər qısa müddət ərzində, ancaq yarışdan sonrakı 30 gündən gec olmamaq şərtilə, BGF-in Baş Katibinə göndəriləcək hesabatı İK-ya təqdim etmək. Hesabatın məzmunu aşağıdakılardan ibarətdir:
    - Xüsusi hadisələr və gələcək üçün çıxarılmış nəticələr də daxil olmaqla, yarış haqda ümumi qeydlər
    - Bütün müdaxilələrin ətraflı siyahısı (hesab göstərildikdən əvvəl və sonra edilmiş dəyişikliklər)
    - D-hakimlərinin qiymətlərinin texniki təhlili
    - Hakimlərin işinin ətraflı təhlili, o cümlədən ən yaxşı hakimlərin mükafatlandırılması və gözləntiləri qarşılaya bilməyən hakimlərə qarşı sanksiyaların tətbiqi üzrə təkliflər.

* Bütün növlərin spesifikasiyaları üçün aşağıya baxın

**2.2 TK Üzvlərinin rolu və vəzifələri ***

Yarışın hər mərhələsində TK üzvləri və ya təyin edilmiş şəxslər ali hakimlər briqadasının üzvləri və Müşahidəçilər qismində çıxış edir. Onların vəzifələrinə aşağıdakılar daxildir:

- Hakim yığıncaqları və təlimat iclaslarının idarə edilməsində iştirak etmək və hakimləri müvafiq alətlər üzrə düzgün işləmələri üçün istiqamətləndirmək
- "Hakim Reqlamentlərini" adil, ardıcıl və hazırda etibarlı olan reqlament və meyarlara tam uyğun şəkildə tətbiq etmək
- Müvafiq olduqda yarışlarda istinad hakimləri üzrə qaydaları tətbiq etmək
- Müvafiq olduqda yarışlarda TNS sistemlərindən istifadə qaydalarını tətbiq etmək
- Hər bir hərəkət üzrə ümumi qiymətləndirməyə və yekun qiymətə nəzarət etmək
- Gimnastın çıxışına görə düzgün qiymətin verilməsini təmin etmək və ya bu sənəddə göstərilmiş qaydada müdaxilə etmək
- Təlim, isinmə və yarış vaxtı istifadə edilən avadanlığın BGF Avadanlıq Normalarına uyğunluğunu yoxlamaq

- Yarış Sonrası Video İcmalı həyata keçirmək, hakimlərin, o cümlədən müvafiq olduqda referent hakimlərin (R-Hakimlərinin) icra (E) və çətinlik (D) xallarını təhlil etmək. Hakimləri Qiymətləndirmə Proqramının (HQP) istifadə edildiyi hallarda sözügedən nəzarət xalları icmalın əsasını təşkil edəcəkdir.

*Bütün növlərin spesifikasiyaları üçün aşağıya baxın

**2.3. Bütün müdaxilələr üzrə prosedurlar (sorğular istisna olmaqla)**

Müşahidəçilərə müdaxilə yalnız ali hakimlər briqadasının Prezidenti tərəfindən edilə bilər.
Müdaxilə olduqda ali hakimlər briqadasının Prezidenti aidiyyatı hakimə müraciət edərək onu Müşahidəçinin verdiyi qiymət haqda məlumatlandırmalıdır. Hakimlərə öz qiymətlərini dəyişmə imkanı verilir. Hakimlər qiyməti dəyişməməyi seçdikdə Ali Münsiflər Heyətinin Prezidenti həmin qiymətləri ləğv edə bilər.

Ali hakimlər briqadasının Prezidenti bütün müdaxilə və hesab dəyişikliklərinin qeydiyyatını aparmalıdır.
Bunlar yarış protokoluna daxil edilməlidir.

**2.3.1. D-xalı**

Müşahidəçilərin D-Balı ilə bağlı müdaxiləsi aşağıdakı hallarda edilməlidir:
- Məşqçinin öz gimnastı üçün etdiyi sorğu halında.
- Müşahidəçinin qiyməti ilə hakimin D-xalı arasında hər növ üzrə spesifikasiyalara uyğun olaraq fərq olduğu halda.

**2.3.2. E-xalı və A-xalı - Qeyri-mümkün xallar**

Müşahidəçilərin E- və ya A-xalı üzrə müdaxiləsi yalnız qeyri-mümkün ballar verildikdə edilməlidir. Qeyri-

mümkün xal aşağıdakı kimi müəyyən edilir:

**a) - Cərimələr / çıxılmalar* hər hansı bir hakimin verdiyi qiymətdən artıq olduqda:**

Maksimal qiymət: 10,00 xal     Cərimə / Məcburi çıxılmalar (məs. İdman gimnastikasında yıxılmağa görə): 1,0

xal Qiymətlər: 9,2     8,5     8,3     8,4     9,1

Qeyri-mümkün xallar

* Cərimə / Məcburi çıxılma nümunəsi: (bunlar sadəcə bir neçə nümunədir, siyahı bununla məhdudlaşmır.)
- İdman gimnastikasında - Yıxılma 1,0 xal;
- Bədii gimnastika - avadanlığın itirilməsi 0,3/0,7 xal, hərəkəti musiqisiz və avadanlıqsız başa çatdırma 1,0 xal;
- Batut gimnastikası - hərəkət əsnasında tordan başqa yerə toxunma 0,5 xal, məşqçidən şifahi və ya digər siqnal alma
  hər siqnal üçün 0,3 xal;
- Akrobatika - Yıxılma 1,0 xal; Tarazlıq elementlərində vaxtın olmaması hər saniyə üçün 0,3 xal;
- Aerobika - Yıxılma 0,5 xal, və s.

**b) - Hakimin aşkar şəkildə cərimələri daxil edib qiyməti daxil etmədiyi, yaxud da əks halda:**

Xallar: 1,9 8,2 8,0 8,1 7,9

Qeyri-mümkün xal (8,1 olmalıdır)

**2.3.3 E-xalı və A-xalı – Mümkün xallar**

**Xallar arasında böyük fərq olduqda:**

Hakim qiymətləri: 7,9 8,1 8,8 7,8 8,0

Xallar müdaxiləsiz qəbul edilməlidir

**2.3.4 D-xalı / E-xalı və ya Yekun xal (növlərə uyğun olaraq)**

**a) - Cərimə məsul şəxs tərəfindən tətbiq edilmədikdə və ya səhv tətbiq edildikdə:**
məsələn:

- Xətt cərimələri
- Vaxt cərimələri
- Geyim cərimələri
- İntizam (davranış) çıxılmaları

Hakim qiymətləri arasındakı fərq aşağıda göstərildiyi kimi çox böyük olarsa belə, yuxarıdakı prinsiplərə daxil edilməyən bütün qiymətlər mümkün qiymətlər hesab ediləcəkdir:

**2.3.5 Yayınmaların avtomatik korreksiyası**

a) **ATG / BG / BAT / AER / AKRO** (R-Hakimləri)
*Bax "İstinad Hakimləri üzrə Qaydalar"*

**2.3.6 Qeyri-mümkün xalların hesab tablosu və televiziyada yayınlanmasının qarşısının alınması**

Yekun xal ictimaiyyətə açıqlanmamışdan qabaq müdaxilə edə bilməsi üçün müvafiq Müşahidəçi və ali hakimlər briqadasının Prezidentinə yekun xalın yayınlanmasını dayandırma və müdaxilə etmək məqsədilə nəticə sistemini bloklaşdırma imkanı verilir. Bu məqsədlə nəticə sistemi açıq şəkildə göstərilmiş **dayandırma** cihazı və ya düyməsi ilə təmin edilməlidir, hansı ki, son xal göstərildikdən sonrakı 10 (on) saniyə ərzində ya Müşahidəçi, ya da ali hakimlər briqadasının Prezidenti tərəfindən aktivləşidirlməlidir.

Xalın yayınlanması 10 saniyə ərzində dayandırılmazsa, xallar avtomatik olaraq göstəriləcəkdir. Hər növə aid aşağıdakı açıqlamalarda təsvir edildiyi kimi, hakimlər briqadasının D-xalları ilə Müşahidəçinin D-xalı arasında uyğunsuzluq olduqda, habelə müəyyən heyətin daxili qiymətləri arasında 2,00 xaldan artıq fərqin olması halında nəticə sistemi avtomatik olaraq bloklanmalıdır.

**2.4. Sorğu prosedurları**

2.4.1 Sorğu müvafiq növə aid qaydalarda müəyyən edilmiş şəxs tərəfindən müəyyən edilmiş yerdə qəbul edilir.

2.4.2 Həmin şəxs Yarış Koordinatoru və ali hakimlər briqadasının prezidentinə məlumat verir.

2.4.3 Yarış Koordinatoru dərhal Longines (SwissTiming) təşkilatının təmsilçisi və məruzəçini məlumatlandırır.

2.4.4 Ali hakimlər briqadasının prezidenti sorğuya nə vaxt cavab veriləcəyinə dair qərar verir (təsnifat mərhələsində rotasiyadan və ya qrupların müəyyənləşdirilməsi prosesindən sonra, bütün final mərhələsində isə növbəti gimnastın qiyməti göstərilməmişdən əvvəl) və Yarış Koordinatoruna bu barədə məlumat verir. Yarış Koordinatoru Longines (SwissTiming) təşkilatının təmsilçisi və məruzəçini məlumatlandırır.

2.4.5 Sorğu nəticəsində hərəkətin video icmalına ali hakimlər briqadasının prezidentindən və verilmiş qiymətin hazırlanması / verilməsi / icmalı prosesində iştirak etməmiş 2 üzvündən ibarət müstəqil və neytral briqada tərəfindən baxılır. Briqada həmçinin müvafiq müşahidəçinin verdiyi qiyməti də nəzərə alır. Briqadanın qərarı qəti xarakter daşıyır və bu qərara etiraz edilə bilməz. Əgər briqadanın verdiyi qiymət D-xalına bərabər olarsa, şikayət rədd edilir; əgər qiymət D-xalından fərqli olarsa, ilkin D-xalı heyətin verdiyi qiymət ilə əvəzlənməlidir. Ali hakimlər briqadasının prezidenti Yarış Koordinatoruna bu barədə məlumat verməlidir. Yarış Koordinatoru Longines (SwissTiming) təşkilatının təmsilçisi və məruzəçini məlumatlandırır.

2.4.6 Qiymət dəyişdirilərsə, ali hakimlər briqadasının prezidenti müşahidəçi və aidiyyatı D-hakimlərini bu haqda məlumatlandırır.

2.4.7 Ali hakimlər briqadasının prezidenti bütün sorğular və verilmiş qərarların qeydiyyatını aparmalıdır.

2.4.8 Dəyişdirilmiş qiymət dərhal Longines (SwissTiming) təşkilatının təmsilçisinə, yarış koordinatoruna və məruzəçiyə verilməlidir.

**3. İdman gimnastikası (kişilər və qadınlar arasında) üzrə açıqlamalar**

*TK Prezidentləri aşağıdakılara görə də məsuliyyət daşıyır:*

- Üfüqi tiri və ya halqaları qaldırma, tirin qeyri-bərabər olması, yarış sahəsini tərk etmə və yarana biləcək digər məsələlərlə bağlı istəklərə cavab vermək.

*TK Üzvlərinin vəzifələri aşağıdakılardır:*

- Müşahidəçilər (CI, CIV və CII mərhələlərində hər avadanlıq üzrə bir, CIII mərhələsində isə iki nəfər) birinci növbədə münsiflik etməli və D-xalına nəzarət etməlidir. Müşahidəçilərin D-xalı nəticə sistemində qeyd edilməlidir (məsələn Longines / SwissTiming sistemində). Nəticə sisteminin Müşahidəçilərin yekun nəticə və hakimlərin fərdi qiymətlərini görməsinə icazə verməsi üçün onlar əvvəl öz qiymətini daxil etməlidir.
- Hərəkətləri bütövlüklə simvollarla qeyd etmək.
- D-briqadasını qiymətləndirmək məqsədilə D-xalını (Nəzarət xallarını) hesablamaq.
- Müşahidəçilərin D-xalı üzrə müdaxiləsi o halda baş verir ki, onların qiyməti ilə D-xalı arasında 0,5 xaldan artıq fərq olsun.

*Müdaxilə prosedurları həmçinin aşağıdakıları ehtiva edir:*

Müşahidəçinin ali hakimlər briqadası prezidenti vasitəsilə D- və/və ya ola bilsin E-xallarına müdaxilə etməsi müstəqil və neytral (yəni, ilkin qiymətin hazırlanması / verilməsi / icmalı prosesində iştirak etməmiş şəxslərdən ibarət) heyət tərəfindən hərəkətin video icmalının həyata keçirilməsi ilə nəticələnməlidir. Heyətin tərkibi ali hakimlər briqadası prezidenti və D- və ya E-xallarına və onlara nəzarətə cəlb olunmamış 2 müstəqil Müşahidəçidən ibarətdir.

**4.Bədii gimnastika üzrə açıqlamalar**

BG TK-nin 6 üzvü aşağıdakı qaydada Müşahidəçi funksiyasını yerinə yetirir:

- Əgər iki hakim heyəti eyni anda fəaliyyət göstərirsə:
  - 2 TK üzvü bir heyət üçün Çətinlik üzrə nəzarət qiymətini verir
  - 2 TK üzvü digər heyət üçün Çətinlik üzrə nəzarət qiymətini verir
  - 2 TK üzvü hər iki avadanlıq üzrə İcra Texnikası nəzarət qiymətini verir, yaxud da TK, yarışdakı mövcud hakimlər arasında I və ya II kateqoriyadan olan bir nəfər hakimi Müşahidəçi təyin edə bilər.
- Əgər yarışda iki heyət eyni vaxtda fəaliyyət göstərmirsə (məsələn fərdi yarışların alət üzrə final mərhələsi):
  - 2 TK üzvü Çətinlik üzrə nəzarət qiymətini verir
  - 2 TK üzvü İcra Texnikası üzrə nəzarət qiymətini verir
- D- və E-xalları Longines (SwissTiming) Sistemində qeydə alınır. Yekun nəticə və hakimlərin fərdi qiymətlərini nəticə sistemində görmək üçün ali hakimlər briqadasının üzvləri (Prezidenti yox) əvvəl öz qiymətini daxil etməlidir.

Müşahidəçilərin D-xalı üzrə müdaxiləsi yalnız sorğu daxil olduqda edilməlidir.

**Ali Münsiflər Heyətinin Mövqeyi (Əsas Masa)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İcra texnikası müşahidəçisi (panel 1 və 2) | Çətinlik müşahidəçisi (panel 1) | Çətinlik müşahidəçisi (panel 1) | Ali hakimlər briqadası prezidenti | Çətinlik müşahidəçisi (panel 2) | Çətinlik müşahidəçisi (panel 2) | İcra texnikası müşahidəçisi (panel 1 və 2) |

**5.Batut gimnastikası üzrə açıqlamalar**

6 TK üzvünün Müşahidəçi qismində vəzifələri aşağıdakı kimidir:

- Əgər iki hakim heyəti eyni anda fəaliyyət göstərirsə:
  - (Fərdi / BAT / İMB) Hər heyət üçün 2 TK üzvü İcra texnikası üzrə nəzarət qiyməti, 1 TK üzvü isə Çətinlik üzrə nəzarət qiymətinin verilməsinə görə məsuliyyət daşıyır.
  - (SİN) Hər heyət üzrə 2 TK üzvü hər batutda yerinə yetirilmiş hərəkətlərin icra texnikasına görə nəzarət qiyməti, 1 TK üzvü isə çətinliyə görə nəzarət qiymətini verməlidir.
- Əgər yarışda iki heyət eyni vaxtda fəaliyyət göstərmirsə:
  - (Fərdi / BAT / İMB) 3 TK üzvü icra texnikası üzrə nəzarət qiyməti, 1 TK üzvü isə çətinlik üzrə nəzarət qiymətinin verilməsinə görə məsuliyyət daşıyır.
  - (SİN) 2 TK üzvü hər batut üzrə İcra texnikası nəzarət qiyməti, 1 TK üzvü isə Çətinlik nəzarət qiymətininin verilməsinə görə məsuliyyət daşıyır.

**5.1 D-xalı**

Müvafiq Müşahidəçilərin D-xalı D-hakimlərininkindən fərqli olduqda onlar ali hakimlər briqadası prezidenti vasitəsilə müdaxilə etməlidir. Batut yarışlarında çətinlik qiyməti dəqiq olmalıdır. Qiymətlər arasında heç bir uyğunsuzluğun olmasına icazə verilmir.

**5.2 E-xalı**

BAT növlərinin heç birində İstinad Hakimi olmur.

**5.3 Hakimlər briqadasının sədrinin vəzifələri**

Hakimlər briqadasının sədrinin (HHS) vəzifələri YQ-da müəyyən edilmişdir.

**5.4 Ali hakimlər briqadası Mövqeyi (Əsas Masa)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İcra üzrə müşahidəçi (panel 1) | İcra üzrə müşahidəçi (panel 1) | Çətinlik üzrə müşahidəçi (panel 1) | Ali hakimlər briqadası Prezidenti | Çətinlik üzrə müşahidəçi (panel 2) | İcra üzrə müşahidəçi (panel 2) | İcra üzrə müşahidəçi (panel 2) |

## 6. Aerobika gimnastikası üzrə açıqlamalar

6 TK üzvünün vəzifələri aşağıdakı kimidir:

- 2 TK üzvü çətinlik üzrə nəzarət qiymətini verən Müşahidəçi kimi çıxış edir
- 2 TK üzvü bədiilik üzrə nəzarət qiymətini verən Müşahidəçi kimi çıxış edir
- 2 TK üzvü İcra Texnikası üzrə nəzarət qiymətini verən Müşahidəçi kimi çıxış edir

**6.1 D-xalı**

D-Balları müəyyən qiymət üzrə razılaşan iki D-Hakimi və HHS tərəfindən verilir. Bu qiymət yekun hesab edilir və sorğunun daxil olması halı istisna olmaqla, qiymət üzrə müdaxilə edilə bilməz.

**6.2 A-xalı və E-xalı**

Referent hakimlər üzrə Qaydalar tətbiq edilir.

**6.3 Ali hakimlər briqadasının mövqeyi (Əsas Masa)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İcra üzrə müşahidəçi | Bədiilik üzrə müşahidəçi | Ali hakimlər briqadasının prezidenti | Çətinlik üzrə müşahidəçi | Çətinlik üzrə müşahidəçi | İcra üzrə müşahidəçi | Bədiilik üzrə müşahidəçi |

## 7.Akrobatika gimnastikası üzrə açıqlamalar

6 TK üzvünün vəzifələri aşağıdakı kimidir:

- 2 TK üzvü İcra Texnikası üzrə nəzarət qiymətini verən Müşahidəçi kimi çıxış edir
- 2 TK üzvü bədiilik üzrə nəzarət qiymətini verən Müşahidəçi kimi çıxış edir
- 2 TK üzvü çətinlik üzrə nəzarət qiymətini verən Müşahidəçi kimi çıxış edir

**7.1 D-xalı**

Verdikləri qiymət D-hakimlərininkindən fərqli olduqda D-müşahidəçiləri ali hakimlər briqadası prezidenti vasitəsilə müdaxilə etməlidir. Akrobatika yarışlarında çətinlik qiyməti dəqiq olmalıdır. Qiymətlər arasında heç bir uyğunsuzluğa icazə verilmir.

Müddət cəriməsi D-Hakimləri tərəfindən düzgün çıxılmadıqda D-Müşahidəçiləri Ali Münsiflər Heyətinin Prezidenti vasitəsilə müdaxilə etməlidir. D-Hakimləri ilə D-Müşahidəçisi arasında razılaşma əldə edilməzsə, yekun qərarı ali hakimlər briqadası prezidenti verəcəkdir.

**7.2 A-xalı və E-xalı**

Referent hakimlər üzrə qayda tətbiq edilir.

**7.3 Ali hakimlər briqadasının mövqeyi (Əsas Masa)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İcra üzrə müşahidəçi | Bədiilik üzrə müşahidəçi | Ali hakimlər briqadası prezidenti | Çətinlik üzrə müşahidəçi | Çətinlik üzrə müşahidəçi | İcra üzrə müşahidəçi | Bədiilik üzrə müşahidəçi |

Noyabr, 2012-ci il

BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASI

**Prof. Bruno QRANDİ**
*Prezident*

**Andre F. Qaysbuxler**
*Baş Katib*

## B) REFERENT HAKİMLƏR ÜÇÜN QAYDALAR

### Giriş

Referent hakimləri Sistemi (İHS), E- və A-xalları ilə bağlı problemlər yarandıqda vaxta qənaət edən avtomatik düzəliş sistemi kimi hazırlanmışdır. BGF-in R-Hakimlərini daxil etmə qərarı yarışlarda idman ədalətini daha da dəstəkləmək məqsədilə verilmişdir. Ənənəvi hakimlər panelindən tam müstəqil olan nəzarət orqanı yaratmaqla BGF təsadüfən və ya qəsdən edilmiş bütün ciddi səhvləri düzəltmək niyyətindədir.

### 1. Prinsiplər

- İdman gimnastikasında R-hakiminin xidmətlərindən icranı qiymətləndirmək məqsədilə istifadə olunur. R-hakimləri (hər hakim heyəti üçün 2 nəfər) müvafiq yarışların (C-I, C-II, C-III və C-IV; müvafiq hallarda) bütün alətləri üzrə hakimlik edirlər.
- Bədii gimnastikada R-Hakiminin xidmətlərindən icra texnikası və çətinliyi qiymətləndirmək məqsədilə istifadə olunur. R-Hakimləri (hər hakim heyəti üçün 2 nəfər) müvafiq fərdi və komanda yarışlarının (C-I, C-II, C-III və C-IV; müvafiq hallarda) bütün avadanlıqları üzrə hakimlik edirlər.
- Batut gimnastikasında (bütün növlər) R-Hakimlər olmur.
- Aerobika gimnastikasında R-hakiminin xidmətlərindən icranı və bədiiliyi qiymətləndirmək məqsədilə istifadə olunur. R-hakimləri (hər E-hakimləri heyəti üzrə 2 və hər A-hakimləri heyəti üzrə 2 nəfər) müvafiq fərdi, cütlük, üçlük, qrup, AERO step və AERO rəqs yarışlarında bütün hərəkətləri qiymətləndirir.
- Akrobatika gimnastikasında R-hakiminin xidmətlərindən icra və bədiiliyi qiymətləndirmək məqsədilə istifadə olunur. R-hakimləri (hər E-hakimləri heyəti üzrə 2 və hər A-hakimləri heyəti üzrə 2 nəfər) müvafiq cütlük və qrup yarışlarında bütün hərəkətləri qiymətləndirir.

### 2. Ətraflı hesablama sistemi və nümunələr

İHS-də E-Hakiminin qiyməti ilə RE-Balı arasında müqayisə aparılır. Əgər bu iki qiymət arasındakı fərq əvvəlcədən müəyyən edilmiş icazə verilən dəyərdən **artıq** olarsa (aşağıdakı cədvələ bax), RE- və E-Hakimlərinin qiymətlərinin orta dəyəri "yekun" E-Balını təşkil edir və E-Hakiminin qiymətini əvəzləyir.

#### 2.1. İdman gimnastikası

RE-xalı (birinci sütun) RE-xalı ilə E-hakiminin qiyməti arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| RE-Balı | RE-Balı və E-Hakiminin qiyməti arasında icazə verilən fərq |
|---|---|
| 9,600 – 10,00 | 0,05 xal |
| 9,400 – 9,599 | 0,10 xal |
| 9,000 – 9,399 | 0,15 xal |
| 8,500 – 8,999 | 0,20 xal |
| 8,000 – 8,499 | 0,30 xal |
| 7,500 – 7,999 | 0,40 xal |
| 0,000 – 7,499 | 0,50 xal |

Fərq icazə verilən dəyərə bərabər və ya daha aşağı olarsa, E-hakiminin qiyməti dəyişdirilmir; fərq icazə verilən dəyərdən böyük olarsa, "yekun" E-xalını RE- və E-hakimlərinin verdiyi qiymətlərin orta dəyəri təşkil edir.

"Yekun" E-xalının hesablanması (*fərq* həddən artıq böyük olduqda)

| E1 | E2 | E3 | E4 | E5 | **E-hakiminin qiyməti** |
|---|---|---|---|---|---|
| 8,9 | 9,0 | 9,0 | 8,9 | 9,2 | **8,967** |

| RE1 | RE2 | **RE xalı** |
|---|---|---|
| 9,1 | 9,2 | **9,150** |

Fərq: **0,183 xal**

| **E-hakiminin qiyməti** | | **RE-xalı** | | | | **Yekun E-xalı** |
|---|---|---|---|---|---|---|
| 8,967 | + | 9,150 | = | 18.117 / **2** | = | **9,058** |

**İstisnalar:**

2 RE-hakiminin qiyməti arasındakı fərq əvvəlcədən müəyyən edilmiş icazə verilən dəyərdən artıq olarsa (aşağıdakı cədvələ bax), RE-xalı ümumiyyətlə nəzərə alınmır (yəni, E-xalının hesablanması "ənənəvi" üsulla həyata keçirilir və E-hakiminin qiyməti dəyişmir).

E-hakiminin qiyməti (birinci sütun) iki RE-hakimi arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| E-Hakiminin | RE1 və RE2 arasında icazə verilən maksimal fərq |
|---|---|
| 9,600 - 10,000 | 0,0 xal |
| 9,400 – 9,599 | 0,1 xal |
| 9,000 – 9,399 | 0,2 xal |
| 8,500 – 8,999 | 0,3 xal |
| 8,000 – 8,499 | 0,4 xal |
| 7,500 – 7,999 | 0,5 xal |
| < 7.500 | 0,6 xal |

## 2.2.Bədii Gimnastika

### 2.2.1.E-xalları

RE-xalı (birinci sütun) müvafiq RE-xalı ilə E-hakiminin qiyməti arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| RE-Balı | RE-Balları və E-Hakiminin qiyməti arasında icazə verilən |
|---|---|
| 9,300 – 10,000 | 0,10 xal |
| 8,700 – 9,299 | 0,20 xal |
| 8,100 – 8,699 | 0,30 xal |
| 7,500 – 8,099 | 0,40 xal |
| 0,000 – 7,499 | 0,50 xal |

Fərq icazə verilən dəyərə bərabər və ya daha aşağı olarsa, E-hakiminin qiyməti dəyişdirilmir; fərq icazə verilən dəyərdən böyük olarsa, "yekun" E-xalını RE- və E-hakiminin verdiyi qiymətlərin orta dəyəri təşkil edir.

<u>"Yekun" E-xalınının hesablanması (*fərq* həddən artıq böyük olduqda)</u>

| E1 | E2 | E3 | E4 | E5 | **E-hakiminin qiyməti** |
|---|---|---|---|---|---|
| ~~8,6~~ | 8,7 | 8,8 | ~~8,9~~ | 8,8 | **8,767** |

| RE1 | RE2 | **RE Balı** |
|---|---|---|
| 8,9 | 9,1 | **9,000** |

Fərq: **0,233 xal**

| **E-hakiminin** | | **RE-xalı** | | | | **Yekun E-balı** |
|---|---|---|---|---|---|---|
| 8,767 | + | 9,000 | = | 17.767 / **2** | = | **8,884** |

**<u>İstisnalar:</u>**

2 RE-hakiminin qiyməti arasındakı fərq əvvəlcədən müəyyən edilmiş icazə verilən dəyərdən artıq olarsa (aşağıdakı cədvələ bax), RE-xalı <u>ümumiyyətlə</u> nəzərə alınmır (yəni, E-xallarının hesablanması "ənənəvi" üsulla həyata keçirilir və E-Hakiminin qiyməti dəyişmir).

E-hakiminin qiyməti (birinci sütun) iki RE-hakimi arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| E-Hakiminin | RE1 və RE2 arasında icazə verilən maksimal fərq |
|---|---|
| 9,500 - 10,00 | 0,1 xal |
| 9,000 - 9,499 | 0,2 xal |
| 8,500 - 8,999 | 0,3 xal |
| 8,000 - 8,499 | 0,4 xal |
| 7,500 - 7,999 | 0,5 xal |
| <7.500 | 0,6 xal |

### 2.2.2. D-xalları

Hər paneldə iki RD-hakimi olmalıdır.

İki RD-hakimi bir-birinin yanında oturmalı və ümumi qiymət barədə razılığa gəlməlidir.

RD-xalı (birinci sütun) müvafiq RD-xalı ilə D-hakiminin qiyməti arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| RD-xalı | RD-xalı və D-hakiminin qiyməti arasında icazə verilən fərq |
|---|---|
| 0,000 – 10,000 | 0,30 xal |

Fərq icazə verilən dəyərə bərabər və ya daha aşağı olarsa, E-Hakiminin qiyməti <u>dəyişdirilmir</u>; fərq icazə verilən dəyərdən böyük olarsa, "yekun" D-xalını RD- və D-hakiminin verdiyi qiymətlərin orta dəyəri təşkil edir.

"Yekun" D-xalının hesablanması (*fərq* həddən artıq böyük olduqda)

| D1 | D2 | D3 | D4 | **D-Hakiminin qiyməti** |
|---|---|---|---|---|
| ~~8,6~~ | 8,7 | 8,8 | ~~8,9~~ | **8,767** |

| **RD xalı** |
|---|
| **8,400** |

Fərq:
**0,367 xal**

| **D-hakiminin qiyməti** | | **RD-xalı** | | | | **Yekun D-xalı** |
|---|---|---|---|---|---|---|
| 8,767 | + | 8,400 | = | 17,167 / **2** | = | **8,584** |

2.3.**Aerobika gimnastikası**

RE/RA-xalı (birinci sütun) müvafiq RE/RA-xalı ilə E/A-hakiminin qiyməti arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| RE/RA-xalı | RE/RA-xalları və E/A-hakiminin qiyməti arasında icazə verilən fərq |
|---|---|
| 9,000 – 10,00 | 0,10 xal |
| 8,000 – 8,999 | 0,20 xal |
| 7,500 – 7,999 | 0,30 xal |
| 0,000 – 7,499 | 0,40 xal |

Fərq icazə verilən dəyərə bərabər və ya daha aşağı olarsa, E/A-hakiminin qiyməti dəyişdirilmir; fərq icazə verilən dəyərdən böyük olarsa, "yekun" E/A-xalını RE/RA- və E/A-hakiminin verdiyi qiymətlərin orta dəyəri təşkil edir.

"Yekun" E/A-xalının hesablanması (*fərq* həddən artıq böyük olduqda)

| E/A 1 | E/A 2 | E/A 3 | E/A 4 | **E/A-hakiminin qiyməti** |
|---|---|---|---|---|
| 8,6 | ~~8,7~~ | 8,8 | 8,9 | **8,750** |

| RE/RA 1 | RE/RA 2 | **RE/RA xalı** |
|---|---|---|
| 9,0 | 9,1 | **9,050** |

Fərq: **0,300 xal**

| **E/A-hakiminin qiyməti** | | **RE/RA xalı** | | | | **Yekun E/A-xalı** |
|---|---|---|---|---|---|---|
| 8.750 | + | 9.050 | = | 17.800 / **2** | = | **8.900** |

**İstisnalar:**

2 RE/RA-hakiminin xalı arasındakı fərq əvvəlcədən müəyyən edilmiş icazə verilən dəyərdən artıq olarsa (aşağıdakı cədvələ bax), RE/RA-xalı ümumiyyətlə nəzərə alınmır (yəni, E/A-xallarının hesablanması "ənənəvi" üsulla həyata keçirilir və E/A-hakiminin qiyməti dəyişmir).

E/A-hakiminin qiyməti (birinci sütun) iki RE/RA-hakimi arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| E/A-hakiminin | RE1/RE2 və RA1/RA2 arasında icazə verilən maksimal |
|---|---|
| 9,000 – 10,00 | 0,10 xal |
| 8,000 – 8,999 | 0,20 xal |
| 7,500 – 7,999 | 0,30 xal |
| 0,000 – 7,499 | 0,40 xal |

2.4.**Akrobatika gimnastikası**

RE/RA-xalı (birinci sütun) müvafiq RE/RA-xalı ilə E/A-hakiminin qiyməti arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| RE/RA-xalı | RE/RA-xalları və E/A-hakiminin qiyməti arasında icazə verilən |
|---|---|
| 9,700 – 10,00 | 0,00 xal |
| 9,400 – 9,699 | 0,00 xal |
| 8,900 – 9,399 | 0,10 xal |
| 8,000 – 8,899 | 0,20 xal |
| 7,000 – 7,999 | 0,30 xal |
| < 6.999 | 0,40 xal |

Fərq icazə verilən dəyərə bərabər və ya daha aşağı olarsa, E/A-hakiminin qiyməti dəyişdirilmir; fərq icazə verilən dəyərdən böyük olarsa, "yekun" E/A-xalını RE/RA- və E/A-hakiminin verdiyi qiymətlərin orta dəyəri təşkil edir.

"Yekun" E/A-xalınının hesablanması (*fərq* həddən artıq böyük olduqda)

| E/A 1 | E/A 2 | E/A 3 | E/A 4 | **E/A-hakiminin qiyməti** |
|---|---|---|---|---|
| 9,6 | 9,5 | 9,6 | 9,4 | **9,550** |

| RE/RA 1 | RE/RA 2 | **RE/RA xalı** |
|---|---|---|
| 9,7 | 9,7 | **9,700** |

Fərq: **0,150 xal**

| **E/A-hakiminin qiyməti** | | **RE/RA xalı** | | | | **Yekun E/A-xalı** |
|---|---|---|---|---|---|---|
| 9.550 | + | 9.700 | = | 19.250 / **2** | = | **9.625** |

**İstisnalar:**

2 RE/RA-hakiminin xalı arasındakı fərq əvvəlcədən müəyyən edilmiş icazə verilən dəyərdən artıq olarsa (aşağıdakı cədvələ bax), RE/RA-xalı ümumiyyətlə nəzərə alınmır (yəni, E/A-xallarının hesablanması "ənənəvi" üsulla həyata keçirilir və E/A-hakiminin qiyməti dəyişmir).

E/A-hakiminin qiyməti (birinci sütun) iki RE/RA-hakimi arasında icazə verilən maksimal fərqi (ikinci sütun) müəyyən edir:

| E/A-hakiminin | RE1/RE2 və RA1/RA2 arasında icazə verilən maksimal |
|---|---|
| 9,700 – 10,00 | 0,00 xal |
| 9,400 – 9,699 | 0,10 xal |
| 8,900 – 9,399 | 0,20 xal |
| 8,000 – 8,899 | 0,30 xal |
| 7,000 – 7,999 | 0,40 xal |
| < 6.999 | 0,50 xal |

**3. Referent hakimlərin seçimi**

**a)** Müvafiq BGF yarışları üzrə bütün R-Hakimlərinin namizədliyi aşağıdakı seçim meyarları əsasında müvafiq TK tərəfindən irəli sürülür:
- 1: Yüksək imtahan nəticələri, xüsusilə icra texnikası üzrə (həmçinin RG-Hakimləri üçün çətinlik, aerobika və ya akrobatika hakimləri üçün isə artistizm üzrə)
- 2: Kateqoriya
- 3: D-Hakimləri ilə eyni federasiyanı təmsil edə bilər

**b)** Müvafiq BGF yarışları üzrə bütün R-Hakimləri müvafiq TK Prezidentinin təklifindən sonra BGF-nin Prezident Komissiyası tərəfindən yarışların başlamasından ən azı 3 ay əvvəl təyin edilir.

**c)** Yalnız I və II kateqoriyadan olan və həm cari, həm də əvvəlki dövrlərdə sanksiyalara məruz qalmamış Hakimlər R-Hakimləri təyin edilə bilər.

**d)** R-Hakimləri təyin edilərkən sadalanan vacib meyarlar nəzərə alınmalıdır: təcrübə və dürüstlük.

**e)** Hakim və ya federasiya R-hakimi olaraq namizədliyinin irəli sürülməsini qəbul etməzsə, bu hakim həmin yarışın D-hakimi seçilə, yaxud da E- və ya A-Hakimi kimi namizədliyi irəli sürülə bilməz.

**4. R-Hakimlərinin təyinatı**

4.1 **İdman gimnastikasında** yarışın hər mərhələsində hakim mövqelərini müəyyən etmək məqsədilə R-hakimləri arasında püşk atılır.

Təyinat, püşkatma prinsipləri və prosedurları:

**a)** Bir paneldə (Müşahidəçi istisna olmaqla) eyni federasiyadan 2 hakim ola bilməz. R1 və R2-Hakimləri müxtəlif federasiyaları təmsil etməlidir. (Bax TR 1-ci Bölmə 7.8.2 saylı Reqlament). Buna görə də aşağıda sadalanmış b) - e) bəndlərindəki qaydalara riayət edilməlidir.

**b)** R-Hakimlərinin təmsil etdiyi federasiya E1-E5-hakimlərinkindən fərqli olmalıdır

**c)** Əgər püşkatma əsnasında R-hakimi D1- və ya D2-hakimi ilə eyni federasiyadan olarsa, o, "Olimpiya qaydasına" uyğun olaraq üfüqi istiqamətdə növbəti alətə yerləşdirilir.

**d)** Əgər püşkatma əsnasında E-hakimi D1-, D2, və ya R2-hakimi ilə eyni federasiyadan olarsa, o, "Olimpiya qaydasına" uyğun olaraq üfüqi istiqamətdə növbəti alətə yerləşdirilir.

**e)** C-III/Alət üzrə final mərhələsi: R-hakimləri imkan daxilində neytral olmalıdır; Əgər püşkatma əsnasında R-hakimi D1- və ya D2-hakimi ilə eyni federasiyadan olar və ya neytral olmazsa, o, "Olimpiya qaydasına" uyğun olaraq üfüqi istiqamətdə növbəti alətə yerləşdirilir.

**4.2. Bədii gimnastikada** R-hakimlərinin mövqeləri BGF Prezident Komissiyası tərəfindən TK Prezidentinin təklifi əsasında müəyyən edilir.

Təyinat, püşkatma prinsipləri və prosedurları:

**a)** Bir paneldə eyni federasiyanı təmsil edən 2 hakim ola bilməz. (bax TR 1-ci Bölmə Reqlament 7.8.2 ). Buna görə də aşağıdakı b) və c) bəndlərindəki qaydalara riayət edilməlidir.

**b)** RE1- və RE2-, həmçinin RD1- və RD2-Hakimləri müxtəlif federasiyaları təmsil etməlidir

**c)** RE-Hakimlərinin təmsil etdiyi federasiya E1-E5- və D1-D4-hakimlərinkindən fərqli olmalıdır. RD-hakimlərinin təmsil etdiyi federasiya E1-E5- və D1-D4-hakimlərinkindən fərqli olmalıdır. Hər panel üçün E- və D-hakimləri seçilərkən bu qaydalara ciddi şəkildə riayət edilməlidir.

**4.3 Aerobika gimnastikasında** R-hakimlərinin mövqeləri BGF Prezident Komissiyası tərəfindən TK Prezidentinin təklifi əsasında müəyyən edilir.

Təyinat, püşkatma prinsipləri və prosedurları:

**a)** Bir paneldə eyni federasiyanı təmsil edən 2 hakim ola bilməz (bax TR 1-ci Bölmə 7.8.2 saylı Reqlament).
Buna görə də aşağıdakı b) və c) bəndlərindəki qaydalara riayət edilməlidir.

**b)** RE1- və RE2-, həmçinin RA1- və RA2-hakimləri müxtəlif federasiyaları təmsil etməlidir

**c)** R-hakimlərinin təmsil etdiyi federasiya HHS, D9-E10-hakimləri, E1-E4-hakimləri və A5-A8-hakimlərinkindən fərqli olmalıdır. Hər panel üçün müxtəlif hakimlər seçilərkən bu qaydalara ciddi şəkildə riayət edilməlidir.

**4.4 Akrobatika gimnastikasında** R-hakimlərinin mövqeləri BGF Prezident Komissiyası tərəfindən TK Prezidentinin təklifi əsasında müəyyən edilir.

Təyinat, püşkatma prinsipləri və prosedurları:

**a)** Bir paneldə eyni federasiyanı təmsil edən 2 hakim ola bilməz (bax TR 1-ci Bölmə 7.8.2 saylı Reqlament). Buna görə də aşağıdakı b) və c) bəndlərindəki qaydalara riayət edilməlidir.

**b)** RE1- və RE2-, həmçinin RA1- və RA2-hakimləri müxtəlif federasiyaları təmsil etməlidir

**c)** R-Hakimlərinin təmsil etdiyi federasiya HHS və E1-E4-hakimlərinkindən fərqli olmalıdır. Hər panel üçün müxtəlif hakimlər seçilərkən bu qaydalara ciddi şəkildə riayət edilməlidir. Lakin R-Hakimləri D1- və D-2Hakimləri ilə eyni federasiyanı təmsil edə bilər.

**5. Təmsilçilik**

Bütün R-hakimləri BGF-in Prezident Komissiyası tərəfindən təyin edilsələr (irəli sürülsələr) də, onlar milliyyətinə uyğun olaraq "işarələnməlidir", yəni hesab tablosunda, çap olunmuş hakim siyahılarında və nəticələrdə, televiziya qrafikalarında və s. onlar öz Millli Federesiyalarının təmsilçiləri kimi təqdim olunmalıdır.

**6. R-xallarının dərc edilməsi və nümayiş olunması**

a) Hesab tabloları

- Yarışların keçirildiyi zallardakı hesab tablolarında (matris tablolar, video divarlar, plazma ekranlar və s.) R-hakimlərinin fərdi qiymətləri və R-xalı nümayiş olunmur.

b) Nəticələr (o cümlədən PDF faylları)

- Nümayəndə heyətləri, media və s. üçün yarışlar vaxtı (yarışın hər mərhələsindən sonra) çap olunan nəticələrə R-hakimlərinin fərdi qiymətləri və R-xalı daxil edilmir.
- Müvafiq TK, BGF-in Prezidenti, BGF-in Baş Katibi, Apellyasiya hakimləri və Yarışların Müşahidə briqadası üçün yarışlar vaxtı (yarışın hər bir mərhələsindən sonra) çap olunan nəticələrə R-hakimlərinin fərdi qiymətləri və R-xalı daxil edilir.
- Yarış / çempionat başa çatdıqdan sonra üzv federasiyalara paylamaq üçün çap olunan nəticələrə ("bütün hakimlərin verdiyi xalları özündə ehtiva edən tam nəticə bəyanatı") R-hakimlərinin fərdi qiymətləri və R-xalı daxil edilir.
  (*hərəkət üzrə qiymməti hesablamaq üçün R-xalının istifadə edildiyini bildirmək üçün ulduz (*) işarəsindən istifadə edilir*)

c) Televiziya qrafikaları

- R-Hakimlərinin istifadə olunduğu yarışlar üzrə televiziya qrafikalarında onların fərdi qiymətləri və R-xalı nümayiş olunmur.

d) Şərhçi İnformasiya Sistemi

- R-Hakimlərinin fərdi qiymətləri və R-xalı yalnız müvafiq Ali hakimlər briqadası, BGF-nin Prezidenti, Baş Katibi, Apellyasiya hakimləri və Yarışların Müşahidə briqadası ŞİS sistemində nümayiş olunur.

**7. R-Hakimlərinin yerləşdirilməsi**

Müxtəlif növlərdə və müxtəlif alət və ya panellər üzrə R-hakimlərinin yerləşdirilməsi Longines (SwissTiming) təşkilatı ilə razılaşdırılmış və müvafiq TK Prezidentləri tərəfindən təsdiqlənmiş çertyojlara uyğun qaydada həyata keçirilir.

8. **<u>İHS-in tətbiqi</u>**

Cari Olimpiya Dövrü (2013-2016):

- ATG/BG/BAT/AER/AKRO: BGF TK 4.11.4.1 saylı Reqlamentinin A paraqrafında sadalanmış bütün yarışlar

***Qeyd:*** *"Digər yarışlarda da R-hakimləri istifadə edilə bilər, amma bu məcburi deyil."*

9. **<u>Referent hakimləri olmadıqda xalların hesablanması</u>**

Referent hakimlərin təyin edilmədiyi bütün yarışlarda etibarlı bal(lar)ın hesablanması xüsusi Yarış Qaydalarında təsvir edilmiş şəkildə həyata keçirilir. Ali hakimlər tərəfindən istənilən müdaxilə yalnız qeyri-mümkün xalların verilməsi halında həyata keçirilə bilər.

10. **<u>Digər Müddəalar</u>**

**a)** Aydındır ki, yarışdan sonra TK hakimlərin D-, E- və (müvafiq olduqda) A-xallarını, o cümlədən R-hakimlərinin qiymətlərini təhlil edir.

**b)** R-hakimlərinin hüququ və vəzifələri eynən digər hakimlərin müvafiq YQ sənədində qeyd edilmiş hüquq və vəzifələri kimidir.

Bu qaydalar İK tərəfindən 2021-ci ilin oktyabr ayında hazırlanmış və yenilənmişdir. Onlar YQ sənədinə əlavə hesab edilməlidir. Bu qaydalar ilə YQ arasında ziddiyyət olarsa, bu qaydalar üstün hesab ediləcəkdir.

BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASI

**Prof. Bruno QRANDİ**
*Prezident*

**Andre F. Qaysbuxler**
*Baş Katib*

# C) TNS SİSTEMLƏRİNDƏN İSTİFADƏ QAYDALARI

**Yarış vaxtı TNS-dən məhdud istifadə üzrə göstərişlər**

Yarışın cədvələ uyğun şəkildə keçirilməsini təmin etmək məqsədilə sistemdən sui-istifadə və həddən artıq çox video mühakiməyə əl atmanın qarşısını almaq üçün TNS ciddi şəkildə məhdudlaşdırılmalı və onun istifadəsi aşağıda qaydada idarə olunmalıdır:

**TNS yalnız sorğu olduqda istifadə edilə bilər**

İstisnalar:

a) Ali hakimlər briqadasının prezidenti, Apellyasiya hakimləri və Yarışların Müşahidə Şurası, habelə BGF-in Prezidenti və Baş Katibi istənilən vaxt TNS-dən istifadə etmə imkanına malikdir.
b) Müşahidəçilər qiymətlərini verdikdən sonra onlara da TNS-dən istifadə imkanı verilir.
c) D-hakimlərinə TNS-dən istifadə imkanı yalnız Müşahidəçi və ya Ali hakimlər briqadasının prezidenti tərəfindən müdaxilə halında verilir.
d) Kişilər və qadınlar arasında idman gimnastikası yarışlarında dəstəli atında səhv hərəkət halında etiraz edilərsə, D-hakimlərinə TNS-dən istifadə imkanı verilə bilər.

Əsaslandırma:
TNS mövcud hakimlər sistemini video mühakimə sistemi ilə əvəzləmək məqsədilə təqdim **EDİLMƏMİŞDİR**.

**TNS-in məqsədləri aşağıdakılardır:**

*Yarışlar vaxtı:*

Aşağıdakı şəxslər üçün dəstək vasitəsi:
Ali Münsiflər Heyətinin Prezidenti
Apellyasiya Münsifləri və Yarışların Müşahidə Şurası
Sorğularla məşğul olan heyət
Qeyri-mümkün qiymətlər və müvafiq hallarda D-Balları verildikdə - Müşahidəçilər üçün
Müşahidəçi və ya Ali Münsiflər Heyətinin Prezidenti tərəfindən müdaxilə halında - D-Hakimləri üçün

*Yarışlardan sonra:*

Sadalanan məqsədlər üçün vasitə
Hakimliyə nəzarət və onun təhlili
Məşqçilər, hakimlər və Akademiyalar üçün təlim videosu
Üzv federasiyalar və digər maraqlı şəxslər
TNS-dən istifadə üçün nəzərdə tutulmuş bu qaydalar İK tərəfindən 2012-ci ilin oktyabr ayında hazırlanmış və yenilənmişdir. Onlar bütün əvvəlki versiyaları əvəzləyir və YQ sənədinə əlavə hesab edilməlidir. Bu qaydalar ilə YQ arasında ziddiyyət olarsa, bu qaydalar üstün hesab ediləcəkdir.

BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASI

**Prof. Bruno QRANDİ**
*Prezident*

**Andre F. Qaysbuxler**
*Baş Katib*